Hər kəs ədalətli olacaq

# ƏDALƏT

## Spikerdən deputatlara çağırış: Beşqat artığını yazmalıyıq



**"Hər biriniz dostluq qrupun üzvlərinə məktub yazmalısınız".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin payız sessiyasının ilk iclasında sədr Sahibə Qafarova deyib.

Onun sözlərinə görə, beynəlxalaq təşkilatlar öz yerində, ancaq hər bir deputat dostluq qruplarına məktub göndərməlidir:

**"Həqiqətləri hər kəsə, xüsusən də Avropa dövlətlərinə çatdırmaq lazımdır. Mən Fransada sədrlə görüş zamanı dedim, ancaq onlar eşitmək belə istəmirlər.**

**Hər birimizin əlində sosial şəbəkə var, necə ki onlar yazırlar, biz beşqat artığını yazmalıyıq", - deyə Sahibə Qafarova vurğulayıb.**

## Ərdoğan: "Qarabağ məsələsində haqq yerini tapdı"



**"Qarabağ məsələsində haqq yerini tapdı".**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Böyük Millət Məclisində çıxışı zamanı bildirib.

O qeyd edib ki, 30 ildən sonra Qarabağ azadlığa qovuşub.

Ərdoğan əlavə edib ki, Türkiyə dostlarının sayını artırmaq istəyir və uzatdığı dostluq əlini qəbul edənlərlə əməkdaşlığa hazırdır.

## Qarabağda antiterror tədbirlərindən sonra ərazilər qarış-qarış yoxlanır



**Qarabağda lokal antiterror tədbirlərindən sonra Azərbaycanın nəzarəti altında keçən ərazilərdə aşkarlanan mina və digər təhlükələr zərərsizləşdirilir.**

Adalet.az xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

**Bildirilib ki, əməkdaşlar tərəfindən Vətən torpaqları qarış-qarış yoxlanılır: "Aşkarlanan mina və digər təhlükələr zərərsizləşdirilir".**

## DİN: "Qarabağda vəziyyətin dekriminallaşması ilə bağlı ciddi işlər aparılır"



**"Qarabağ iqtisadi rayonunun bütün bölgələrində, küçələrdə, kəndlərdə vəziyyətin dekriminallaşması ilə bağlı ciddi şəkildə iş aparılır".**

Adalet.az xəbər verir ki, bunu Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətinin rəisi Elşad Hacıyev jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, aidiyyəti dövlət qurumları ilə birgə bu işin təşkili və aparılması diqqət mərkəzindədir:

**"Yalnız narkotik vasitələr yox, sürpiz mina hallarına qarşı da ciddi şəkildə işlər həyata keçirilir. Dünən də bir neçə rayonda, körpülərdə, su hövzələrində və insanların hərəkət edə biləcəyi ehtimal olunan yerlərdə mina təhlükəsinin olduğu müəyyənləşib".**

## BMT missiyasından Qarabağa səfərin yekunları ilə bağlı bəyanat



**Azərbaycan hökuməti Xankəndidə səhiyyə və digər məişət xidmətlərinin bərpasına hazırlaşır.**

Adalet.az xəbər verir ki, bu barədə BMT-nin Azərbaycanın Qarabağ regionuna səfəri ilə yaydığı bəyanatda deyilir.

Missiya burada yerli əhali və digər şəxslərlə söhbət edib, eləcə də səhiyyə və təhsil müəssisələrindəki vəziyyətlə yerindəcə tanış olublar. Missiya üzvlərinin Xankəndi şəhərində getdikləri yerlərdə mülki və ictimai infrastruktura, o cümlədən xəstəxana, məktəb, yaşayış binaları, mədəni və dini obyektlərə heç bir ziyan dəyməyib.

Missiya həmçinin Azərbaycan hökumətinin şəhərdə səhiyyə və digər məişət xidmətlərinin bərpasına hazırlaşdığını müşahidə edib. BMT təmsilçiləri fəaliyyət göstərən heç bir mağaza görməyib.

Missiyaya son atəşkəsdən sonra dinc əhaliyə qarşı zorakılıq halları ilə bağlı nə yerli əhalidən, nə də digər həmsöhbətlərdən şikayət daxil olmayıb. BMT-nin Azərbaycandakı nümayəndəliyi regiona müntəzəm səfərlərini davam etdirməyi planlaşdırır.

## Xankəndidə bir küçəyə Ənvər Paşanın adı verildi

**Xankəndidə küçələrdən birinə Ənvər Paşanın adı verilib.**

Bu, Azərbaycan ordusunun konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Qarabağda keçirdiyi lokal antiterror tədbirlərindən sonra mümkün olub.

Qeyd edək ki, Ənvər Paşanın Azərbaycanı yadelli işğaldan azad edən Qafqaz İslam Ordusunun qurulmasında müstəsna xidmətləri olub.

## Qarabağda yayım üçün iki TV-yə lisenziya verildi



**Audiovizual Şuranın növbədənkənar iclası keçirilib. Şuradan Adalet.az-a verilən məlumata görə, iclasda Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunun ərazisində keçirdiyi uğurlu və sürətli lokal antiterror tədbirləri, bu tədbirlərdən sonra bölgədə yaranan vəziyyət, həmin bölgədə yaşayan əhalinin informasiya təminatının yaradılması və bölgənin ümumölkə informasiya məkanına reinteqrasiyasının təmin olunması, habelə lisenziyaların alınması üçün "Baku TV" MMC-nin və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin Azərbaycan Respublikası Audiovizual Şurasına müraciətləri müzakirə olunub.**

Qarabağ iqtisadi rayonunun ərazisində yaşayan əhalinin obyektiv və operativ informasiya ilə təminatının yaradılmasının təxirəsalınmazlığını nəzərə alaraq Azərbaycan Respublikası Audiovizual Şurası "Baku TV" MMC-yə peyk yayımı həyata keçirən platforma yayımçısı (televiziya redaksiyasının adı "Baku TV"), "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-yə ümumölkə yerüstü radio yayımıçısı (radio redaksiyanın adı "Azərbaycan Beynəlxalq Radiosu") lisenziyalarının verilməsi haqqında müvafiq qərarlar qəbul edib.

Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 38 (6031) 6 oktyabr 2023-cü il | Qiyməti 40 qəpik

# Azərbaycan beştərəfli görüşdən imtina etdi



Bax:səh-2

## Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyətini dayandırır



**Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupu Fransa Respublikasının Milli Assambleyasında Fransa-Azərbaycan dostluq qrupunun fəaliyyətinin və işçi qrupu ilə əlaqələrinin dayandırılması barədə məlumatı təəssüf hissi ilə qarşılayır.**

Adalet.az xəbər verir ki, Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupu qeyd olunan məlumatı nəzərə alaraq, Fransa tərəfindən müvafiq addımlar atılanadək öz fəaliyyətini və Fransa-Azərbaycan dostluq qrupu ilə əlaqələrini müvəqqəti olaraq dayandırır.

## Aqil Abbas müəllimləri təbrik etdi

**Milli Məclisin deputatı Aqil Abbas Azərbaycan müəllimlərini təbrik edib.**

Təbrikdə deyilir:

"Mənalı ömrünü xalqımızın parlaq gələcəyinə həsr edən müqəddəs peşənin sahibləri, əziz müəllimlər!

Sizi 5 Oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, xoşbəxt və firavan həyat, məsuliyyətlə çalışdığınız şərəfli fəaliyyətinizdə böyük müvəffəqiyyətlər arzulayıram.

Hörmətli müəllimlər, Siz cəmiyyətimizin və dövlətimizin maraqlarından çıxış edərək öz peşə fəaliyyətinizi yüksək keyfiyyətlə və səmərəli şəkildə yerinə yetirir, bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi göstərirsiniz.

Əziz müəllimlər, hörmətli təhsil işçiləri, bir daha Sizi bu əlamətdar gün münasibətilə təbrik edir, sağlam və təhlükəsiz əmək, normal iş şəraiti, mənalı və şərəfli fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram".

## İran XİN-dən Ərdoğanın Zəngəzur dəhlizi ilə bağlı fikirlərinə münasibət

**Rəsmi Tehran Qafqaz regionunda sülh və sabitliyin hökm sürməsində maraqlıdır və buna görə də bəyan etmişdik ki, İran işğal olunan Qarabağın Azərbaycana qaytarılmasının tərəfdarıdır.**

Adalet.az xəbər verir ki, bu sözləri İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Nasir Kənani Tehranda keçirdiyi həftəlik mətbuat konfransında deyib.

O, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngəzur dəhlizinin açılmasının zəruriliyi barədə fikirlərinə də münasibət bildirib: "Biz regionun bütün ölkələrinin maraqlarını təmin edən kommunikasiyaların inkişafının tərəfdarıyıq.

İran region dövlətlərinin arasındakı məsələlərin 3+3 formatında həll olunmasını istəyir və bölgəyə kənar qüvvələrin cəlb edilməsinin əleyhinədir".

N.Kənani qeyd edib ki, Azərbaycanın rəsmi şəxslərinin İrana səfəri hazırlanır: "Bu səfərlə bağlı işlər və danışıqlar aparılır. Ümid edirik ki, səfər baş tutacaq və Azərbaycanın İrandakı səfirliyi fəaliyyətini bərpa edəcək".

## *Azərbaycanın Qranada görüşündən imtina etməsinə Türkiyədən reaksiya*

**Türkiyə Azərbaycan Prezidenti İlham Əliyevin Qranada görüşündən imtina etməsini təqdir edir. Adalet.az xəbər verir ki, bu barədə Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AK Partiya) sözçüsü Ömər Çelik mətbuat konfransı zamanı bildirib.**

O qeyd edib ki, Avropa liderlərinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın beşli formatda (Ermənistan-Azərbaycan-Fransa-Almaniya-Avropa İttifaqı) görüşə qatılmasına etirazları qəbuledilməzdir.

## Bayraktar: «Akınçı» PUA-ları Azərbaycana təhvil veriləcək»



**"Çox yaxın zamanda "Akınçı" pilotsuz uçuş aparatları (PUA) Azərbaycana təhvil veriləcək".**

Adalet.az xəbər verir ki, bunu "Baykar" şirkətinin texniki direktoru, "Texnofest" İdarə Heyətinin sədri Selçuk Bayraktar oktyabrın 2-də Bakıda jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, azərbaycanlı pilotlar təlimləri uğurla başa vurublar: "Odur ki, biz ən yaxın gələcəkdə "Akınçı" PUA-larını Azərbaycana təhvil verəcəyik".

## Sülhməramlıların taleyinə Bakı ilə qərar veriləcək

**Rusiya sülhməramlılarının Qarabağda qalma müddəti Bakı ilə təmasda müəyyən ediləcək. Adalet.az xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə bildirib. "Rusiya sülhməramlılarının Qarabağda qalma müddəti Bakı ilə təmasda yerdəki vəziyyətdən asılı olaraq müəyyən ediləcək" - deyə Rusiya XİN sözçüsü vurğulayıb.**

## *Ayxan Hacızadə: Fransanın bütün maskaları yırtıldı*



**Fransa xarici işlər naziri Ketrin Kolonnanın Ermənistanda keçirdiyi görüşlərdə saxta "blokada" və "məcburi köçkün" iddiaları sülhə xidmət etmir.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə özünün "X" səhifəsində Fransa xarici işlər nazirinin iddialarına cavabında bildirib.

"Onun "Fransa hər zaman Ermənistanın yanındadır" ifadələri nəhayət ki, Fransanın vicdanlı broker və neytral vasitəçi olmaq iddiaları üzərindən bütün maskaları yırtdı", - XİN rəsmisi qeyd edib.

## Saakyan, Qukasyan və İşxanyan həbs edildi



**Bako Saakyan, Arkadi Qukasyan və David İşxanyan barəsində həbs qətimkan tədbiri seçilib.**

Adalet.az xəbər verir ki, Qarabağdakı separatçıların keçmiş "prezident"ləri Arkadi Qukasyan (1997-2007) və Bako Saakyan (2007-2020), "Daşnakasutyun" partiyasının "Qarabağ təmsilçisi" və separatçı rejimin keçmiş parlament sədri David İşxanyan barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətinin müstəntiqinin verdiyi təqdimatlara baxılıb. Səbail rayon Məhkəməsində hakim Ülviyyə Şükürovanın sədrliyi ilə Arkadi Qukasyan barəsində təqdimat təmin olunub və onun barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib. Bako Saakyan və David İşxanyan barəsində isə təqdimatlara məhkəmənin hakimi Azər Tağıyevin sədrliyi ilə baxılıb. Həmin şəxslər barəsində də təqdimatlar təmin edilib və 4 aylıq həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, hər 3 şəxs Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tərəfindən saxlanlaraq Bakıya gətirilib və barələrində Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə ittiham verilib.

## *Binəqədi və Abşeronun bəzi əraziləri Sumqayıta verilir*

**Binəqədi və Abşeron rayonlarının bəzi əraziləri Sumqayıtın inzibati ərazisinə verilir.**

Adalet.az xəbər verir ki, bu, "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" qanun layihəsində əksini tapıb. Layihədə qeyd edilib ki, Binəqədi qəsəbəsinin ərazisindən 1213 ha torpaq sahəsi, Abşeron rayonunun inzibati ərazisində yerləşən 375 ha və 2223,67 ha torpaq sahəsi Sumqayıt şəhərinin inzibati ərazisinə verilir.

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***

## Erməni iyindən necə qurtulmalı?!



***Əsgərlərimiz erməniləri Qarabağdan yola salandan sonra Laçın sərhəd-keçid məntəqəsində dəfələrlə yolları yuduqlarını gördüm. Həm güldüm, həm də kövrəldim. Niyə güldüm? Bizi bu xoşbəxtliyə çatdıran, Qarabağı erməni işğalından azad edən can qardaşlarımızın sadəlövhlüyünə güldüm. Qardaşlar, tonlarla deterjanlar istifadə etsəniz o yolların erməni iyini yuya bilməzsiniz. Elə bir dəhşətli, murdar iyləri var ki, nə qədər yusanız da o qoxu çəkilməz. Bizim şair Emin Piri 44 günlük Vətən Müharibəsindən qayıdanda deyirdi ki, azad elədiyimiz kəndlərdə evə girirdik, qəribə bir iy hiss edirdik. Yataqlarından da gəlirdi, mətbəxlərində də gəlirdi, hər yerdən gəlirdi. O iydən hətta yata da bilmirdik. Mən də dedim ki, Emin, o, erməni iyidir. Divarlara da hopub, yorğan-döşəyə də, tavana da, döşəməyə də, hər yerə.***

***Bəs niyə kövrəldim? Yadıma "Çay qırağında bitib susuz qalan ağacların sağlığına" əsərində Abdal Şakir düşürdü. Nə qədər Surenin maşınını yudurtsa da erməni iyi getmir. Və sonda yaxşı olar ki, əsəri təkrar oxuyasınız...***

**Bax:səh-2**

## Azərbaycan qripə qarşı vaksinlər alır

**Azərbaycanın Səhiyyə Nazirliyi qripə qarşı vaksin almaq niyyətindədir.**

Adalet.az xəbər verir ki, bu barədə məlumat dövlət satınalmalarının vahid internet portalında yerləşdirilib. Bildirilir ki, qurum bu viruslu xəstəliyə qarşı dördvalentli vaksinin alınması üçün tender elan edib. Tenderə əsasən, birdəfəlik şprislərdə 50 min dozada dərman preparatlarının alınması nəzərdə tutulub. Tenderin nəticələri oktyabrın 31-də elan olunacaq.

Qeyd edək ki, peyvəndlərin satın alınması Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) "Qriplə mübarizəyə dair Qlobal Strategiya 2019-30" strategiyasına uyğun olaraq həyata keçirilir.

## Prezident İordaniyanın yeni səfirinin etimadnaməsini qəbul etdi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də İordaniya Haşimilər Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ömər Bərəkət əl-Naharın etimadnaməsini qəbul edib.**

Adalet.az xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlət başçısı səfirlə söhbət etdi.

Səfir, ilk növbədə, İordaniya Haşimilər Krallığının Kralı II Abdullah ibn Al Hüseynin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniya Kralına çatdırmağı xahiş etdi.

Azərbaycan ilə İordaniyanın dost və qardaş, zəngin tarixə malik ölkələr olduğunu vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğunu dedi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində hər zaman bir-birini dəstəklədiyini məmnunluqla qeyd etdi. Siyasi əlaqələrimizin yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev gələcəkdə iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinin önəmini vurğuladı. Azərbaycana səfir təyin olunmasından məmnunluğunu bildirən Ömər Bərəkət əl-Nahar paytaxtımızda gedən böyük inkişaf proseslərinin və insanların firavanlığının onda dərin təəssürat hissi yaratdığını dedi.

Prezident İlham Əliyev Azərbaycan haqqında söylədiyi xoş sözlərə görə səfirə minnətdarlığını bildirdi və ona fəaliyyətində uğurlar arzuladı.

Görüşdə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, turizm, təhsil və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

## Olaf Şolts İlham Əliyevə zəng etdi

**Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Adalet.az xəbər verir ki, telefon danışığı əsnasında regional məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Olaf Şolts region ölkələrinin ərazi bütövlüyünə və suverenliyinə Almaniyanın dəstəyini ifadə edib. O vurğulayıb ki, ölkəsi Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin rəhbərliyi ilə aparılan Brüssel prosesini dəstəkləyir. Almaniya Kansleri BMT-nin ölkəmizdəki rezident əlaqələndirici missiyasının Azərbaycanın Xankəndi şəhərinə səfərinin müsbət bir addım olduğunu deyərək bunu yüksək qiymətləndirib.

Dövlətimizin başçısı Azərbaycanın regional sülh gündəliyinə sadiqliyini və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə aparılan Brüssel prosesini yaxından dəstəklədiyini vurğulayıb. Prezident İlham Əliyev mərkəzi hökumət tərəfindən Qarabağın erməni sakinlərinə göstərilən humanitar yardımları qeyd edib, miqrasiya, sosial müdafiə sahələri ilə bağlı yerində erməni sakinlərə xidmətlər göstərildiyini deyib, müvafiq qeydiyyat proseslərinin başladığını və bunun üçün də ayrıca portalın müəyyən edildiyini bildirib.

Dövlətimizin başçısı Azərbaycanın bu sahədə təmin etdiyi şəffaflığın nümayişi olaraq, BMT-nin ölkəmizdəki rezident əlaqələndirici ofisinin və BMT-nin ixtisaslaşmış təsisatlarının nümayəndələrindən ibarət qrupun əraziyə səfər etdiklərini bildirib, onların da mülki əhaliyə və mülki-ictimai infrastruktura heç bir ziyanın qeydə alınmadığı ilə bağlı müvafiq bəyanatla çıxış etdiklərini diqqətə çatdırıb.

## *Azərbaycan beştərəfli görüşdən imtina etdi*

**Prezident İlham Əliyev Avropa İttifaqı (Aİ), Fransa və Almaniya liderlərinin iştirakı ilə Ermənistanın baş naziri Nikol Paşinyanla görüşün keçirilməli olduğu İspaniyaya (Qranada şəhərinə) getməkdən imtina edib.**

Adalet.az xəbər verir ki, buna səbəb Fransanın destruktiv mövqeyi, eləcə də Paris və Berlinin Türkiyənin toplantıda iştirakı ilə bağlı fikir ayrılığıdır. Belə bir şəraitdə Azərbaycan tərəfi danışıqlar aparmaqdan imtina edib.

Qeyd edək ki, ötən gün İrəvana səfərə gələn Fransa XİN başçısı Ketrin Kolona yenidən anti-Azərbaycan bəyanatları ilə diqqət mərkəzinə düşüb. "Ermənistan Respublikasının ərazi bütövlüyünü təhdid edən istənilən hərəkətə çox sərt cavab veriləcək" deyən Fransa dövlət rəsmisi Qranada görüşü öncəsi Bakı ilə İrəvan arasında vəziyyəti gərginləşdirməyə hesablanmış bu açıqlamaları yalnız Ermənistanın militarizasiya prosesini sürətləndirməyə xidmət edir. Bunlar azmış kimi Fransa xarici işlər naziri Ketrin Kolonnanın Ermənistandakı görüşlərində saxta "blokada" və "məcburi köçürmə" hekayəsini təkrarlaması sülhə xidmət etmir. Onun "Fransa hər zaman Ermənistanın tərəfindədir" ifadələri nəhayət ki, Fransanın vicdanlı vasitəçi və neytral vasitəçi olmaq iddialarının reallığı əks etdirməyini nümayiş etdirdi. Fransa XİN başçısının Ermənistanı silahlaındırmaq istiqamətində etdiyi açıqlamalar isə rəsmi Parisin əsl niyyətinin, məqsədinin nədən ibarət olduğunu növbəti dəfə ortaya qoyur.

Bunun bir adı var: Fransa blgədə eskalasiya riskinin artmasında, Cənubi Qafqazın yenidən barıt qoxmasında maraqlıdır. Elə bu məqsədlə də Paris Ermənistanı uzun müddətli terror müharibəsinə və xüsusən Azərbaycana qarşı terrora hazırlaşdırmaqda israrlı görünür. Prezident İlham Əliyev Qranada görüşü ərəfəsində Azərbaycan əleyhinə çıxışlar edərək, bölgədə gərginliyi pik həddə çatdırmağı hədəfləyən, sülh danışıqlarına mane olmağa çalışan Fransanın regional məsələlərdə iştirakını qəbuledilməz hesab etdiyi üçün normallaşma prosesində Fransanın iştirakını məntiqəuyğun hesab etməyib.

## *Azərbaycanlı deputatlar NATO PA-nın illik sessiyasında iştirak edəcəklər*

**Azərbaycanlı deputatlar NATO PA-nın 69-cu illik sessiyasında iştirak edəcəklər.**

Adalet.az xəbər verir ki, bu barədə Milli Məclisin Mətbuat və İctimaiyyətlə Əlaqələr Şöbəsindən məlumat verilib.

Belə ki, Milli Məclisin deputatları - NATO Parlament Assambleyasında (NATO PA) nümayəndə heyətinin rəhbəri, parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov, nümayəndə heyətinin üzvləri - parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Məlahət İbrahimqızı, Kamran Bayramov və Elşən Musayev NATO PA-nın 69-cu illik sessiyasında iştirak etmək məqsədilə oktyabrın 6-da Danimarka Krallığının Kopenhagen şəhərinə səfər edəcəklər. İllik sessiya çərçivəsində qurumun Bürosunun, Siyasi, Demokratiya və təhlükəsizlik, Müdafiə və təhlükəsizlik, İqtisadiyyat və təhlükəsizlik, Elm və texnologiya komitələrinin iclasları da keçiriləcək. Deputatlarımız iclaslarda müzakirə edilən məsələlərə münasibət bildirəcəklər.

Səfər oktyabrın 10-da başa çatacaq.

# İlham Əliyev: "Qafqazda sülh üçün vaxt yetişib"

**Qafqazda 2 oktyabr tarixində 74-cü Beynəlxalq Astronavtika Konqresi keçirilib. Konqresin açılışında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirdi ki, əlli ildən sonra Konqres yenidən Bakıda keçirilir: "1973-cü ildə Ulu Öndər Heydər Əliyevin iştirakı ilə Bakıda 24-cü Beynəlxalq Astronavtika Konqresi keçirilmişdir".**

Prezident İlham Əliyev çıxışında qeyd etdi ki, Beynəlxalq tədbirdə 100-dən artıq ölkəni təmsil edən 5000-dən çox iştirakçı var: "Azərbaycan on ildən artıq müddət əvvəl beynəlxalq kosmik ailənin üzvü olub. Bu gün ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidəsi peykinə malik olaraq kosmik sənayenin inkişafıdavam etdirilir.

Üç peyk azərbaycanlı mütəxəssislər tərəfindən idarə olunur və onlar təkcə Azərbaycana deyil, 45-dən artıq ölkəyə xidmət göstərirlər.

Müasirləşdirilmə sözü bizim gələcəklə bağlı baxışımızı, gündəliyimizi və planlarımızı səciyyələndirir.

Müstəqillik dövründə Azərbaycan beynəlxalq ictimaiyyətin fəal üzvünə çevrilib. Bizim siyasətimiz hər zaman aydın, şəffaf və birmənalı olub və dostlar qazanılmasına və əməkdaşlığın gücləndirilməsinə yönəlib.

Beynəlxalq ictimaiyyətin fəal üzvü kimi Azərbaycan çoxsaylı siyasi, iqtisadi və regional inkişaf layihələrində iştirak edir. Dördüncü ildir ki, Azərbaycan BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisata - Qoşulmama Hərəkatına sədrlik edir. Belə bir təşkilata sədrlik etmək şərəfinə Azərbaycan 120 dövlətin yekdil qərarı ilə layiq görülmüşü.

Azərbaycanın Avropa institutları ilə əməkdaşlığı uğurla inkişaf edir. Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında bəyannamə imzalayıb. Bu, bizim xarici siyasət gündəliyimizi nümayiş etdirir.

Azərbaycan iki mühüm beynəlxalq təsisatın - İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvüdür. Azərbaycan eyni vaxtda hər iki təşkilata üzv olan azsaylı ölkələrdəndir və bu iki təşkilatın yüzdən artıq üzvü var. Bu, yalnız bizim coğrafiyamız və mədəniyyətimizin deyil, həm də siyasi niyyətlərimizin göstəricisidir.

Azərbaycanın Avropa ilə Asiya arasında yerləşməsi və iki qitəni birləşdirənmədəni, nəqliyyat və hazırda iqtisadi körpü rolunu oynaması ölkəmizə regionumuzda geniş beynəlxalq əməkdaşlıq qurmaq imkanı verir.

Bizim üçün coğrafiya fürsət deməkdir. Əsrlər boyu birgə yaşayış və tərəfdaşlıq tarixinə malik qonşularımız ilə yaxşı münasibətlər sayəsində biz coğrafi yerləşməmizi müsbət ssenariyə çevirə bilmişik. Bu gün biz üfüqlərimizi genişləndiririk.

Qitələrarası körpü olmağımız cəmiyyətimizin inkişafında mühüm rol oynamışdır. Azərbaycan



əsrlər boyu çoxmədəniyyətli və çoxkonfessiyalı cəmiyyətə malik olub. Biz bunu sabitliyin, proqnozlaşdırmanın və Azərbaycanda yaşayan bütün etnik qrupların və bütün dini konfessiyaların dinc birgə yaşayışı üçün əhəmiyyətli faktor hesab edirik.

BMT Azərbaycanın multikulturalizmin təşviqi sahəsindəki səylərini tam dəstəkləyir. Ölkəmizin təşəbbüsü ilə mütəmadi olaraq keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu müxtəlif sivilizasiyaların nümayəndələri arasında təmasların daha nəticəyönümlü olması üçün unikal platformadır.

Azərbaycan on ildən çoxdur ki, Bakı Prosesinin təşəbbüskarıdır. Tarixdə ilk dəfə idi ki, Avropa Şurası və İslam Əməkdaşlığı Təşkilatı vahid platforma çərçivəsində bir araya gətirildi və burada qlobal siyasət, mədəniyyətlərarası dialoq və dinc inkişafa dair vacib məsələlər müzakirə edildi.

- Azərbaycan dünyada ilk dəfə - XIX əsrin ortalarında neftin hasil edildiyi ölkə kimi tanınır. O zaman dünyada neft hasilatının yarısı Azərbaycanın payına düşürdü. XX əsrin ortalarında dünyada ilk dəfə dənizdə neft məhz Azərbaycanda - Xəzər dənizində azərbaycanlı neftçilər tərəfindən hasil edilib.

Müstəqil ölkə olaraq, təbii sərvətlərimiz xalqımızın mənafeyinə xidmət edir. Müstəqillik illərinin sürətli transformasiyası bizim təbii sərvətlərimizin düzgün istifadəsinin təzahürüdür. Neftlə zəngin olmaq bizim üçün inkişaf etmək, müstəqilliyimizi gücləndirmək, milli kimliyimizi qorumaq və güclü iqtisadiyyat qurmaq üçün vasitədir.

Bu gün enerji və nəqliyyat marşrutlarının, o cümlədən boru kəmərlərinin xəritəsində Azərbaycan müstəsna əhəmiyyətə malikdir. Bizim təşəbbüskarı olduğumuz, qonşularımız və tərəfdaşlarımızla uğurla həyata keçirdiyimiz layihələr təkcə bizim regionun enerji təhlükəsizliyinə töhfə vermir.

Enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizliyinin tərkib hissəsidir. Bu gün Azərbaycan beynəlxalq bazarlarda enerji ehtiyatlarının etibarlı təchizatçısıdır və Avropa İttifaqı tərəfindən etibarlı pan-Avropa təchizatçısı hesab edilir.

Üç il əvvəl 30 il ərzində pozulmuş ərazi bütövlüyümüzü bərpa etdik. Biz təcavüzdən, işğaldan və etnik təmizləmədən əziyyət çəkdik və bu, millətimiz üçün böyük faciə, böyük humanitar fəlakət idi.

1990-cı illərin əvvəlində torpaqlarımız işğal olunanda, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü və o vaxt əhalimizin sayı 8 milyon idi. Bu rəqəm hər hansı ölkə ilə müqayisədə, bəlkə də adambaşına olan ən yüksək qaçqın sayı idi. Həmin vaxt, biz çox yoxsul idik. Biz öz təbii sərvətlərimizin istismarına hələ başlamamışdıq. Açıq dənizə çıxışı olmayan ölkəmizdə hərc-mərclik hökm sürürdü və gələcək üçün perspektivlər o qədər də aydın görünmürdü.

Azərbaycan uzun illər münaqişənin sülh yolu ilə həllini tapmağa və işğala dinc yolla son qoymağa çalışırdı. 28 il ərzində biz danışıqlar prosesinə qəti surətdə sadiq qaldıq. Biz BMT Nizamnaməsinin hər bir ölkəyə verdiyi hüquqdan, özünümüdafiə hüququndan istifadə etdik və üç il əvvəl öz ərazilərimizi azad edərək işğala son qoyduq. Bir aydan da az müddət əvvəl biz ölkəmizin suverenliyini tam bərpa etdik. İşğala son qoymaq öhdəliyini üzərinə götürmüş beynəlxalq təşkilatlar hər hansı nəticəyə nail olmadı. BMT Təhlükəsizlik Şurası erməni qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etdi. Lakin həmin qətnamələr 27 il icra olunmadı.

Ərazi bütövlüyünün və suverenliyin bərpasında əldə etdiyimiz təcrübə unikal oldu. Zorakılıqla üzləşdiyimiz münaqişəyə son qoyduq. Biz ədaləti və beynəlxalq hüququ bərpa etdik.

Qafqazda sülh üçün vaxt yetişib. "Bu, bizim gündəliyimizdir. Gündəliyimiz Qafqazda, regionda sülhün, əməkdaşlığın qurulmasıdır və hamı üçün faydanın gətirilməsidir.

Həqiqətən müstəqil ölkə olmaq üçün güclü iqtisadiyyat lazımdır. Bütün əsas səylərimiz özünü təmin edən iqtisadiyyatın qurulmasına yönəlmişdir. Biz hər hansı qlobal güc mərkəzindən və ya hər hansı maliyyə təsisatından asılı deyilik.

Azərbaycanda son zamanlarda əldə olunmuş nailiyyətləri aydın şəkildə nümayiş etdirən rəqəmlər. Son 20 il ərzində, ümumi daxili məhsul dörd dəfə artıb, büdcə gəlirləri 30 dəfədən çox artıb, xarici ticarət dövriyyəsi on dəfədən çox artıb. Birbaşa xarici borcümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Azərbaycanın xarici valyuta ehtiyatları birbaşa xarici borcumuzu on dəfə üstələyir. Son 20 il ərzindəki sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onlardan 190 milyard dolları qeyri-enerji sektoruna yatırılmışdır.

Müstəqilliyimizin əvvəlində üzləşdiyimiz böyük çağırışlardan biri məlum olan yoxsulluq idi. 20 il əvvəl yoxsulluq şəraitində yaşayan insanların sayı 50 faizə yaxın idi. Hazırda isə yoxsulluq 5,5 faiz təşkil edir və onu göstərir ki, hasil etdiyimiz və beynəlxalq bazarlara çıxardığımız təbii sərvətlər lazımi qaydada idarə olunub.

Siyasi, iqtisadi və sosial sabitlik inkişafımızın mühüm meyarıdır, çünki əgər vəziyyət sabit və proqnozlaşdırılan olmasa, investorların gələrək öz kapitalını risk altına atmasını gözləmək olmaz".

**Hazırladı:**
**Mehriban Cəfərova**

# *Qarabağın erməniəsilli sakinlərinə bu hüquqlar veriləcək*

**Azərbaycan Respublikası Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası ilə bağlı əməli fəaliyyətə başlayıb. Bununla əlaqədar, Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədov 2023-cü il sentyabrın 21-də, 25-də və 29-da Yevlax və Xocalı şəhərlərində erməni sakinlərin nümayəndələri ilə görüşüb.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının yaydığı məlumatda bildirilib. "Görüşlərdə Azərbaycan Respublikasının reinteqrasiyaya dair planları təqdim edilib və onun ətrafında müzakirələr aparılıb.

Qeyd edilib ki, reinteqrasiya Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi çərçivəsində Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və beynəlxalq öhdəlikləri əsasında həyata keçirilir.

Etnik, dini və ya dil mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə, o cümlədən hər kəsin təhlükəsizliyinə təminat verilir.

**Hüquqi və idarəetmə sahəsi:**

Erməni sakinlərin yaşadıqları ərazilərdə idarəetmə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri vasitəsilə həyata keçirilir. Sakinlər xüsusi nümayəndəliklərin işinə cəlb oluna bilər.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, seçkilər vasitəsilə bələdiyyələr formalaşdırılır.

Sakinlərin vətəndaşlıq məsələləri Azərbaycan Respublikasının Konstitusiyasına və qanunvericiliyinə uyğun olaraq, müvafiq prosedurlar əsasında həyata keçirilir.

**Təhlükəsizlik sahəsi:**

Tərk-silah və tərxis prosesi başa çatdırılır, bütün silahlar sakinlərdən yığılır.

Azərbaycan Respublikasının daxili işlər orqanları ərazidə ictimai asayişin qorunmasını və sakinlərin təhlükəsizliyini təmin edir. Sakinlər daxili işlər orqanlarına işə cəlb oluna bilər.

**İqtisadi sahə:**

Sakinlərin yaşadıqları ərazilərin fiziki və sosial infrastruktur təminatı (təhsil, səhiyyə, enerji, qaz, su, yol, rabitə, meliorasiya və s.) müəyyən müddət ərzində ölkə üzrə orta göstəricilər səviyyəsinə çatdırılır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında iqtisadi inkişafın sürətləndirilməsi məqsədilə tətbiq edilən xüsusi iqtisadi rejim ilə bağlı təşviq paketi, o cümlədən vergi və gömrük güzəştləri sakinlərin yaşadıqları ərazilərə şamil olunur.

Azərbaycan Respublikasının milli valyutasının tam tədavülə keçməsi təmin edilir.

Sakinlərin yaşadıqları ərazilərdə sahibkarlıq fəaliyyəti üçün dəstək tədbirləri həyata keçirilir. Ölkədə sahibkarlıq subyektlərinin maliyyəyə çıxış imkanlarının artırılması ilə bağlı tətbiq olunan güzəştli kreditlər, faizlərin subsidiyalaşdırılması, kreditlərə zəmanətin verilməsi və digər maliyyə alətləri sakinlərin yaşadıqları ərazilərə şamil olunur.

Fermerlərə subsidiyalar verilir və onlar torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilir.

Mülkiyyət məsələləri Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tənzimlənir.

**Sosial sahə:**

Sakinlər ölkə üzrə əməyin ödənişi və sosial ödənişlər sistemi ilə əhatə olunur.

Sakinlərə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sosial sahədə tətbiq olunan güzəştlər, sosial xidmətlər və məşğulluq proqramları şamil edilir.

Sakinlər səyyar xidmətlərdən (Səyyar ASAN və Səyyar DOST) faydalanırlar.

**Mədəniyyət, təhsil və din sahəsi:**

Sakinlərin öz mədəniyyətini, etnik-mədəni xüsusiyyətlərini qorumaq və inkişaf etdirmək hüququ təmin edilir.

Dini etiqad azadlığı, mədəni və dini abidələrin mühafizəsi təmin olunur. Erməni dilinin istifadəsinə imkan yaradılır.

Reinteqrasiyanın praktiki icrası ilə bağlı erməni sakinlərin nümayəndələri ilə təmaslar davam etdiriləcək", - deyə məlumatda qeyd olunub.

# Emin Hüseynov: "Bunun üçün 50 ildən artıq vaxt lazımdır"

**Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 1 milyondan çox minanı təmizləmək üçün 50 ildən çox zaman lazım olacaq.**

Adalet.az xəbər verir ki, bunu Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov "Şəhərsalma Həftəsi 2023" çərçivəsində təşkil olunan "Ümumdünya Məskunlaşma Günü" Forumunda panel çıxışında deyib. "Minalar olan ərazidə bərpa və idarəetmə işləri çətindir. Şərqi Zəngəzur iqtisadi regionunda da dağıntılar var. 30 il ərzində nə təbiət, nə binalar, nə də abidələr salamat qalmayıb. Azərbaycanda biz xüsusi 3 hissədən ibarət koordinasiya yaratmışıq. Bu istiqamətlər müəyyən hədəfləri, strategiyaları müəyyənləşdirirlər. Həmin koordinasiya qurumlar, ekspertlər, 11 işçi qrupu arasında birgə fəaliyyəti tənzimləyir. Bütün bu işçi qrupları eləcə də mütəxəssislər siyasi elitanın qaldırdığı məsələlərə texniki həll yolları axtarırlar. Eləcə də sahəvi lokal problemlər həll edilməlidir", - Prezidentini xüsusi nümayəndəsi bildirib. O qeyd edib ki, hər bir münaqişənin spesifik cəhətləri var: "Azərbaycanda baş verən münaqişələrdə bəzi səciyyəvi xüsusiyyətlərə toxunmalıyıq. Həmin amillər görəcəyimiz işin miqyasını, potensialını müəyyənləşdirir". E. Hüseynovun sözlərinə görə, bərpa üçün ayrılacaq vəsait, zaman nəzərə alınmalıdır: "Amma bizim ərazilərimizin 30 illik işğalda olmasını nəzərə alaraq bəzi mühüm məqamlar var. Azad edilmiş ərazilər tamamilə dağıdılmışdı, biz buna şəhərlərin soyqırımı deyirik. 50 hektarlarla meşələr dağıdılıb və ekoterror adlandıra biləcəyimiz vəziyyət baş verib. Tarixi irsə, mədəniyyət abidələri dağıdılmışdı. Bu 2-3 ilin yox 30 ilin dağıntılarıdır.



Bütün bunlar məhz dünyada dördüncü sənaye inqilabının baş verdiyi dövrdə baş verib. Məhsuldarlığın artdığı dönəmdə Qarabağ iqtisadi zonası olaraq biz baş verənlərə qarşı adekvat tədbirlər görürük".

*AQİL ABBAS*

# Erməni iyindən necə qurtulmalı?!

*Əsgərlərimiz erməniləri Qarabağdan yola salandan sonra Laçın sərhəd-keçid məntəqəsində dəfələrlə yolları yuduqlarını gördüm. Həm güldüm, həm də kövrəldim. Niyə güldüm? Bizi bu xoşbəxtliyə çatdıran, Qarabağı erməni işğalından azad edən can qardaşlarımızın sadəlövhlüyünə güldüm. Qardaşlar, tonlarla deterjanlar istifadə etsəniz o yolların erməni iyini yuya bilməzsiniz. Elə bir dəhşətli, murdar iyləri var ki, nə qədər yusanız da o qoxu çəkilməz. Bizim şair Emin Piri 44 günlük Vətən Müharibəsindən qayıdanda deyirdi ki, azad elədiyimiz kəndlərdə evə girirdik, qəribə bir iy hiss edirdik. Yataqlarından da gəlirdi, mətbəxlərində də gəlirdi, hər yerdən gəlirdi. O iydən hətta yata da bilmirdik. Mən də dedim ki, Emin, o, erməni iyidir. Divarlara da hopub, yorğan-döşəyə də, tavana da, döşəməyə də, hər yerə.*

*Bəs niyə kövrəldim? Yadıma "Çay qırağında bitib susuz qalan ağacların sağlığına" əsərində Abdal Şakir düşürdü. Nə qədər Surenin maşınını yudurtsa da erməni iyi getmir. Və sonda yaxşı olar ki, əsəri təkrar oxuyasınız...*

***

*Bu da Quzanlı. Surenin erməni iyi verən "Moskviç"ini saxladı maşın yuyulan yerdə. Arvad-uşağa dedi düşün maşından. Sonra da maşın yuyan ustaya dedi:*

*- Ə, qaqa, bu maşını bir yaxşı-yaxşı kisələ. Özü də için möhkəm-möhkəm kisələ.*

*Usta maşına oturub yuma yerinə salmaq istəyəndə dedi:*

*- Ə, qaqa, bu maşından it iyi gəlir.*

*- Ə, it iyi döyül, Erməni İyidi. Ona görə yudurduram dana.*

*Maşın yuyan Surenin Erməni İyi verən "Moskviç"inin altından girib üstündən çıxdı, üstündən girib altından çıxdı, axırda yorulub dedi:*

*- Qaqa, neyniyirəm xeyri yoxdu. Bu iy nətəər maşina hopubsa çıxmır.*

*- Qaqa, o İy təkcə maşına yox ey, canımıza da hopuf.*

*Arvadı:*

*- Ay kişi, kim bu maşına minir, deyir Erməni İyi gəlir. Bəs, biz niyə hiss etmirik?*

*- Aaz, gözümüzü açannan ermənìylə bir yerdə yaşamışıx, bir yerdə oturuf-durmuşux onnarın iyi bizim də canımıza hopuf, ona görə. Nə qədər yuyunurux canımızdan çıxmır.*

***

*- Yox, əlimdə yüngül bir işim var, onu görüm, axşam gələrəm. - dedi, hamıyla xudahafizləşib, arvad-uşağı da yığdı Surenin Erməni İyi verən maşınına.*

*Arvadı yolda soruşdu:*

*- Yaxşı, ay kişi, gəldik Quzanlıya. Harda qalacayıq? Bəlkə qayıdaq dədəmgildə qalaq.*

*- Az danış, mən qaynata qoltuğuna sığınan kişilərdən döyüləm. Özü də dədəngilin evi var? Dədəngilin evi qaldı Füzulidə erməniyə, Bərdədə kiminsə evində qalıllar. Özdəri bərdəlilərə yühdü, gedif yazıx bərdəlilərə biz də yük olax? Narahat olma, bu boyda Quzannıda bizə bir yer tapılmıyajax?*

*Təpənin yaxınlığındakı Hüseyn bulağında düşüb əl-üzlərini yudular, sonra da Şakir bakdan bir vedrə benzin çəkdi, tökdü maşının üstünə, içinə. Arvad-uşağa dedi bir kənarda durun, cibindən kibrit çıxarıb yandırdı və atdı maşının üstünə.*

*Arvadı bağırdı:*

*- Ə, naqayrırsan? Yenə çörək ağacıydı. Xaltura eləyib başımızı saxlayırdın.*

*- Canına azar qayırram, görmürsən? Bu iyi yalnız bu yolla təmizləməy olar. Allah kəssin ermənidən gələn çörəy ağajını.*

*Yaxınlıqdakı kafedəkilər və ətrafda yaşayanlar yanğını görüb hamısı töküldü Hüseyn bulağına tərəf. Gələnlərin içində Şakiri tanıyanlar da oldu.*

*- Boyy, Şakir! Ə, bu maşını niyə yandırırsan?*

*- Heş, əhd eləmişdim.*

*Bir az keçmiş yanğınsöndürənlər də gəldi, amma Şakir qoymadı maşını söndürsünlər:*

*- Ə, qoyun yansın.*

*Yanğınsöndürən:*

*- Ə, bu dövlətin malıdı, necə yəni yansın?*

*- Dövlət birdən-ikiyə maa maşın alıf bağışdıyıf.*

*Yanğınsöndürənlər də, hamı da bir kənarda dayanıb çırtaçırtla yanan maşına baxırdılar. Maşın yandı, yandı, lap sonda qapqara tüstü buraxaraq nəhayət söndü.*

*Şakir başına toplaşanların birinə dedi:*

*- Qaqa, saa qurban olum, bir o maşını iylə, gör onnan nə iyi gəlir?*

*- Get özün iylə də.*

*- Qaqa, mənim burnum tutuluf iy hiss eləmirəm.*

*Adam yaxınlaşdı maşına, möhkəm-möhkəm iylədi və dedi:*

*- His iyi, yanıq iyi gəlir.*

*Şakir dərindən bir ah çəkdi:*

*- Oxxaaay! Deyəsən, Erməni İyinnən axırda belə qurtarajıyıx.*

*Adamlar Şakirin bu sözündən heç nə başa düşmədi…*

*… Qarabağdan hələ erməni iyi gəlirdi. Bu iyi Qarabağdan yuyacaq oğlanlar hələ orta məktəbdə qız üstə dalaşırdılar, çoxu hələ doğulmamışdı, analarının qarnındakı müqəddəs zülmətdə mışıl-mışıl uyuyurdular. Bəziləri isə hələ təzəcə doğulmuşdular, analarının döşlərindən Vətən əmirdilər. Gün gələcəkdi məktəbdə qız üstə dalaşan oğlanlar heç üstündə dalaşdıqları qızları öpməmiş əsgər paltarı geyəcəkdilər, analarının müqəddəs bətnində mışıl-mışıl yatan balalar doğulacaqdı, özlərindən əvvəl doğulanlar kimi analarının döşündən Vətən əməcəkdilər, sonra da böyüyüb kişi olacaqdılar və gedəcəkdilər Qarabağdan Erməni İyini təmizləməyə. Hələ o günə çox vardı. Hələ Şakir payına düşən bircə erməni maşınını yandırıb Erməni İyindən təmizləmişdi. Hələ Suren Şakirin "Jiquli"sində İspanakertdə, Şuşada, Laçında Şakirlə yediyi qırx ilin çörəyinə tüpürən oğlunu axtarırdı…*

*… Şakir isə Erməni İyi gələn maşından canını qurtardığına görə xoşbəxtcəsinə arvad-uşaqlarıyla Əfətli Təpəsindəki kafedə oturub yeyib-içirdi. Özu də çappa stəkanda, Rəmişin bahalı arağından yox, girdirmə araq içirdi.*

*Və sabah oğlanları, Şuşaya bayraq sancacaq kişilər də təəccüblə Şakirə baxırdılar və deyəsən, Şakiri indi-indi başa düşürdülər.*

## *Politoloq: "Bütün hallarda Azərbaycan möhkəm iradə nümayiş etdirsə..."*



**"Qarabağda həbs edilərək Azərbaycana gətirilən qondarma rejimin dırnağarası "vəzifəliləri" ilə bağlı Bakıda istintaq işi gedir. İstintaqın gedişinə uyğun olaraq məhkəmə keçirilib onların həbs müddəti müəyyənləşdirilə bilər"**

Bunu Adalet.az-a açıqlamasında politoloq Qabil Hüseynzadə deyib.

Politoloq bölgədəki prosesləri belə şərh edib: "Amma versiyalar da var və onlardan biri də Ruben Vardanyanın həbsidir. Rusiya Vardanyanın azad edilməsi üçün Azərbaycana təzyiqlər göstərə bilər. Hər halda belə hesab edirlər ki, Rusiya Ruben Vardanyanı həbsdən azad etməyə çalışır. Bütün hallarda Azərbaycan möhkəm iradə nümayiş etdirsə, xahişə baxmadan həmin adamı uzun müddət həbsdə saxlaya bilər"-deyə politoloq bildirib.

**Vasif Əlihüseyn**

# Qərbi Azərbaycanda cinayət törətmiş şəxslər məsuliyyətə cəlb olunacaq

**"Qərbi Azərbaycanda azərbaycanlılara qarşı cinayət törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi üçün zəruri tədbirlər görülür".**

Adalet.az xəbər verir ki, bunu Azərbaycanın Baş prokuroru Kamran Əliyev AZƏRTAC-a müsahibəsində deyib.

Onun sözlərinə görə, öz doğma tarixi torpaqları olan Qərbi Azərbaycandan (hazırkı Ermənistan Respublikasının ərazisindən) Azərbaycanəsilli şəxslərin qovulmaları, təqib olunmaları, soyqırıma məruz qalmaları, xüsusi amansızlıqla qəsdən öldürülmələri, yaşadıqları ərazilərin adlarının qəsdən dəyişdirilməsi, məhv edilməsi, onlara məxsus tarixi-mədəni abidələrin dağıdılması faktları üzrə 30 mart 2023-cü il tarixdə tərəfimdən Cinayət Məcəlləsinin 103 (Soyqırım), 107 (Əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (Təqib) və 120.2.4 (Xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə), 120.2.7-ci (İki və ya daha çox şəxsi öldürmə) maddələri ilə cinayət işi başlanılıb, istintaq qrupu yaradılaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə tapşırılıb.

"Cinayət işi üzrə toplanmış sübutlarla müəyyən edilib ki, Ermənistanın siyasi rəhbərliyinin "Böyük Ermənistan" ideyasının həyata keçirilməsi istiqamətində hazırda Ermənistan Respublikası adlandırılan ərazinin azərbaycanlılardan tamamilə təmizlənməsi planının həyata keçirilməsi üçün təşkil etdiyi qanunsuz silahlı birləşmələr tərəfindən 1905-1907, 1918-1920, 1948-1953 və 1987-1991-ci illərdə mərhələli şəkildə vahid qəsdlə hazırda Ermənistan adlandırılan ərazilərdə yaşayan azərbaycanlıların milli və etnik mənsubiyyətlərinə görə bütövlükdə məhv edilməsi məqsədilə onların milli ədavət və düşmənçilik niyyəti ilə qəsdən həyatdan məhrum edilib öldürülmələri, sağlamlıqlarına ağır zərər vurulması, azərbaycanlıların bütövlükdə fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaradılmaqla onlara qarşı soyqırımın törədilməsi, beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslar olmadan onların qanuni yerləşdiyi yerlərdən qovulması və digər məcburi hərəkətlərlə tarixi-etnik torpaqlarından kütləvi şəkildə deportasiya edilib didərgin salınması, habelə beynəlxalq hüquq normaları ilə qadağan edilmiş milli, etnik, mədəni və digər əsaslara görə əsas hüquqlardan kobudcasına məhrum olunmaqla təqib edilmələri nəticəsində Zəngəzur, İrəvan, Şərur-Dərələyəz, Sürməli, Qars və digər ərazilərdə 1905-1907 və 1918-1920-ci illərdə çoxsaylı Azərbaycan əsilli şəxslər erməni silahlı qüvvələri tərəfindən xüsusi amansızlıqla qətlə yetirilib, mülkləri yandırılaraq məhv edilməklə əmlakları talanıb, 1918-ci ilin mart ayınadək təqribən 135.000 nəfər, 1948-1953-cü illərdə təqribən 100.000 Azərbaycan əsilli şəxslər öz doğma tarixi torpaqlarından - indiki Ermənistan ərazisindən zorla köçürülməyə, təqibə və deportasiyaya məruz qoyulmuş, 1987-1991-ci illərdə 250.000-dən artıq azərbaycanlı öz mülklərindən zorla qovularaq 216 azərbaycanlı xüsusi amansızlıqla qətlə yetirilməklə həyatdan məhrum edilib", - Baş prokuror qeyd edib.

**K.Əliyev həmçinin bildirib ki, cinayət işi üzrə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Qərbi Azərbaycan İcması İctimai Birliyi və digər qurumlarla strateji koordinasiya yaradılıb, iş üzrə zəruri sübutların toplanması məqsədilə aidiyyəti qurumlarla birlikdə müvafiq tədbirlər həyata keçirilir: "Azərbaycanəsilli şəxslərə qarşı cinayət törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün zəruri tədbirlər görülür".**

# Arayik Arutyunyan cinayət məsuliyyətinə cəlb edilib

**Arayik Harutyunyan cinayət məsuliyyətinə cəlb edilib.**

Adalet.az xəbər verir ki, bu barədə Baş Prokurorluq və Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətləri birgə məlumat yayıb.

Qeyd olunub ki, Azərbaycanın Qarabağ ərazisində fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələrinin törətdikləri sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq və digər cinayətlərin araşdırılması ilə bağlı başlanmış cinayət işləri üzrə Azərbaycan Baş Prokurorluğu və Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks tədbirlər həyata keçirilir. Araşdırmalar zamanı Azərbaycanın Xankəndi şəhərində anadan olmuş, 1973-cü il təvəllüdlü Harutyunyan Arayik Vladimiri tərəfindən Azərbaycan Respublikasının ərazisində qondarma "Dağlıq Qarabağ Respublikasının prezidenti" və digər adlar altında təcavüzkar müharibənin aparılmasında iştirak edilməsi, muzdluların yığılması, onlara təlim keçirilməsi və maliyyələşdirilməsinə, həmçinin onlardan hərbi münaqişədə və hərbi əməliyyatlarda istifadə edilməsinin təşkil olunmasına, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarının pozulmasına, silahlı münaqişə dövründə cinayətkar əmr verilməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Bundan başqa, Arayik Harutyunyan tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin formalaşdırılmasına və fəaliyyətinin təşkilinə, cinayətkar birlik halında həmin birləşmələrin




silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika və əsgəri ləvazimatla təchizinə, bunlardan istifadə hazırlığı üzrə təlimlərin təşkil edilməsinə, eləcə də qaçaqmalçılıq yolu ilə ölkəmizə gətirilməsinə və terrorçuluğun maliyyələşdirilməsinə əsaslı şübhələr müəyyən olunmuşdur.

İstintaq-əməliyyat tədbirləri nəticəsində, həmçinin, Arayik Harutyunyan tərəfindən terror aktlarının törədilməsi məqsədilə Azərbaycan Respublikasının ərazilərinin davamlı şəkildə minalanması, cəbhə zonasından kənarda yerləşən, əhalinin sıx məskunlaşdığı Azərbaycan Respublikasının Gəncə şəhəri və Bərdə rayonunun yaşayış məntəqələri və mülki obyektlərini hədəfə alaraq ballistik və digər növ raketlər atılmaqla çoxsaylı mülki şəxslərin öldürülməsi və onlara müxtəlif dərəcəli bədən xəsarətlərinin yetirilməsi, mülki və hərbi infrastruktura ağır nəticələrə səbəb olan ziyan vurulması ilə nəticələnən terror hücumlarının təşkil olunması və digər çoxsaylı cinayətlər törədilməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Arayik Harutyunyan 2020-ci il oktyabrın 28-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, barəsində məhkəmənin qərarı əsasında həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verilmişdir.

Cari il oktyabrın 3-də Arayik Harutyunyan Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Xankəndi şəhərində saxlanılmış, ona Cinayət Məcəlləsinin 100, 116, 117, 120, 214, 214-1, 214-3, 218, 279-cu və digər maddələri ilə ittiham elan edilmişdir.

Hazırda Baş Prokurorluq və Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

*Rüstəm Hacıyev*



# Slovakiya Qərbə qarşı..?

***The New York Timesin şərhçisi Rojer Koen bəyan edir ki, Clovakiyada keçirilən parlament seçkilərində qalib gələn, keçmiş baş nazir Robert Fisonun "Sosoial demokratiya- kursu" müxalifət partiyası, Ukraynaya dəstək kompaniyasını zəiflədə bilər. "23 faizə yaxın səs toplayan cənab Fiso, daima Ukraynaya silah göndərilməsinin əlehyinə çıxış edib və münaqişədə Qərb və Ukraynanın günahkar olduğunu bəyan edib"- deyə şərhçi yazır.***

***Mart ayında Slovakiyada keçirilən sorğuların nəticələrinə görə, rəyi soruşulanların 51 faizi, münaqişədə əsas məsuliyyətin Ulrayna və ya Qərbin daşıdığını bildiriblər. Beləliklə Fiso seçkiqabağı kompaniya dövründə xalqın fikrini dəstəkləyib-deyə Koen qeyd edir. Lakin şərhçi, 15 faizə yaxın səs toplamış daha bir eks baş nazir Peter Pellegini ilə koalisiya yarada biləcəyi təqdirdə Fisonun ritorikasını dəyişə biləcəyini də istisna etmir. Fisonun rəhbərlik etdiyi partiya, Slovakiyada 1 oktyabrda keçirilən parlament seçkilərində 23 faizə yaxın sös toplayıb. Newsweekin yurnalisti Elli Kuk da hesab edir ki, Fisonun qələbəsi Ukraynanı Slovakiyadan göndırilən slah təminatından məhrum edə bilər.***

***Əslində Slovakiya, ABŞ və Qərbin Ukraynaya göndərdiyi silah-sursat payında elə də önəm daşımır. Lakin artıq Rusiya-Ukrayna münaqişəsindən həm maddi, həm də mənəvi əziyyət çəkən digər ölkələr də tədricən geri çəkilə bilərlər.***

***Ukraynada isə müharibə davam edir və sonu görünmür. Tərəflərin danışıqlar masasına oturmaqla bağlı qoyduqları şərtlər, əslində danışıqlardan imtina kimi qiymətləndirilə bilər. Rəsmi Kiyev, rus qoşunlarının işğal etdikləri ərazilərdən tam çıxarılması və ərazi bütövlüyünün tam bərpa olunmasını, Rusiya isə tam əksinə, işğal etdiyi və artıq öz ərazilərinə "birləşdirdiyi" ərazilərin tanınması şərtlərini irəli sürürlər.***

***Bu isə o deməkdir ki, müharibə sonsuzluğa qədər davam etməlidir. Görünən odur ki, Rusiya hələ sovetlərin vaxtından anbarlarda yatıb qalan silah-sursatların tükənməyəcəyinə arxayındır, Ukrayna isə ABŞ və Qərbin davamlı silah təhcizatına...***

# «Qarabağı tərk edən ermənilərə «qaçqın» statusu verilməsi...»

*Azərbaycanın Qarabağ İqtisadi rayonunda kök salmış separatizm və terrora qarşı keçirilən antiterror əməliyyatları artıq başa çatıb. Heç bir təzyiq görmədikləri halda Qarabağı könüllü tərk edib Ermənistana üz tutanların sayı isə dayanmaq bilmir.*

*Baxmayaraq ki, bütün videomateriallarda Qarabağı öz xoşları ilə tərk etdiklərini etiraf edirlər, amma Ermənistan ərazisinə çatdıqdan sonra xislətlərinə uyğun olaraq başqa nağıllar danışırlar. Medianın və sosial şəbəkələrin gücü ilə özlərini "məzlum, yazıq və məcburi köçkün " kimi qələmə verməyə çalışırlar. Görəsən, Qarabağı könüllü tərk edən ermənilər dünyanın gözünə girib "qaçqın" statusu ala biləcəklərmi?*

*Bu gün həmsöhbətim hüquqşünas, ekspert Cavid İsmayıl suallarımıza cavab verəcək.*

**- Hörmətli ekspert, ermənilər 31 il Qarabağı işğalda saxlayıb və dünyanı elə inandırıblar ki, sanki Qarabağ onların "dədə"sindən qalıb. 31 il burda işğalçı adı almadan rahat yaşayıblar, hətta dünyanın humanitar, mənəvi yardımlarını alıblar. Sizə elə gəlmir ki, ermənilər "qaçqın" statusu da almağa bacaracaqlar?**

- İlk olaraq nəzərinizə çatdırım ki, Qaçqınların Statusuna dair BMT Konvensiyası 28 iyul 1951-ci ildə Cenevrədə BMT Baş Asambleyasının 14 dekabr 1950-ci il tarixli 429 (V) saylı qətnaməsinə uyğun olaraq çağırılmış Səlahiyyətli Nümayəndələrin Qaçqınların və vətəndaşlığı olmayan şəxslərin statusu ilə bağlı konfransı tərəfindən qəbul edilmiş beynəlxalq müqavilədir və bu müqavilə 1954-cü ilin 22 aprel tarixində qüvvəyə minib.



Bu beynəlxalq müqavilə, "qaçqın" anlayışını və müvafiq statusun verilməsinin əsaslarını müəyyən edir. Qeyd edilən Konvensiyanın müddəalarını sadalamadan qısaca olaraq Qaçqınalr kimlər sayılır qısaca bir nəzər salaq. Qaçqınlar - dini etiqadına, irqi mənsubiyyətinə, vətəndaşlığına, müəyyən sosial qrupa mənsub olmasına və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaqdan əsaslı olaraq qorxduğu üçün vətəndaşı olduğu ölkədən kənarda qalan və həmin təhlükə-qorxu üzündən bu ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən və yaxud müəyyən vətəndaşlığı olmadığı halda öz daimi yaşadığı ölkəsindən kənarda qalan, həmin qorxu üzündən ora qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir.



**- Faktlar göstərir ki, Azərbaycan ərazisində dinc erməniyə "gözün üstə qaşın var" deyən olmayıb...**

- İndi gələk ermənilərə. Hər birimizə bəllidir ki, Ermənistan tərəfindən Azərbaycanın 20 faiz torpaqları işğal altında olduğu dönəmdə Suriya, Livan, Ermənistan, Rusiya və digər ölkələrdən milliyətcə ermənilər məqsədli şəkildə həmin ərazilərdə yerləşdirildi və azərbaycanlıların mülklərinə sahibləndilər. Əslində bu faktın özü beynəlxalq cinayətdir. Bu barədə Azərbaycan dəfələrlə beynəlxalq kürsülərdə bu məsələni dünya ictimayyətinin diqqətinə zamanında çatdırmışdır. Hazırda isə işğal dövründə Qarabağa yerləşdirilmiş ermənilər heç bir status haqqında iddia edə bilməzlər.

Amma 44 günlük Vətən savaşına qədər də, ondan sonra və 24 saatlıq lokal antiterror tədbirindən sonra da Azərbaycan ən yüksək səviyyədə bütün beynəlxalq kürsülərdən dəfələrlə Azərbaycan vətəndaşlığını qəbul edən ermənilərin Azırbaycan Respublikasında yaşaya biləcəkləri haqqında bəyanatlar verilib. Elə son bir ayda Azərbaycan Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin Azərbaycan Konstitusiyasında və Azərbaycanın iştirak etdiyi bütün müvafiq beynəlxalq insan hüquqları mexanizmlərində nəzərdə tutulmuş hüquq və azadlıqlarını təmin etməklə bərabərhüquqlu vətəndaşlar kimi reinteqrasiya siyasətinin apardığı və eyni zamanda, Azərbaycan bütün bu istiqamətlərə sadiqliyini nümayiş etdirməklə, öz suverenliyini və ərazi bütövlüyünü BMT Nizamnaməsi və beynəlxalq hüququn digər universal sənədləri ilə təmin edilmiş bütün qanuni vasitələrlə müdafiə etmək hüququnu özündə saxlaması haqqında cənab prezident İlham Əliyev bu barədə kifayyət qədər fikir bildirib və Azərbaycan Xarici İşlər Nazirliyi də bu barə də xüsusi mövqe sərgiləyib.

**- Amma Ermənistan hazırda bu məsələ üzərindən özünün "təxribat-təbliğat" maşınını işə salıb. Onlar prosesi fərqli məzmunlarda və istiqamətlərdə "izah etməyə" çalışırlar.**

- Baxın, indi Laçın keçid məntəqəsindən Ermənistana qayıdan ermənilərin böyük əksəriyyətindən bizim jurnalistlərin aldığı müsahibələrdən də görünür ki, qeyd elədiyim kateqoriyalara uyğun yəni hal hazırda böyük əksəriyyəti Ermənistan və digər xarici ölkələrin işğal altında olan torpaqlarımzda məskunlaşan ermənilərdir.

**- Bəs, "DQR vətəndaşı " olanlarla , yəni, çoxdan - sovet dövründən orada yaşayanlarla necə razılaşacağıq?**

- Aydındır ki, "DQR" vətəndaşları faktiki ciblərində qondarma respublikanın "pasportunu" gəzdirirlər. Kimdə qondarma "DQR" pasportları varsa, bu da onların dadına çatmayacaq . Çünki qondarma "DQR" beynəlxalq hüququn subyekti deyil, bu "qurumu" dünyanın heç bir ölkəsi tanımayıb və bu səbəbdən də onlara qaçqınlıq statusu verilməsi beynəlxalq hüquqa ziddir.

Qarabağı tərk edən çox kiçik bir hissə zamanında Azərbaycan vətəndaşı olmuş sonra həmin qondarma "dövlətin" vətəndaşlığını qəbul etmişlərdir. Bütün dünyanın gözü önündə hər birinə hətda bizim hərbiçilər və polislar daxil olmaqla onlara Azərbaycan vətəndaşlığını qəbul edərlərsə yaşıya biləcəkləri barədə məlumatlarda verildi. Bütün bu proseslər müasir zamanda medianın gözü önündə baş verir. Bütün bu sadalanan faktlar onu bir daha göstərir ki, Azərbaycandan gedən ermənilərin heç birinə qarşı yuxarıda "qaçqın" anlayışında nəzərdə tutulan müddəalar yoxdur.

Sadəcə bu insanlar müstəqil seçimə malikdirlər və öz seçimlərini edirlər. Doğrudur bizim jurnalistlərə müsahibə zamanı, edilən sorğular vaxtı ermənilərin könüllü tərk etmələrini və bu şəraiti yaratdığına görə Azərbaycana təşəkkürlərini bildirsələrdə bəzi hallarda Ermənistana keçən kimi oranın xəbər portallarına fərqli mövqedə müsahibələr verirlər ki, buna da təbii baxmaq lazımdır. Çünki bunalrın mayası riyakarlıqdan və nankorluqdan yoğrulub.

Lakin dünya və ermənilər bir daha gördülər ki, biz türklər şərəfli millətik. Biz onlar kimi ola bilmərik və olmayacağıqda. Biz şərəfimizi, dəyanətimizi qoruyanıq. Bizim davamız mülki insanlarla deyil.

**- Ərtaflı məlumata görə, təşəkkür edirik...**

**Söhbətləşdi:**
**Əntiqə Rəşid**

# Hərbi ekspert: "Cinayəti törədən adamların torpağımızda sərbəst gəzməsi..."

**"Baş verənlər fantastik bir hadisədir. Bir-iki il öncə belə bir gündəlik yaşayacağımızı desəydilər, inanmazdıq. Sözsüz ki, faktiki olaraq bu hadisə onu göstərir ki, heç bir cinayət cəzasız qalmayacaq"**

Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Azad İsazadə separatçıların dırnağarası "lider"lərinin həbsi barədə danışarkən deyib. Hərbi ekspert bu istiqamətdə Azərbaycanın çox ciddi və düşünülmüş addımlar atdığını bildirib:

"Biz hamımız o hadisələrin qurbanları olan insanlara görə kədərlənirdik və qisas hiss ilə yaşayırdıq. Cinayəti törədən adamların Azərbaycan torpağında sərbəst gəzməsi isə bizi daha da gərgin edirdi. İndi hardasa ürəyimizdən o tikan çıxdı.

Cinayət işləri çoxdan açılıb. Amma bütün faktlar və o separatçıların çıxışları cinayət işlərində toplanıb. Bütün bunlar düşünürəm ki, məhkəmə işlərinə əlavə ediləcək. Azərbaycan qanunvericiliyinə görə məhkəmə bu şəxslərin terrorçu əməllərinə görə qərar çıxaracaq.

Amma istisna etmirəm ki, insanlığa qarşı törədilən bu terror aktına görə Azərbaycan nə vaxtsa beynəlxalq məhkəməyə müraciət etməyəcək.

Yəni Azərbaycan bunu beynəlxalq məhkəməyə də çıxara bilər. Ayrı-ayrı fərdləri deyil, ümumiyyətlə separatçı rejimin törətdiyi cinayətləri beynəlxalq məhkəməyə Azərbaycan gec-tez çıxardacaq"-deyə hərbi ekspert bildirib.

**Vasif Əlihüseyn**

# Rusiyalı şərhçi: "Ermənistan ya "Qərbi Azərbaycan" ya da "İrəvan Xanəyun" olacaq..."



**Rusiyanın məşhur jurnalist və siyasətçisi Maksim Şevçenko Ermənistan parlamentinin BCM-nin Roma Əsasnaməsini ratifikasiya etmək qərarına münasibət bildirib.**

Erməni mediası Şevçenkonun fikrini həyəcanla qarşılayıb. Beləki, jurnalist bu qərarın Ermənistan üçün mümkün mənfi nəticələrini proqnozlaşdıraraq dünya münasibətlərində və qanunun aliliyində baş verən köklü dəyişikliklərə öz əminliyini ifadə edib.

"Baş verənlər dünya münasibətləri sisteminin tamamilə dağılmasıdır, bəzi ölkələrin parlamentlərinin qərarları geri dönməz ola bilər", - Şevçenko bildirib.

Onun sözlərinə görə, Haaqa Məhkəməsinin qərarları Ermənistan ərazisində qüvvədə olacaq və o, Ermənistanın qlobal münaqişəyə cəlb oluna biləcəyindən ehtiyat etdiyini bildirib.

Şevçenko vurğulayıb ki, Azərbaycanla münaqişə artıq Ermənistanın suveren dövlət kimi mövcudluğunu sual altına qoyub və İrəvan üçün hər şey "Qərbi Azərbaycan" və ya "İrəvan Xanəyun" adının dəyişdirilməsi ilə bitə bilər: "Qəbul edilmiş qərar hansısa beynəlxalq hüquq sənədinin qəbulu deyil, bu, Aİ-nin mütləq vassal andıdır".

Şevçenko həmçinin Aİ-nin beynəlxalq arenada maraqlarını qorumaq üçün kiçik müttəfiqlər axtardığını bildirib və Ermənistana mümkün risklər barədə xəbərdarlıq edib: "Aİ indi Qafqaza girir... Bəs doğrudanmı Türkiyə və Rusiyanın buna dözəcəyini düşünürlər? Siz ermənilər bu cür yanaşmalarla Azərbaycanın və ya Osmanlı İmperiyasının bir hissəsi olmaq məcburiyyətində qala bilərsiniz"

O, həmçinin qeyd edib ki, Ermənistan beynəlxalq aləmdə "sövdələşmə obyektinə" çevrilmək təhlükəsi ilə üz-üzədir.

"Yəni, Ermənistan Roma Xartiyası ilə İrana arxalanacaq, yoxsa Ermənistanın xeyrinə işləyəcək və bunun hesabına Moskva, Ankara və ya Qərbdəki tərəfdaşları ilə sövdələşəcək?"-deyə jurnalist fikrini bitirib.

**Qeyd edək ki, martın 17-də Haaqa Beynəlxalq Cinayət Məhkəməsi (ICC) Rusiya prezidenti Vladimir Putinin həbsinə order verib. Rusiyanın hazırkı prezidentinə qarşı Rusiya-Ukrayna münaqişəsi zamanı uşaqların Ukrayna ərazisindən Rusiyaya qanunsuz deportasiyasına görə ittihamlar irəli sürülüb. Putinlə birlikdə Prezidentin Uşaq Hüquqları üzrə Müvəkkili Mariya Lvova-Belovanın da həbsinə order verilib. Ötən gün Ermənistan Milli Assambleyası (parlament) Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Roma Statutunu ratifikasiya edib.**

**Əntiqə Rəşid**

# Ermənilərin "ağıllısı" 102-ci bazanı unutdu: "Armaviri, Soçini, Krımı işğal edək"

**Qarabağda sonuncu dəfə məğlubiyyətin acısını yaşayan ermənilər bunu hazırda ən ağır travma kimi qəbul edirlər. Onların 30 ildir dünyaya sırıdıqları "qüdrətli xalq", "yenilməz ordu" , "dənizdən dənizə" xülyaları qondarma "artsax" ın bayraq deyilən əski parçası kimi yerlə yeksan oldu.**

Düşünmək olar ki, erməni "ağıllıları" 125,000 (2020)minlik Azərbaycan ordusuna məğlub olduqdan sonra bir az dərindən düşünüb, nəticələr çıxaracaq, sakitləşəcək, ömürlərinin qalan hissəsini dinc və yanaşı yaşamağa, digər xalq və dövlətlərin rahatlığına xələl gətirməməyə çalışacaqlar.

Təəssüf ki, ermənilər Qafqaza gəldikləri gündən- ildən (1823-1828) heç vaxt düşüncəli , ağıllı qərarlar qəbul edə bilməyib.Bütün qonşu dövlətlərin ərazisindən torpaq payı umaraq yalançı tarix və nağıllar quraşdırıb.Rusiyanın Azərbaycanın Gürcüstanın, İranın, Türkiyənin bəzi ərazilərinə iddialarla çıxışlar ediblər. Məsələn ötən gün Ermənistan Prezidentinin milli təhlükəsizlik üzrə keçmiş köməkçisi Vladimir Poqosyan "Noyan Tapan TV" Yutub kanalında çıxış edib. O aqressiyalı çıxışında bildirib ki, Ermənistan Krımı, Soçini və Armaviri almalıdır:"Əgər sərhədlər yoxdursa, o zaman gəlib Armavir, Soçi və Krımı götürə bilərik. Krımın ümumən 70%-i ermənidir".

2 ildir Ukraynada dünyanın böyük gücləri ilə - ən azı 40-a yaxın ölkə ilə döyüşən, hələ də bitib- tükənmək bilməyən Rusiyanın torpaqlarına iddia qaldıran, erməni düşüncəsi bu sayıqlamadan ibarətdir. 766 000 əsgər və zabiti olan Rusiyaya qarşı bu iddia ermənilərin sonunu gətirə bilərmi sualını əslində elə ermənilərin qabaqda gedən "ən ağıllısına " vermək lazımdır. Bunlar anlamırlar ki, Ermənistanın tam mərkəzində 102 saylı Rusiya hərbi baza Ermənistan 2 saatın içində altını üstünə çevirə bilər?

Azərbaycan ordusunun belini qırıb şikəst etdiyi Ermənistan Silahlı Qüvvələri Rusiyaya məxsus 102-ci bazanın həmləsi qarşısında dayanmaq güçündədirmi?

102-ci Rusiya Silahlı Qüvvələrinin Ermənistandakı hərbi bazasında nələr var?

Ermənilərə xatırladaq: Rusiya Müdafiə Nazirliyinin direktivi ilə 1 sentyabr 1994-cü il tarixində keçmiş SSRİ Silahlı Qüvvələrinin 7-ci ordusunun 127-ci motoatıcı diviziyasının bazasında yaradılıb. Hazırda şəxsi heyətinin 4000 nəfər olduğu bildirilən hərbi bazanın döyüş heyəti İrəvan və Gümrü qarnizonundan ibarətdir. İrəvan qarnizonuna İdarəetmə Qrupu, 123-cü motoatıcı alay, 3624-cü aviasiya bazası, hospital, mənzil-təchizat hissəsi, qarnizon məhkəməsi və rabitə mərkəzi daxildir. Gümrü qarnizonuna isə 128-ci motoatıcı alay, 124-cü motoatıcı alay, 988-ci zenit raket alayı (S-300 ZRK) və 992-ci artilleriya alayı tabedir. Bazanın nəzdində əlahiddə tank, kəşfiyyat, təmir, mühəndis-istehkam, radiasiya-kimyəvi və bakteroloji mühafizə taborları, tank əleyhinə divizion, radioelektron, tibb, komendant bölükləri, prokurorluq, televiziya mərkəzi və s. fəaliyyət göstərir.

128-ci motoatıcı alay: Alay 3 motoatıcı tabor (biri BMP-2, biri BTR-80, biri isə avtotexnika), zenit divizionu (silahlanmasına ZSU-23-4 "Şilka", BRDM maşının bazasında "Strela" və ZU-23-2 ), özüyeriyən artilleriya divizionu ("Qvozdika"), artilleriya divizionu (D-30 haubitsalar), tank bölüyü (T-72 tankları) olmaqla 750 nəfər şəxsi heyətdən ibarətdir.






124-cü motoatıcı alay: üç motoatıcı tabor (biri BMP-1, ikinci BTR-70, üçüncüsü avtotexnika), zenit divizionu (silahlanmasına ZSU-23-4 "Şilka", BRDM maşının bazasında "Strela" və ZU-23-2 ), artilleriya divizionu (yüngül zirehli MT-LB transportyorunun yedəyində D-30 haubitsaları), tank bölüyü (T-72) olmaqla şəxsi heyəti 470 nəfərdir. 123-cü motoatıcı alay: üç motoatıcı tabor (biri BMP-1, ikinci BTR-70, üçüncüsü avtotexnika), zenit divizionu (silahlanmasında ZSU-23-4 "Şilka", MT-LB maşınlarının bazasında 10 ədəd "Strela" raketi və ZU-23-2 pulemyotları), artilleriya divizionu (D-30), tank bölüyü (T-72), təminat-təchizat qrupu daxil olmaqla şəxsi heyəti 550 nəfər.

988-ci zenit-raket alayı: üç batareya "Kub" zenit-raket kompleksi, tank gövdəsi üzərində iki batareya S-300 raketi (iki buraxıcı qurğuda), olmaqla şəxsi heyəti 300 nəfərdir.

992-ci artilleriya alayı: üç batareya D-30 haubitsaları, 122 mm çaplı BM-21 Qrad sistemlərindən ibarət reaktiv divizion olmaqla şəxsi heyəti 450 nəfərdir.

Tank taboru: T-72 tanklarından ibarət üç bölük olmaqla şəxsi heyəti 250 nəfərdir. Tank əleyhinə divizion: üç batareyadan ibarətdir. Batareyalardan ikisi tank əleyhinə MT-12 (100 mm çaplı) puşkalar, üçüncü isə "Faqot" və "Konkurs" tank əleyhinə raket kompleksi ilə silahlanıb.

3624-cü aviasiya bazası: bu bazaya 18 ədəd MiQ-29 təyyarəsi daxildir. Həmçinin radiolokasiya stansiyalarına malikdir və şəxsi heyət 300 nəfərdir. Bundan başqa, 102-ci hərbi bazanın ştatında 50-dən 150-yə qədər şəxsi heyəti olan xüsusi taborlar və radiasiya, kimyəvi və bakterioloji mühafizə taboru mövcuddur. Ümumilikdə hərbi bazada bu günə 150 ədəd BMP, o qədər BTR, təxminən 100 ədəd T-72 tankı və digər texnikaların olduğu söylənilir. Eyni zamanda 2005-2007-ci illərdə Gürcüstandakı Axalkələk və Batumi hərbi bazalarından çıxarılan silah, texnika, sursat və hərbi avadanlıqların böyük hissəsi bu bazada saxlanılır. Hərbi bazanın 3 təlim mərkəzi (poliqonu) var ki, bunlardan birincisi İrəvanın 25-30 km-də yerləşən "Nubaraşen", ikincisi Gümrünün 15-17 km məsafədə yerləşən "Kamxud", üçüncüsü isə "Alagöz" poliqonudur. "Nubaraşen"də əsasən müxtəlif atıcı silahlardan, o cümlədən tanklardan, BMP, ZSU-23-4 Şilka və minaatanlardan, "Kamxud"da digər silahlardan (nadir hallarda BMP, tank və minaatanlardan), "Alagöz"də isə artilleriya, reaktiv yaylım atəş sistemləri və tanklardan atış təlimləri keçilir.

***P.S.** Azərbaycan filmi var: Qaynana. Yanğın söndürməyə gələn yanğınsöndürənlər aldandıqlarını görür və qarşılaşdıqları mənzərədən qəzəblənib deyir: Ə, bura dəlixanadır ki...İndi o yanğınsöndürənin sözü olmasın Ermənistan dəlixanadır ki, ağıllısı Vadimir Poqosyan olandan , sıradan, adi ermənidən nə gözləyəsən... Rusiya ver gəlsin!*

**Əntiqə Rəşid**




*Faiq QİSMƏTOĞLU*
*faiqqismetoqlu@box.az*


# Sənin saqqalına baxanda...

**Günlərin bir günündə Sədi Şirazini şahın hüzuruna çağırırlar. O, şahın hüzuruna gəlir və deyir:- Padişah -aləm, sağolsun, qulluğunuzdayam!**

**Şah diqqətlə və zəhmlə ona baxıb əmr edir:- Mənim böyüklüyümdən, ədalətimdən və mərhəmətimdən bir əsər yazmalısan ! Şirazi bir qədər düşündükdən sonra dilənir:- Padişah-aləm sağolsun, mən hər şeyı ürəyimin səsilə yazıram. Amma bilmirəm, ürəyim nə deyəcək!**

**Şah şairin cavabından əsəbləşir və ucadan səslənir:- Bu yaramazı zindana atın, bəlkə ondan sonra ağıllana! Onu aparıb zindana salırlar. Zindanda bir çobanda varmış. Sədi Şirazi görür ki, çoban ona baxıb hey ağlayır, kirimək bilmir. Çobanın göz yaşları onu da kövrəldir.**

**Onun göz yaşlarına dözməyib soruşur:**

**- Qardaş, niyə belə ağlayırsan, yəqin arvad- uşağın yadına düşüb?!**

**Çoban göz yaşları içində zarıyaraq:**

**- Sənin saqqalına baxıram, keçim yadıma düşur, arvad-uşaq üçün yox, keçim üçün ağlayıram! Görəsən, yazıq keçim indi nağayrır?! - deyir.**

**Sədi Şirazi əllərilə başını tutur və deyir ki , belə nadanla bir yerdə qalmaqdansa, şahın sifariş etdiyi əsəri yazım.**

**Şahın yanına qayıdır və deyilən əsəri yazır. Bax qananla-qanmazın, şairlə- cahilin bir yerdə olması belə bir faciədir!**

## *"Ermənilərin də içində müsbət düşünən adamlar var..."*



**"Vaxtilə azərbaycanlılar öz torpaqlarından didərgin salınanda ermənilər öz vəhşiliklərini nümayiş etdiriblər. Biz isə indi onları normal şəkildə torpaqlarımızdan yola salırıq. Hətta təklif edirik ki, torpaqlarımızda qalıb Azərbaycan vətəndaşı kimi yaşaya da bilərlər"**

Bunu Adalet.az-a açıqlamasında tanınmış ictimai xadim, Tibb Universitetinin dosenti Rəşid Mahmudov deyib. R.Mahmudov daha sonra bunları əlavə edib:

"Amma yenə də Rusiyanın Qarabağ torpağında əli olması bizə mane olur. Biz düz edirik, çünki insanıq. Qarabağadan köçən ermənilərə hökumətimiz çox humanist münasibət göstərir. Ola bilməz ki, ermənilərin hamısı bizə qarşı düşmən münasibəti göstərsin.

Onların da içində müsbət düşünən insanlar var. Biz insanlığımızı göstərməliyik. Dövlətlərarası qayda-qanunlar var və biz buna riayət edirik.

Biz Qarabağdan köçən ermənilərə təklifimizi etmişik, yenə də seçim özlərinindir. Qarabağ bizim torpağımız olub və bunu ərazidən köçən ermənilərin əksəriyyəti də etiraf edir"-deyə Rəşid Mahmudov bildirib.

**Vasif Əlihüseyn**

# QƏDİM - MÜASİR ŞƏKİ

**Dünyanın ən mürəkkəb dövrlərində belə Azərbaycanın necə düzgün yol tutması son illər daha dolğun görünür. Onillərlə xain qonşuların və onlara havadarlıq edənlərin reallıq və gerçəklik müstəvisinə keçirilməsi Azərbaycanın, onun güclü lideri cənab İlham Əliyevin zahiri səbr və təmkini uzun illərin uğurlu siyasətinin nəticəsidir. Az qala bütün dünyanın marağında olan (əksərən bizim əleyhimizə) Qarabağın 44 günlük əfsanəvi bir savaşla işğaldan azad edilməsi, paralel olaraq iqtisadiyyatımızın davamlı inkişafı və dünya siyasətində mövqe sərbəstliyi daha uğurlu gələcəkdən xəbər verir.**

Dünyada baş verən indiki hadisələri, xüsusilə Rusiya-Ukrayna müharibəsi və bu müharibənin ətrafındakı olaylar, sözsüz ki, respublikamıza təsirsiz qalmır. Ancaq həmişə düzgün siyasi kurs götürən Azərbaycan özünün müstəqillik və inkişaf yoluna davam etməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin söylədiyi kimi bunun başlıca səbəbi respublikamızda ictimai-siyasi vəziyyətin sabit olmasıdır, xalqla iqtidarın arasındakı birlikdir və bizim bütün proqnozlarımızın uğurlu icrasıdır.

Bəli, bütün bunlar ölkəmizin ictimai-siyasi arenada təsdiqlənən mövqeyini aydın şəkildə əks etdirir və müasir Azərbaycan reallığının spektrini işıqlandırır.

Müdrikcəsinə söynənən "xalqla iqtidar arasında birliyin" əbədi və sarsılmaz



olduğunu biz az qala hər gün görür və yaşayırıq. Bu birliyin ən pik nöqtəsi isə təbii ki, torpaqlarımızın düşmən işğalından azad edilməsi və Böyük Qələbəmizin təntənəsi idi. Prezidentin imzaladığı bir çox mühüm sənədlər, işğaldan azad olunmuş ərazilərə intensiv səfərləri, xalqla görüşləri, istiqanlı, mehriban söhbətləri, görülən və görüləcək işlərin perspektivləri haqqında söylədikləri bütün bunları bir daha təsdiq edir.

...Yerlərdə insanların daha inamlı və nikbin görünməsi, quruculuq işlərindəki fəallıqları məhz daxili və xarici siyasətimizin uğurla davam etməsinin nəticəsidir. Rəhbərliyə inam, Prezidentlə, Ali Baş Komandanla fəxr etmək hər yerdə olduğu kimi Şəki rayonunun sakinlərinin də sevinc mənbəyidir. Bu gerçəklik doğrudan Şəki rayonunda daha təmtaraqlı yaşanır.



Qədim və şöhrətli Şəkinin son illərdə bütün istiqamətlər üzrə inkişafı, şübhəsiz, hamımızı sevindirir. Vətən olaraq Azərbaycanımızın əbədi simvollarından biri kimi, yəni həm qədim tarixə malik yurd yeri, həm də ölkəmizə bəxş etdiyi şəxsiyyətlərin ucalığı adına Şəki onsuz da fəxr yerimizdir. Vətənimin hər qarış torpağı əzizdir, müqəddəsdir. Məhz bu mənada Şəkinin adı və... dadı bir başqadır. Həqiqətən belədir. Burada qədimliklə müasirlik bir-birinə elə qovuşub ki, az qala keçmiş xatirələri də düz-əməlli sıralaya bilmirsən. Dağlar, meşələr, çaylar, kiçik göllər, yaylaqlar qədim və əzəmətli...

Uzaqlardan nəhəng bir xəritə kimi görünüb də yaxınlaşıb qovuşduqca gözəllikdən aşıb-daşıb şəfəq saçan Şəki şəhəri isə modern görkəmdə, urbanik inkişafda. Bütün bunlar, bütün bu gözəlliklər, şəhər səliqəsi, düzəni son dövrlərin töhvələridir.

Son illər Şəki rayonunun müntəzəmliklə mətbuat və televiziyanın diqqət nərəzində olması heç də səbəbsiz deyil. Bu rayon sürətli inkişafı ilə ciddi uğurlar qazanmaqdadır. "Ədalət" qəzeti olaraq biz də vaxtaşırı bu inkişafın gedişindən yazılar dərc edirik. Bəzən bu qədim və gözəl rayonun tarixi keçmişindən, bənzərsiz təbiətindən, Azərbaycan ədəbiyyatına və mədəniyyətinə, eyni zamanda elminə bəxş etdiyi böyük şəxsiyyətlərindən və başqa özəlliklərindən də söz açaraq oxucuları xoş bir nostaljiyə çəkirik. Və bütün hallarda o məşhur Xan Sarayından aşağıları seyr edərkən gecələri də gündüzlər kimi işıq saçan bu gözəl şəhərin - əfsanəvi qədim Şəkinin ovsununa düşürük. Hər nədirsə, Şəki minillərdir ki, belə görünür.

Təbii ki, bu gözəl məkan istisna deyil. Respublikamızın çox yerlərində inkişafın, fundamental müasirləşmənin şahidiyik. Ancaq Şəki gerçəkliyi indi tamam başqa ovqat yaradır. Son illər Şəkinin inkişafını görüb sevinmək bir yana, onun indi bu nəhənglikdə dağların qoynuna sığmayıb da daha geniş düzlərə yol açmasına, qədimliyin ən müasir görüntü ilə göz oxşamasına heyran qalmaya bilmirsən.

Dövlətimiz, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu qədim yurdun mədəni-tarixi ənənələr üzərində daha da inkişaf etdirilməsi üçün müstəsna qayğı və diqqət göstərir. Şəki müasirləşməklə, modern bir şəhərə çevrilməklə yanaşı quruluş, tarixi abidələr və özünəməxsus ənənələri ilə varlığının ən qədim havasını, min illərin yurdu, şəhəri olmasını da sanki pasportlaşdırır, vətənimizin qədimliyini dünyaya bir daha sübut edir.

Şəkinin keşməkeşli tarixi, keçmiş şöhrəti haqqında o qədər yazılıb və danışılıb ki, indi bunları yenidən xatırlamaq o qədər də vacib deyil. Qədim dünya tarixindən üzü bu yana bu şəhərin dəqiq yaşını, yaranışını da müəyyənləşdirmək olmur ki! 2000 il, 3000 il? Yoxsa elə doğma məmləkətin yaşı qədər? Hər nədirsə o məşum faciələr də bu yurdun acı taleyinə yazılıb, o möhtəşəm tarixi hadisələr, Xanlıq dövrü, dahi ədiblər, abidələr də!



Əsas odur ki, qədim və müasir Şəki bu gün həmin o tarixi gerçəkliyin üzərindən daha işıqlı, daha möhtəşəm görünməkdədir. Cənab Prezidentimizin bu rayon haqqındakı son sərəncamlarını xatırlasaq, bir daha əmin olarıq ki, Şəkinin qədim ənənələr istiqamətində necə böyük inkişafı, yüksəlişi davam etməkdədir. Ölkə rəhbərliyinin böyük qayğı və diqqəti şəkililəri daha yaxşı çalışmağa, yaşamağa ruhlandırır...

...İndi bir daha xatırlayıb məni düşüncələrə çəkən bəzi məsələləri yazmasam olmaz. Peşə instikinin tələbi bütün məqamların xatırlanmasını zəruriləşdirir. Keçən əsrin 90-cı illərinin sonuna doğru 200 min nəfər əhalisi olan böyük bir rayonun camaatı azala-azala 150 min nəfərə qədər enmiş, Şəki öz şahlığını-şuxluğunu itirmiş, xəstəhal bir görkəm almışdı. Dünyaca məşhur yumorunu, koloritini, lətifələrini itirməkdə olan bu qədim diyar, nəhəng ipək kombinatı ilə yanaşı, digər onlarla böyük müəssisələrini də "qapadaraq" sanki boz və yarımqaranlıq bir guşəyə çəkilmiş, qaməti əyilmişdi. Şəki yaman sınıxmışdı. Həmin illərdə mən bu qədim diyarımı, bu doğma, gözəl və zəhmətkeş şəkililəri belə görüb çox kədərlənmişdim.



Bəs indi necədir? Mən bu sualın müxtəlif istiqamətli cavablarını öz müşahidələrim və gəldiyim nəticələrlə müəyyənləşdirmişəm. Ancaq bu böyük rayonun çox işgüzar, vətənpərvər və ziyalı rəhbəri var. Uzun illərin tanınmış və eyni zamanda təvazökar dövlət adamı Elxan Usubov. O, səbr və təmkinlə, yığcam münasibətlə danışır və deyir:

- Siz də yaxşı bilirsiniz ki, Ulu öndərimiz Heydər Əliyev Şəkinin dirçəlib keçmiş şöhrətini qaytarması üçün məsələyə necə ciddi bir münasibət göstərdi. Dahi rəhbərin Xan sarayında söylədikləri yadınızdadırmı? Böyük rayonun,

böyük yerin işi, problemləri də böyük olur... Və problemlərin aradan qaldırılması ilə bərabər yüksəlişə doğru yolların da qət edilməsi böyük fədakarlıqlar tələb edir. Şəkililər istər Ulu öndərin dövründə, istərsə də sevimli prezidentləri İlham Əliyevin dövründə yalnız uğurlara doğru irəlilədilər. Böyük inam, böyük sevgi ilə. Cənab Prezidentin ayrıca olaraq Şəki şəhəri ilə bağlı verdiyi sərəncamlar, bu sərəncamların icrası, eyni zamanda regionların sosial-iqtisadi inkişafın Dövlət Proqramlarının rayonla bağlı məsələlərin yüksək səviyyədə icrası, məhz ölkə rəhbərliyinin apardığı müdrik siyasətin nümunələrindən biridir.

...Şəkililər həmişə bu şəhərə xüsusi diqqət göstərən prezidentlərini çox sevir və həmişə rəhbərin daxili və xarici siyasətini fəxrlə dəstəkləyirlər. Elə bu səbəbdən də artıq Şəkinin üzü daim gülür. Həm Ali Baş Komandanımızın rəhbərliyi ilə Böyük Qələbəmizin əbədi sevinc və fərəhindən, həm də Şəkinin arzulanan yüksəlişindən...

Elxan müəllimin bir dost yazar olaraq mənə tuşlanan iradını telefon danışığımızda cavablandıra bilmədim. Soruşurdu ki, son vaxtlar Şəkidə keçirilən tədbirlərdə, xüsusilə XII İpək Yolu Beynəlxalq musiqi festivalında nədən görünmədim. Həmin vaxtlar ağır xəstə olduğumu, hospitalda və başqa klinikalarda uzun müddətli müalicə aldığımı deyə bilmədim. Başqa dostlara da bildirmədiyim kimi.

Mən yazımı başqa məsələlərlə bitirmək istəyirəm.

...Keçən ilin sonunda cənab Prezidentin Şəkiyə səfəri və görülən işlərdən razı qalması məni də çox sevindirib.

...Şəkililərin birinci və ikinci Qarabağ müharibələrində, daha sonra Böyük Qələbəmizin tam başa çatdırılmasında fədakar iştirakı həmişə sevindirir. 350 şəhidi və yüzlərlə qazisi ilə iftixar edən Şəki sevincinin ucalığındadır həm də.

**...Şəkinin əhalisi yenidən 200 min nəfərə yaxınlaşır!**

**Məzahir ƏHMƏDOĞLU**

# "Roma statusuna razılaşmaq, Ermənistanın "Ukrayna aqibəti"ni yaşayacağı deməkdir"

**Ermənistanın Baş naziri Paşinyanla Rusiya Prezidenti Vladimir Putin arasındakı münasibətlərin ilk etapı sona çatdığının fərqindəyik. Gərginliyin başlanğıc nöqtəsinə diqqət yetirsək anlamaq çox asandır ki, Putin uzunmüddətli siyasi fəaliyyətində Ermənistan qədər güzəşt etdiyi bir ölkə, Paşinyan qədər səhvini bağışladığı bir siyasi lider olmayıb.**

Baxmayaraq ki, baş nazir Ermənistan Xarici İşlər Nazirliyinin rəsmi bəyanatla Rusiyanı siyasi riyakarlıqda suçlamasını dəfələrlə təşkil edib, amma Putin belə bəyanatlara susaraq cavab verib və güzəşt edib.

### *Liderlər arasında gərginlik nə vaxt başladı?*

Ötən ilin noyabrında Putin Ermənistanın baş naziri Nikol Paşinyanın sədrliyi ilə keçirilən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Kollektiv Təhlükəsizlik Şurasının (KTŞ) sessiyasında iştirak etmək üçün Yerevana gəldi. Paşinyan KTMT sammiti çərçivəsində Kollektiv Təhlükəsizlik Şurasının bəyannamə layihəsini və ölkəsinə yardım göstərilməsi üçün birgə tədbirlər haqqında layihəni imzalamaqdan imtina etməsi Putin üçün ilk ən böyük zərbə effekti oldu. Putin İrəvanı əliboş və "sınmış" vəziyyətdə tərk etdi.

***Bundan əvvəl isə (2022-ci ildə) İrəvanın "Azadlıq" meydanında "KTMT-yə yox, KTMT-dən çıx" şüarı ilə aksiya keçirildi. Aksiya iştirakçıları KTMT-nin Ermənistan-Azərbaycan sərhədindəki vəziyyətə heç bir aydın qiymət vermədiyini sitat gətirirdi.***

Bu dinc nümayişi Kreml Paşinyanın və onun güvəndiyi ABŞ-ın, Qərbin oyunu hesat etdi. O arada Peskovun və Zaxarovanın verdiyi açıqlamalar da bunu təsdiq edirdi.

Xatırlayırsınızsa, hətta bu ilin fevralında Avropa İttifaqı bir müddət öncə Ermənistana 2 il müddətinə 100 nəfərdən ibarət müşahidə missiyasının göndərilməsi barədə qərar qəbul etdi . Bu qərardan sonra Ermənistana KTMT yox, Avropa İttifaqı müşahidəçiləri gəldi.

Bir sözlə, Paşinyan ABŞ və Qərbin təsirinə düşərək 200 illik himayədarından imtina edir.

Bu ilin ilk günlərində Rusiya Ermənistan ərazisində KTMT sülhməramlı kontingentinin "Sarsılmaz Qardaşlıq-2023" birgə təlimi keçiriləcəyi ilə bağlı məlumat yaymışdı.

Paşinyan yanvarın 10-da keçirdiyi mətbuat konfransında "Sarsılmaz Qardaşlıq-2023" birgə təlimləri İrəvanda keçirilməyəcəyini dedi. Buna da susan Putin 11-20 sentyabr tarixlərində Ermənistanda keçirilən "Qartal tərəfdaşı 2023" adlı təlimdə ABŞ-ın 85 hərbçisi iştirak etməsini həzm edəcəyini düşünmək ağılsızlıq olardı.

Paşinyan ABŞ və Qərbin onu xilas edə biləcəyinə çox inandığı üçün regionun ən böyük dövləti ilə kəllə-kəlləyə gəlməyi davam etdirir.

Paşinyandan Putinə növbəti zərbə ni ötən gün vurdu.

***Ermənistan Milli Assambleyası (parlament) Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Roma Statutunu ratifikasiya edərkən.***

***Baxmayaraq ki, Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova sentyabrda keçirdiyi brifinqdə bildirdi ki, Moskva İrəvandan BCM-nin Roma Statutunun Ermənistan parlamenti tərəfindən ratifikasiyası ilə bağlı aydınlıq tələb edib.Amma Paşinyan həmin "aydınlıq"ı da Rusiyaya qıymadı.***

***Elə Kremlin sözçüsü Dmitri Peskov bəyan etdi ki, Ermənistanın Roma Statutuna qoşulmaq niyyəti Rusiyaya qarşı son dərəcə düşmənçilikdir: "Ermənistan çox yaxşı bilir ki, biz Roma Nizamnaməsinin tərəfləri deyilik və Ermənistan BCM-nin Rusiya prezidenti Vladimir Putinin həbsinə order verməklə bağlı BCM-nin bu əsasnamə əsasında qəbul etdiyi çətin qərarını yaxşı bilir",***







### *Axı nədir bu Roma statusu?*

Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutu 15 iyun 1998-ci il və 17 iyul 1998-si il tarixləri arasında Birləşmiş Millətlər Təşkilatı Konfransının, İtaliyanın paytaxtı Romada qəbul etdiyi Beynəlxalq Cinayət Məhkəməsinin Qurulması haqqında sənəddir. Qeyd edək ki, beynəlxalq müqavilələrə tez-tez status da deyilir və bu sənəd gündəlik istifadədə isə Roma Əsasnaməsi adlanır. 2016-cı ilin mart ayından etibarən 139 dövlət müqaviləni imzalasa da, cəmisi 124 dövlət bu müqaviləni təsdiqləyib ki, Ermənistan da son mərhələni adlamaqla 125-ci tamhüquqlu təsdiqçi ola bilər.

Maraqlıdır ki, 2000-ci ilin sentyabrında Rusiyanın özü də bu əsasnaməni imzalayıb. Lakin 2016-cı ilə qədər rəsmi ratifikasiya prosesinə başlanılmayıb. Həmin ilin noyabrın 16-da isə prezident Putin Rusiyanın Roma Statutunda iştirakdan imtinası ilə bağlı sərəncam imzalayıb. Prezidentin sözçüsü Dmitri Peskov isə BCM-nin yurisdiksiyasından çıxmağı "dəqiq milli maraqlar"ın tələbi kimi qiymətləndirmişdi.

Qeyd edək ki, Roma Statutunun təsir dairəsi dörd əsas beynəlxalq cinayətlə formalaşır: soyqırım, insanlığa qarşı cinayətlər, müharibə cinayətləri və təcavüz cinayətləri.

Bu cinayətlərə heç bir məhdudiyyət tətbiq olunmur. Roma Əsasnaməsinə görə, Beynəlxalq Cinayət Məhkəməsi, dövlətlərin özlərinin həll etməkdə çətinlik çəkdiyi və müdaxilə etmək istəmədiyi vəziyyətlərdə yalnız dörd əsas beynəlxalq cinayətin araşdırmasını apara bilər; məhkəmənin yurisdiksiyası yerli məhkəmələrin səlahiyyətləri ilə ziddiyyət təşkil etmir. Məhkəmə yalnız cinayətlərin hər hansı iştirakçı dövlətin ərazisində və ya iştirakçı dövlətin vətəndaşı tərəfindən törədildiyi təqdirdə səlahiyyətlərə malikdir; İstisna olaraq, BCM-nin yurisdiksiyası Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası tərəfindən icazə verildiyi təqdirdə, bəzi beynəlxalq cinayətlərə də aid ola bilir.

### *Paşinyan Qafqazda növbəti "Ukrayna"nın taleyini yazdı*

Ratifikasiya müzakirələrində yalnız baş nazir Nikol Paşinyanın "Mülki müqavilə" fraksiyası iştirak edib.

Müxalifətin "Ermənistan" və "Şərəfim var" fraksiyaları bu məsələnin müzakirəsini boykot edərək, səsvermə olmadan iclası tərk ediblər.

60 deputat ratifikasiyanın lehinə, 20 deputat əleyhinə səs verib. Bu barədə səsvermənin nəticələrinə görə parlamentin spikeri Alen Simonyan məlumat verib. Martın 17-də Haaqa Beynəlxalq Cinayət Məhkəməsi (ICC) Rusiya prezidenti Vladimir Putinin həbsinə order verib. Rusiyanın hazırkı prezidentinə qarşı Rusiya-Ukrayna münaqişəsi zamanı uşaqların Ukrayna ərazisindən Rusiyaya qanunsuz deportasiyasına görə ittihamlar irəli sürülüb.

Putinlə birlikdə Prezidentin Uşaq Hüquqları üzrə Müvəkkili Mariya Lvova-Belovanın da həbsinə order verilib.

Yəqin ki, bir çoxunuz xatırlayırsınız: 2021-ci ilin noyabrı Vladimir Putinin ən yaxın müşavirlərindən biri olan Rusiya Xarici Əlaqələr Şurasının idarə heyətinin rəhbəri Fyodor Lukyanov bildirib ki, əgər Ukrayna Şimali Atlantika Alyansına (NATO) daxil olarsa, Moskva Ukraynaya qarşı hərbi əməliyyatlara başlayacaq.

ABŞ və Qərbin təkidi ilə Ukrayna NATO-ya qatılmaq üçün növbəti dəfə məsələ qaldıranda artıq Rusiya səbrini basa bilmədi.

2022-ci ilin fevralında o qanlı müharibəyə start verildi. Eyni ssenari 2008-ci ildə Gürcüstanın da başına gəldi.

**Bir sözlə, Ermənistanda Putinin həbsinə qərar verən bir sənədə qol çəkmək, həmin ölkənin aqibətinin Ukraynanın yaxud da Gürcüstanın aqibətindən fərqli olmayacağından xəbər verir.**

**Əntiqə Rəşid**

# "100 min " şousuna inanan 75 konqresmenin hücumu: Metyu Miller nə demək istəyir?

**Ermənilərin dünənki iddiasına görə, Qarabağı tərk edən ermənilərin sayı 91 031 nəfərdir.**

ABŞ Konqresinin 75 üzvü prezident administrasiyasını Azərbaycana qarşı sanksiyalar tətbiq etməyə, ABŞ-ın Bakıya hərbi yardımını dayandırmağa tələb edib. ABŞ Konqresinin Nümayəndələr Palatasının keçmiş sədri , ötən il İrəvanda saxta soyqırım abidəsində "acı göz yaşları" tökən Nensi Pelosi və konqresmen Anna Eşunun təşəbbüsü ilə Azərbaycana "hücum" keçən 75 senator Laçın dəhlizinə beynəlxalq müşahidəçilər yerləşdirməyə çağırıb.Bəli, Nensi Pelosinin başçılıq etdiyi 75 ABŞ konqresmen hazırda ABŞ lideri Co Baydenə məktub və təkliflər ünvanlamaqdadırlar.

Belə bir məqamda ABŞ Dövlət Departamentinin rəsmisi Metyu Miller də iddia edib ki, yüz minə yaxın etnik erməni Qarabağdan Ermənistana gedib: "İndi biz bilmirik ki, onların neçə faizi Ermənistanda qalacaq, neçə faizi isə şərtlər imkan versə, özlərini kifayət qədər yaxşı hiss edərlərsə, qayıtmaq istəyəcək.

Geri qayıdacaqları təqdirdə, onlara qarşı rəftarı nəzərə alaraq, biz şəffaflığı təmin edəcək və Qarabağ xalqını, xüsusən də ermənilərin hüquq və təhlükəsizliyinin qorunacağına əmin edəcək müstəqil beynəlxalq monitorinq missiyasının yaradılması çağırışımızı təkrar edirik. Azərbaycan belə təminat verib. Biz hesab edirik ki, onları müşahidə edəcək və zəmanət verəcək beynəlxalq monitorinq missiyası olmalıdır"





Qeyd edək ki, ABŞ Dövlət Departamenti Qarabağdan ermənilərin çıxmasını "etnik təmizləmə" adlandırmaqdan imtina etsədə, Qarabağı tərk edən ermənilərin sayını erməni mənbələrdən götürməsi şəksizdir. Hətta Metyu Miller açıqlamasında bir nüansla diqqəti cəlb edir. O vurğulayır ki, ABŞ "etnik təmizləmə", "soyqırım" və digər vəhşiliklərlə bağlı iddiaları ciddi qəbul edir:"Vəziyyətlə bağlı yerlərdə əlaqə saxlayırıq. Biz vəhşilik iddialarına cavab vermək üçün müvafiq tədbirlər görməkdən və bunun baş verdiyinə dair sübutlarımız olduqda günahkarları məsuliyyətə cəlb etməkdən çəkinməyəcəyik. Amma həmişə olduğu kimi, soyqırım və ya etnik təmizləmə qərarı düşünülmüş, sübuta əsaslanan prosesdir. Mən hazırda bu barədə qətiliklə danışa bilmərəm".

**Daha dəqiq, ay ermənilər soyqırım və etnik təmizləmə faktınız varsa, təqdin edin, qalanı bizim boynumuza! Görək , ermənilər "fakt" tapa biləcəklərmi?**

**Əntiqə Rəşid**

# Qriboyedovdan Korotçenkoya qədər: Rusları «heyrətləndirən» ermənilər

**Rusiya əsilli siyasət, elm və ictimai xadimlərin hansı ermənilərlə təmasda olubsa, bu toplum haqqında öz mənfi rəyini deməkdən çəkinməyib.**

Dünyada bəlkə də elə bir rus siyasətcisi olmayıbdır ki, erməni xislətini polyak əsilli tanınmış rus dramaturq, yazıçı və diplomatı Aleksandr Sergeyeviç Qriboyedov qədər qabarıq göstərə bilsin: "Əlahəzrət, ermənilərin mərkəzi rus torpaqlarında yerləşməsinə icazə verməyin. Onlar elə tayfadandırlar ki, bir neçə il yaşayandan sonra bütün dünyaya bu torpaqların ata və babalarına aid olduğunu qışqıracaqlar".

Dahi rus şairi A,S.Puşkin də ermənilər haqqında dediyi fikirlər indi də Rusiya da zərb -məsəldir: "Sən kölesən, sən qorxaqsan, çünki sən ermənisən". Yazıçı Olqa Smurovanın "Əgər yuxuda erməni görübsünüzsə, çox ehtiyatlı olun, bilin ki, sizi aldadacaqlar və yaxud, sizə xəyanət edəcəklər" fikrini isə ruslar çoxdan təsdiq edib. Yəni, boş vaxtımız olsaydı, bu siyahını daha çox uzadardıq. Amma elə bu qədər də yetər.

Bu gün rusiyalı hərbi ekspert İqor Korotçenko sosial şəbəkə hesabındakı paylaşımı diqqətimi cəlb etdi. Rus ekpert yazır:

"Qarabağ münaqişəsinin tarixini nə qədər diqqətlə, ətraflı və hərtərəfli öyrənirsinizsə, erməni millətçilərinin yalanının miqyasına bir o qədər heyrətlənirsiniz. Dünya ictimaiyyətinin əhəmiyyətli bir hissəsini aldatmaq, nə qədər pul və səy tələb etdi. Amma həqiqət yenə də sonda qalib gəldi.

2020-ci il sentyabrın 27-dən 2023-cü ilin oktyabrına qədər baş verənlərin dərin simvolik mənası var: Qorbaçov üzərindən manipulyasiya edərək, "millətçiliyin cinini şüşədən çıxarmaqla" 35 il əvvəl SSRİ-nin dağılması prosesinə başlayan o qara qüvvələr bu gün Azərbaycanın tərəfində olan tarixi ədalətə uduzaraq, keçmiş Ermənistan SSR daxilindəki ilkin vəziyyətlərinə geri dönüblər".

**Hörmətli İqor Korotçenko, biz 200 ildə ermənilərdən o qədər yalan , uydurma, şər, böhtan görmüşük ki, artıq heyrətlənmirik. Hətta adi hal hesab edirik. Çünki ermənilərin iç üzünü 200 ildir biz görürük deyirik, amma bəzi dünya xalqları görür, eşidir susur. Çox şad oluram ki, texnologiyanın inkişafı, sosial şəbəkələrin varlığı ermənilərin iç üzünü sizə və dünyaya xatırladır.**

**Əntiqə Rəşid**

# "Dünyanın o üzü"ndən gələn səs



**Şəhid Elçin Süleymanova həsr olunmuş kitabın təqdimatı Füzuli rayonu Allahyar Əliyev adına Böyük Bəhmənli kənd 2 nömrəli tam orta məktəbində yüksək səviyyədə keçirildi.**



Azərbaycanın azadlığı və ərazi bütövlüyü yolunda döyüşüb şəhid olan igid oğlanlardan biri də Füzuli rayonunun Böyük Bəhmənli kədində anadan olmuş Elçin Tehran oğlu Süleymanovdur. O, 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ savaşında bir tankçı olaraq, Füzulinin və Cəbrayılın kəndlərinin azad olunmasında böyük igidlik göstərib. Birinci tankı düşmən tərəfindən vurulsa da, ikinci tankla yenidən döyüşə atılıb, yaralı halda olan dostlarını xilas edib və özü isə, qəhəmancasına sentyabrın 30-da şəhid olub. Onun qəhrəmanlığına həsr olunmuş "Dünyanın o üzü" kitabı bir daha təsdiq edir ki, Elçin kimi oğullar heç vaxt ölmürlər. Elə onun şəhadətə qovuşduğu gün - sentyabrın 30-da təhsil aldığı Allahyar Əliyev adına Böyük Bəhmənli kənd 2 nömrəli tam orta məktəbində kitabın təqdimat mərasimi keçirildi. Təqdimat mərasimində dövlət və ictimaiyyət nümayəndələri, şəhid ailələri, qazilər, ziyalılar, Elçinin sinif yoldaşları, silahdaşları və qohumları iştirak edirdilər. Tədbirdə Füzuli Rayon İcra Hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gülbahar Eyvazova, Füzulu təhsil sektorunun müdiri Ramella Məmmədova, Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Hafiz Misirli, Füzuli rayon Ağsaqqallar Şurasının sədri Zülfüqar Əliyev, Böyük Bəhmənli kənd ziyalıları Fazil Məhərrəmov, Əsəd Kazımov, Birinci Qarabağ Müharibəsi iştirakçısı, şair-publisist Asif Talıboğlu, Böyük Bəhmənli kənd 1 nömrəli tam orta məktəbin direktoru Solmaz Qənimətli və bir neçə şəhid ailələrinin nümyəndələri çıxış edərək, Elçin Süleymanovun şəhadətə qovuşması ilə torpaqlarımızın azad olunmasını gündəmə gətirdilər və dedilər ki, əgər bizim bu şəhidlər olmasaydı, torpaqlarımız işğal altında qalardı.





Çıxış edənlər bir firkir də vurğuladı ki, Faiq Qismətoğlunun müəllifi ollduğu "Dünyanın o üzü" kitabı bütün şəhidlərimizə olan böyük sevginin təcəssümüdür.

Allahyar Əliyev adına Böyük Bəhmənli 2 nömrəli tam orta məktəbin direktoru Həsən Rzayev çıxışında bildirdi ki, Elçin Süleymanov kimi şəhidlərimiz öz qanları ilə böyük bir tarix yazıb və bu tarixi biz heç vaxt unutmayacağıq. Üstəlik də, "Dünyanın o üzü" kitabının işıq üzü görməsi şəhid Elçin Süleymanovun ruhunu sevindirir, atasına, anasına və balaca Xalidə qızına bir təsəlli verir.



Tədbirin yüksək səviyyədə keçirilməsində məktəbin direktoru Həsən Rzayevin, şəhid Elçin Süleymanovun sinif yoldaşı Ramil Məmmədovun, məktəbin müəllimi Aynurə Məmmədovanın, Cavid Mirzəliyevin, Miralı Ələkbərovun, Asif Məmmədovun, Oruc İsmayılovun, İsmayıl və aparıcı Fazil qardaşımızın böyük zəhməti olub.

**Tədbirdə şəhid ailəsi adından Hacı Təbriz Süleymanov çıxış edərək, şəhid Elçin Süleymanovun xatirəsini uca tutduqlarına görə tədbir təşkilatçılarına və iştirakçılarına öz təşəkkürünü bildirib. Məktəblərin təşkil etdiyi ədəbi-bədii kompazisiya öz orijinallığı ilə diqqəti cəlb edib və iştirakçıların yaddaşında silinməz iz qoyub. Sonda kitabın müəllifi Faiq Qismətoğlu "Dünyanın o üzü" kitabını tədbir iştirakçılarına payladı. Görüşdən belə bir məntiqi nəticə çıxdı ki, şəhidlər ölməz, Vətən bölünməz!**



**Emil FAİQOĞLU**

# KİŞİ QEYRƏTİ İLƏ SİLAHLANMIŞ ORDUMUZ..

**Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik respublika kimi dövlətçilik tariximizdə öz milli dəyərlərini qazanandan sonra Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarıyla 1918-ci il iyunun 26-Əlahiddə Azərbaycan Korpusunu yaratmışdı. Bu qərar həm də Şərqin ilk demokratik hökumətinin öz ordusunu yaratması üçün bir hüquqi əsas idi. Respublikamızın özünü müdafiəsi üçün nizami ordu və silahlı qüvvələrə ehtiyacı var idi. Şəxsi heyəti 1919-cu ilin sonlarında 25 min nəfər olan Azərbaycan Ordusunun 1920-ci ildə 40 min nəfərə çatdırılması planlaşdırılırdı...**

Lakin Sovetlər imperiyası ölkəmizi işğal edərək hərbi nazirliyi ləğv etdi, buna görə də ordu quruculuğunu başa çatdırmaq mümkün olmadı. Ölkəmiz yenidən dövlət müstəqilliyi əldə etdikdən sonra 1991-ci il oktyabrın 9-da Milli Ordunun yaradılması haqqında Azərbaycan Respublikasının Ali Soveti qanun qəbul etdi. Ulu öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan edildi və bu tarixin hər il rəsmi dövlət bayramı kimi qeyd edilməsinə başlandı.

Ümummilli liderimiz Heydər Əliyevin ciddi səyləri və rəhbərliyi nəticəsində ordu quruculuğu ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan verdi, onun gələcəkdə daha da möhkəmlənməsi üçün güclü zəmin hazırladı. Öz müstəqilliyini qazanmış ölkəmiz hərbi sahədə ciddi böhran yaşayırdı. Nizami ordumuz yox idi, Qarabağ uğrunda gedən savaşlarda vəziyyət nəzarətdən çıxmışdı. Ordunun maddi-texniki təminatında çoxlu problemlər vardı. Get-gedə müharibədəki uğursuz məğlubiyyətlərin qarşısını almaq üçün ölkənin bütün imkanları milli ordu quruculuğuna səfərbər edildi. Hərbi siyasət müəyyənləşdirildi, ordu dövlət qayğısı ilə əhatə olundu,xalqın. dövlətin müdafiə qabiliyyəti artırıldı.

Azərbaycan Respublikasının Prezidenti və Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin tutduğu siyasi xətti uğurla davam etdirməyə başladı. Məhz İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində mühüm yeniliklərə imza atıldı, siyasi və iqtisadi baxımdan davamlı inkişafımız qısa vaxtda Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü ordusuna çevirdi, hərbi potensialımız birə-on artdı. Ən müasir silah-sursat, texnika, avadanlıqla təmin olunan ordumuzun qarşısında müqəddəs bir vəzifə durdu: 30 illik işğala son qoymaq, qəsbkar düşmənə həddini tanıtmaq, doğma yurd-yuvaları-ocaqları düşmən tapdağından azad etmək!!! Günü-gündən döyüş qabiliyyətini artıran Azərbaycan Ordusunun gücünü düşmənlər 2016-cı ilin aprel ayında gördü.

Düşmən ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin minlərlə hektar hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza ilk qələbə sevincini yaşatdı. Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-də törətdiyi növbəti hərbi təxribata cavab olaraq, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin başladığı əks-hücum əməliyyatları nəticəsində Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Şuşa şəhəri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 30-dan artıq kəndi, eləcə də Tərtər və Xocalı rayonlarının bir sıra kəndləri - bütövlükdə, 300-dən çox yaşayış məntəqəsi işğaldan azad edildi. 44 günlük müharibə Azərbaycanın tam Qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Şuşanı bir neçə gün ərzində az itki ilə azad etməsi xalqımıza böyük qürur hissi yaşatdı.Vaxtilə Azərbaycanın xalq şairi Qabilin yazdığı bu şeir ordumuzun rəşadəti ilə səsləşdi: Uzanır danışıqlar, imzalanır sənədlər. Xəritədə aləmə göstərilir sərhədlər.

*Səsimizə səs verir dünya başbilənləri;*
*Ümid sənədir ancaq, Azərbaycan əsgəri!*
*İşğal altında qalır torpağımız-daşımız,*
*Nələr görmür gözümüz, nələr çəkmir başımız.*
*Qarışıb bir-birinə baharımız-qışımız.*
*Çadır göstərmək olub hər çatana peşəmiz*
*Sərgi olmasın deyə bu Mil-Muğan düzləri*
*Ümid sənədir ancaq, Azərbaycan əsgəri!*

Vətən müharibəsi Azərbaycanın tarixi Zəfəri ilə başa çatdı. Ölkənin ərazi bütövlüyü bərpa edildi. Bu tarixi qələbə, ilk növbədə, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin azad iradəsi və rəşadətli Azərbaycan Ordusunun döyüş meydanında sərgilədiyi şücaəti ilə qazanıldı. Azərbaycan xalqı öz əzmini, birliyini, gücünü sübut etdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu 30 illik həsrətə son qoydu. Biz öz əzəli torpaqlarımıza alnıaçıq, üzüağ, zəfər bayrağı ilə qayıtdıq.

2018-ci ildə Azərbaycan Ordusunun 100 illiyinə həsr olunmuş hərbi paradda Prezident İlham Əliyev xalqa müraciət edərək bildirmişdi: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək". Zəfər paradında biz dövlətimizin başçısının xalqa verdiyi bu sözə əməl etdiyini gördük. orpaq həsrətinə son qoyan zəfər bizi Azərbaycan Respublikasının işğal altındakı bütün əraziləri üzərində suverenliyinin bərqərar olunduğu böyük günə çatdırdı

Tarixi yaşayış məskənlərimiz azad edildi. Artıq müstəqil Azərbaycan Respublikasının güclü ordusu, məğrur xalqı və bütün dünyada böyük nüfuzu var. Bu uğurların qazanılmasında Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun misilsiz xidmətləri danılmazdır. İndi hər bir Azərbaycan vətəndaşı onu xarici və digər təhlükələrdən layiqincə hifz edəcək ordunun olmasına tam arxayındır.

**103 yaşlı Azərbaycan Ordusu dövlətin dayağı, xalqın güvənc yeri və qürur mənbəyidir. Son günlər Qarabağda keçirilən lokal antiterror əməliyyatı ordumuzun çevikliryini, rəşadətini və cəsurluğunu dünyaya bir daha sübut etdi.Dağlıq Qarabağ ərazisi düşməndən-separatçı ünsürlərdən tamamilə təmizləndi, qondarma rejim ləğv olundu.. İndi Azərbaycan torpaqları asudə nəfəs alır.Onun səmasından qara buludlar çəkilmişdir.Bu zəfəri bizə yaşadan Ali Baş Komandan İlham Əliyevə və Qüdrətli Ordumuza daima minnətdarıq. Torpağımızın azadlığı ,bütövlüyü uğrunda şəhid olan oğullarımızın ruhu şad olsun.**

**Gülnarə Allahverdiyeva**
**ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji kollecinin müəllimi**

# Ermənilər niyə təəccüblənir? - Qərbi Azərbaycanlılar da, 8 anklav da geri qayıtmalıdır də!

**Hamımıza, o cünlədən dünyaya da aydındır ki, ermənilərin yurdumuzda gəlmə olduqlarını bildiklərindən yaranmış kompleksdən, beyinlərini gəmirən ədavət, kin, paxıllıq hissləri ruhlarında özünə əbədi məskən salıb. Bu hal heç vaxt dəyişməyəcək!**

1828-ci ildən bu günə qədər rusların əli ilə Qafqaza, oradanda Qarabağa köçürülən ermənilərin əməlləri buna sübutdur. Əllərinə fürsət düşdükcə İşğalçılıq, faciə, soyqırım, deportasiya kimi insanlığa yaraşmayan əməllər həyata keçirməsi Azərbaycan və azərbaycanlılar üçün təəccüblü hal deyil.

Bilirsiniz ki, 1988-1989-cu illərdə Qərbi Azərbaycanda (Ermənistan) azərbaycanlı işçilər iş yerlərinə, uşaqları isə məktəbə buraxılmır, dükan-bazarda azərbaycanlılara ərzaq və sairə satılmır, azərbaycanlıların işığı, telefonu, suyu, qazı kəsilir, onların həyat şəraiti dözülməz vəziyyətə gətirilirdi. Bu, əsl mənəvi, psixoloyi terror idi ki, tez-tez fiziki terrorla da əvəz olunurdu.

Çox vaxt ermənilər azərbaycanlı evlərinə əvvəlcə cüzi qiymət qoyur, sonra hədə-qorxu gəlir, bir şey çıxmayanda evəşiyini dağıdır, od vurub yandırırdılar. Beləcə rayonların azərbaycanlı kənd və məhəllələri ev-ev boşaldılır, erməniləşdirilirdi. Xüsusilə ermənilərin qat-qat çoxluq təşkil etdiyi kəndlərdə azərbaycanlıların vəziyyəti dözülməz idi.

Adamlar səhərə qədər bel, yaba, balta və s. ilə silahlanır, tonqal yandırıb küçələrdə keşik çəkirdilər. Lakin noyabrın sonlarında ermənilər bütün Ermənistan üzrə azərbaycanlı kəndlərinin üzərinə qəti hücuma keçdilər. Bir həftənin içərisində bütün azərbaycanlı kəndləri boşaldıldı, mal-mülkləri əllərindən alındı, ələ keçənlər qətlə yetirildilər.

Azərbaycanlılar ayaqyalın, başıaçıq, qışın şaxtasında, qarında dağlara, meşələrə üz tutdular. Ölən öldü, donan dondu, ürəyi partlayanlar, ağlını itirənlər oldu

Bu, heç bir insanlıq qanununa sığmayan bir müsibət idi. Bu, tarix boyu qul olaraq yaşamış ermənilərin bütün insanlıqdan intiqam alması idi. Rəsmi məlumatlara görə, 1988-ci ildə Qərbi Azərbaycan ərazisində 261 azərbaycanlı kənd və qəsəbəsi boşaldılıb ki, onlardan da xalis azərbaycanlılar yaşayan kənd və qəsəbələrin sayı 172-si, azərbaycanlılarla başqa millətlərin yanaşı yaşadığı qarışıq kənd və qəsəbələrin sayı isə 89-dur.

Bundan başqa daha 6 şəhərdə digər millətlərlə yanaşı, azərbaycanlılar da yaşamışlar. Bu yaşayış məntəqələrində isə soydaşlarımızın sayı 49 min 928 ailədə 250 min nəfər olub. Bu yaşayış məntəqələrinin adı və bu məntəqələrin demoqrafik göstəriciləri indiyə kimi heç bir mənbədə tam şəkildə verilməyib.





Həmçinin 1988-1989-cu illər soyqırımı zamanı Qərbi Azərbaycanda mövcud məlumatlara görə, 226 soydaşımız ermənilər tərəfindən öldürülüb, (güllələnib, qəsdən avtomobil qəzasına salınıb, dağ yollarında donub və s.) 400 nəfərdən çox adam bədən xəsarəti alıb. Bu da həmin illərdə ermənilər tərəfindən öldürülmüş və yaralanmış soydaşlarımızın tam siyahısı deyil. Əsas qaçqınlıq dövrü 1988-ci ilin noyabr-dekabr aylarına təsadüf etdiyindən soydaşlarımızın kolxozlarda olan illik əmək haqları da ermənilərə qalmış, bir çoxları dövlət banklarında olan əmanətlərini götürə bilməmiş, məcbur olub öz geniş bağ-bağçalarını, xüsusi evlərini Azərbaycanda dövlət binasında yaşayan ermənilərin 2-3 otaqlı mənzilləri ilə dəyişməli olmuşlar. Soydaşlarımızın fərdi təsərrüfatlarındakı əmlak da bütünlüklə ermənilər tərəfindən əvəzi ödənilmədən mənimsənilib. Qaçqın soydaşlarımıza məxsus bu əmlakın dəyəri Azərbaycan Qaçqınlar Cəmiyyətində torlanmış sənədlər əsasında təxmini hesablanaraq müəyyən olunub ki, təxminən ziyan 2,5 milyard ABŞ dolları təşkil edir. Kolxozlarda azərbaycanlılara məxsus olan 43789 baş iribuynuzlu, 454 660 baş xırda buynuzlu mal-qara, çoxsaylı ev quşları, arı ailələri, 170 mədəniyyət evi, 274 məktəb binası, 119 kitabxana, uşaq bağçaları, həkim məntəqələri, məscid binaları, 1381 yardımçı təsərrüfat tikintiləri, 2169 avtomaşın, 1976 traktor, 3132 kənd təsərrüfat texnikası, minlərlə hektar üzüm və meyvə bağları ermənilərə qaldı. Bunların hamısının dəyəri təxmini hesablamalarla 17,5 milyard ABŞ dolları təşkil edir.

Qaçqınlara dəyən ümumi maddi ziyan 20 milyard ABŞ dolları təşkil edir.

1988-ci ilə kimi qərbi Azərbaycandakı 261 azərbaycanlı yaşayış məntəqəsinin 500-ə yaxın qəbristanlığı (bu kəndlərin böyük əksəriyyəti qədim yaşayış məskənləri olduğundan onlarda yeni qəbristanlıqlarla yanaşı çox vaxt iki, üç, hətta 4-5 köhnə və qədim qəbristanlıq vardı) erməni tapdağı altında qaldı və həmin qəbristanlıqların əksəriyyəti yer üzündən silinib. Bəzilərinin yerində rark salınıb, bəzilərinin ərazisi şumlanaraq əkin sahəsinə çevrilib. Qədim Urud qəbristanlığının izini itirmək üçün üzərinə 2 metr hündürlüyündə torpaq verilib, həmin ərazi illər ötdükcə kol-kos sahəsinə çevrilib..."

Bəs təəccüb etdiyimiz nədir? Erməni jurnalist Davit Sərkisyanın sosial şəbəkə hesabında həyəcanla dediyi kəlimələr! "168 saat" saytının müxbiriSarkisyan deyib ki, on minlərlə azərbaycanlı Ermənistanda ( Qərbi Azərbaycanda -red Ə.R) yerləşdiriləcək: "Bir neçə aydan sonra on minlərlə azərbaycanlını Ermənistanda görməyə hazır olun. Hazırda azərbaycanlıların ölkəmizdə məskunlaşması ilə bağlı danışıqlar aparılır"

Daha sonra jurnalist anklavların geri qaytarılmasına da aydınlıq gətirib: "Anklavların təhvil verilməsi ilə ölkə üç hissəyə bölünəcək, bir-biri ilə ünsiyyət kəsiləcək və ya ciddi çətinləşəcək. Ordunun azaldılması və silahsızlaşdırılması, təhsil sisteminin yenidən baxılması, faktiki aradan qaldırılması, Diasporla kommunikasiyaların tamamilə dayandırılması ilə bağlı son tələblər də var.

Beləcə Ermənistanın mövcudluğu təhlükə altındadır".

Hə, gələk bizi "təəccübləndirəcək " nüansa. Biz Azərbaycan olaraq, 1988-89-cu illərdə Ermənistan ərazisindən məcburən didərgin salınan azərbaycanlıları geri qaytaracağıq, o yurd onlarındır.

İkinci məsələ :Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Qazaxın 7 yaşayış məntəqəsi - Sofulu, Barxudarlı, Bağanis Ayrım, Qızıl Hacılı, Yuxarı Əskipara, Aşağı Əskipara və Xeyrlimli kəndləri Azərbaycanın Ermənistan ərazisindəki anklavlarıdır .Bildirək ki, həmin kəndlər SSRİ dövründə aparılan qeyri-qanuni delimitasiya işləri zamanı Azərbaycanın əsas hissəsindən ayrı salınıb. Həmin 7 kənd 1990-92-ci illərdə Ermənistan ordusu tərəfindən işğal edilib.

**Bax indi məni və bütün azərbaycanlıları təəccübləndirən, erməni jurnalist Davit Sarkisyanın simasında bütün ermənilərin təəccübü və heyrətidir.**

***P.S.* *Elə təəccüblənirlər, elə bil olmayan bir şey deyirik!***

**Əntiqə Rəşid**

## "Bu terror dalğasında İran günahkardır"

**İordan çayının qərb sahilində israillilərə qarşı hücum dalğasında günahkar İrandır. Bunu İsrailin Baş naziri Benyamin Netanyahu deyib.**

"İran Yəhudeya və Samariyada (İordan çayının qərb sahili üçün İsrail terminidir - red.) terror dalğasına və vətəndaşlarımızın öldürülməsi üçün əməliyyatların təşviqinə, maliyyələşdirilməsinə görə birbaşa məsuliyyət daşıyır. İsrail hökuməti terrorizmlə şiddətli mübarizə aparacaq və İsrail vətəndaşlarını qoruyacaq", - o bildirib.

## ÜZRXAHLIQ

**Şəhid Elçin Tehran oğlu Süleymanovun qəhrəmanlığına həsr olunmuş "Dünyanın o üzü" kitabında texniki səhv üzündən şəhid Mobil Balaca oğlu Kazımovun adı getməyib. Bu texniki səhvə görə şəhidin ailəsindən və Əsəd müəllimdən üzr istəyirik.**

**Faiq Qismətoğlu**

## Əlif Hacıyevin bacısı: "Qalan ömrümü Xocalıda yaşamaq istəyirəm..."

**"Biz Xocalıya qayıtmağa hazırıq. Ən böyük arzumuz elə bu olub. Çox şadam ki, Xocalı, Xankəndi və işğalda olan bütün torpaqlarımız azad edilib. Şəhidlərimizin hamısının ruhu şad olsun. İndi bilirəm ki, şəhid qardaşlarım Əlif və Süleymanın ruhu necə şaddır"**



Bunu Adalet.az-a açıqlamasında Milli Qəhrəman Əlif Hacıyevin bacısı Şükufə xanım deyib. Şükufə xanım Xocalıya qayıtmağımızla bağlı əməkdaşımızla söhbəti zamanı ağlayıb: "Bütün şəhidlərimizin ruhu qarşısına baş əyirəm. Qazilərimizə təşəkkür edirəm. Ali Komandanımıza çox sağ ol deyirəm. Dünya lideri olan belə bir sərkərdə yer üzünə gəlməyib və gəlməyəcək də. Allah ona can sağlığı versin, başımızın üstündən əskik etməsin. Çox şadıq.

1992-ci il fevralın 26-da Xocalı aeroportunun ermənilər tərəfindən işğal edildiyi xəbərini eşidəndə çox ağlamışdım. İndi orda üçrəngli bayrağımızın dalğalandığını eşidəndə sevincimdən ağladım. Allah bu günü bizə qismət elədi. Elə biləm ki, heç qardaşım Süleyman şəhid olmayıb, yaşayır. Onun balaları necə sevinirdi. Zəng vurub deyirdilər ki, "bibi, gözümüz aydın". Allah bütün oğullarımıza can sağlığı versin. Az yaşım yoxdur, amma nə ömrüm varsa, öz torpağımda yaşamaq istəyirəm. Allah sizlərə dəyməsin".

**Vasif Əlihüseyn**

**Son zamanlar müzakirə olunan məsələlərdən biri də yeni model smart telefonların satışı zamanı yaranan izdihamlardır. Cəmiyyəti belə görmək bir çox ziyalıları təəssüfləndirdi. Bu izdihamın yaranması nədən qaynaqlanır? İstənilən dərslik üçün, hər hansı bir tarixi məkan üçün v.s kimi faydalı yer və işlər üçün niyə bu izdihamıı görmürük? Təbii ki, yaranan suallara biganə yanaşa bilmədik. Çünki mövzu gələcəyimiz olan gənclərin maraqlarıdır.**

Mövzu ilə bağlı Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təsisçisi, Prezident təqaüdcüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilov Adalet.az-a danışıb:

## *Kulturoloq:* "Belə insanlar psixoloji problemləri olan insanlardır"



Onun sözlərinə görə,bu kimi hallar inkişafa gec başlamış ölkələrdə daha çox baş verir: "Yeni texnologiyaların düşkünü olmaq artıq XXI əsrin psixoloji- sosial "dəbinə" çevrilib. Bu, təkcə Azərbaycanda deyil, bir çox ölkələrdə də özünü göstərir. Amma təəssüflər olsun ki, bu kimi hallar inkişaf etmiş ölkələrdə yox, avropa ölkələrində yox, məhz bizim kimi bir qədər inkişafa gec başlamış cəmiyyətlərdə daha çox baş verir. Bəli, ABŞ-da da var. Ancaq orada heç bir milyoner, heç bir varlı, heç bir ziyalı, tanınmış adam gecələr gedib İphone və ya brend marka geyimlər və müasir İKT-nin bizə sırıdığı cihazlar üçün növbəyə dayanmazlar. Yuxusuz gecələr keçirməzlər, bir- birlərinin saçını yolmazlar. Razıyam, onlarda endirim aksiyaları olanda insanlar çoxlu texnika əldə etmək üçün gedib, basa-bas salırlar. Ancaq Bakıda 4000-5000 manat aralığında satılan və əslində "İphone 13"ün sadəcə biraz dəyişdirilmiş variantı olan "İphone 15" markalı smartfon üçün bu qədər düşük hərəkətlər etmək, "mənim iphonem olsun" düşüncəsi ilə gecə mağazanın önündə növbədə dayanmaq normal insanların işi deyil. Həmin insanlar həm sosial cəhətdən, həm də ümumən həyatda psixoloji problemləri olan insanlardır. Kulturoloq bildirib ki, 50000 manata ipotekaya ev götürülərsə, həmin pulla ipotekanın 10%-ni ödəmək mümkündürsə, yaxud da avtomobil alıb, taksi kimi fəaliyyət göstərmək olarsa, eyni qiymətdən dəfələrlə aşağı olan, lakin həmin funksiyaları yerinə yetirən smartfon almaq olarsa,bu qədər canfəşanlıqla özünü "şəhid" etməyin mənası varmı?

Əvvəllər bəhanə gətirirdilər ki, ölkəmizdə üç mobil telefon rabitəsi xidmət göstərən şirkət var. Bunlar arasındakı qiymət fərqinə görə iki telefon istifadə edirdilər. Daha sonra bunu nəzərə alaraq böyük şirkətlər 2: 3, hətta 4 nömrəli smartfonlar istehsal etdilər. Ancaq dəyişən heç nə yoxdur. "Mənim iki telefonum var, mən xüsusiyəm, mən sizdən fərqliyəm" düşüncəsi ilə 4 nömrəli telefonla gəzdirən insanlar var. Baxırsan ki, həmin insan ya fəhlə işləyir, ya orta təbəqənin nümayəndəsidir, yaxud da valideyn hesabına yaşayan gənclərdir. "Qonşudan dala qalma" prinspi ilə çıxış edən digər gənclərimiz də bu mənasız yarışmanın dalınca düşürlər. Fikirləşmirlər ki, həmin smartfonları istehsal edən şirkətlərin günahına görə dünyada hərarət qalxır. Çünki hər hansı bir smartfonu istehsal eləmək üçün minlərlə prosses gedir. Min tonlarla sular istifadə olunur, enerji istifadə olunur, onun daşınma xərcləri, xidmət, təmir v.s .

Biz hər birmiz təzə geyimlər, smartfonlar alanda düşünməliyik ki, palnetdə tullantıların sayını artırırıq. Havanı zəhərləyirik, dünyamızı zəhərləyirik. Gələcək nəsillər üçün bu planeti xarabalığa çeviririk. Bir çox ölkələrdə buna qarşı etirazlar var. Hətta Avropa komissiyası "Apple"ni məcbur etdi ki, enerjiyığma yuvacığını belə dünyada qəbul olunmuş sürtəli enerji yığan yuvacığa dəyişsin. Çünki bununla bağlı problem yaranırdı. Amerika, Avropa, Rusiya , MDB ölkələrinin hətta gərginliyi də eyni deyil. Bu da külli miqdarda aksesuarların istehsalı və yenə də planetin çirklənməsi ilə nəticələnir.

Aydın Xan Əbilov qeyd edib ki, Azərbaycanda biz heç vaxt muzeylərin, teatrların, kino-teatrların və yaxud görməli yerlərin ətrafında belə qalmaqallı növbələr görə bilmərik. Bu mümkün deyil. Heç vaxt görməzsiniz ki, il ərzində hər hansı bir azərbaycanlı ailəsi öz büdcələrinin bir hissəsini təbiətdə istirahətə sərf etsin. Amma övlad valideyni məcbur edir ki, bahalı telefon alınsın, maşın alınsın. Hərəkətsizlik, radiasiya insanları məhv edir. Sizin bədəniniz bu radiasiyalar vasitəsiylə öldürülür. Bütün günü evdə vvifi, telefonlar, elektrik avadanlıqları işləyir. Bunların hər birinin radiasiya fonunu üst-üstə gəlsək bunların hamısı bizim beynimizi, bədənimizi məhv edir. Ona görədə Azərbaycanda dünyanın heç bir yerində olmayacaq qədər xəstəliklər artır. Bizim ölkədə xərçəng xəstəliyi, ürək-damar sistemi və sinirlərlə bağlı həddindən artıq çoxlu sayda xəstələr var.

İndiki dövrümüzdə doğulan uşaqların əksəriyyəti xəstə atanın dünyaya gətirdiyi uşaqlardır. Onların da çox əlil olurlar. Bu da böyük problem deməkdir.

Smartfonlara hədsiz maraq göstərmək bir çox ailələrin dağılmasına səbəb olur. Ərindən yeni smartfon tələb edən arvad onu ya oğurluğa, ya rüşvətə, ya da qeyri-qanuni əməllərə sövq edir, yaxud da ailə dağılır. Bunun da əziyyətini cəmiyyət çəkir, dövlət çəkir, uşaqlar çəkir. Bir az ayılmaq gərəkdir. Sizi iphone ilə qarşılaya bilərlər. Amma beyninizin məhsulunu ortaya qoyanda( danışanda) sizin savadsız, etikasız, estetikasız, heç bir dünya görüşü olmayan şəxs olduğunuzu görəcəklər. Artıq bir yox, 4-5 iphone ilə gəzsəniz də heç kəs sizə dəyər verməyəcək. Əksinə, siz həmin telefondakı proqram tətbiqlərinin birini və ya həmin smartfona bənzər bir cihaz yaratsanız dünyada məşhur simaya çevriləcəksiniz. Məhz bu düşüncə tərzi ilə yaşasanız daha çox uğur əldə edərsiniz."

**Əntiqə Kərimzadə**



Əbülfət MƏDƏTOĞLU

# UNUDULMAZ İLYAS ƏFƏNDİYEV

***Bu gün xalq yazıçısı, Böyük SÖZÜN, Böyük DRAMATURGİYAMIZIN unudulmaz və əbədiyaşar YARADICILARINDAN biri olan İlyas Əfəndiyevin öz oxucularından, sevənlərindən və Azərbaycanından cismən ayrılığının 27 ili tamam olur! İlyas müəllim məhz bu payız günü 1996-cı ildə cismən CƏNNƏTƏ KÖÇDÜ! Ruhuna salamlar olsun!***

*Hərdən fikirləşirəm ki, qələm adamları, xüsusilə BÖYÜK SÖZÜN BÖYÜK CƏFAKEŞLƏRİ xalqına, elə sözün özünə xidmət etmək yükünü çiyinlərinə götürməsəydilər həyatımız necə də bomboz, mənasız olardı. Axı insan həyatını mənalandıran təkcə ətraf mühit, təbii mənzərə və yaxud tikilən binalar, çəkilən yollar, salınan körpülər və digərləri deyil. Mənim düşüncəmə görə, insan ömrünün ən mənalı məqamı sözlə baş-başa qalması, sözdən qidalanması, sözdən yararlanması hallarıdı. Yəni elm, ədəbiyyat, incəsənət özünü ifadə etdiyi sözdə, fikirdə insan ömrünü şərəfləndirir, hətta qidalandırır da.*

*Bax, bu mənada düşünən insanın həyatının bir parçasına çevrilən böyük söz istənilən yerdə, istənilən məqamda köməkçiyə də, məsləhətçiyə də, hətta ümidə də çevrilə bilir. İnsanın formalaşıb yolunu, məramını müəyyənləşdirməsində köməkçi olur, onun ideyalarını cilalayır, yoluna işıq salır.*

*Mən həyatda böyük söz yaradan insanların bir neçəsi ilə yaxından, uzaqdan təmas qura bilmişəm. Onların arasında xalq şairləri Bəxtiyar Vahabzadə, Məmməd Araz, Süleyman Rüstəm, Xəlil Rza, Qabil, xalq yazıçısı Bayram Bayramov, İlyas Əfəndiyev və eləcə də bu gün əsərlərini maraqla oxuduğum bir çox qələm adamları ilə olan şəxsi tanışlığım həyatımın ən önəmli anları, ayları, illəridi. Çox qəribədi ki, şəxsən tanıdığım bu söz adamları içərisində xalq yazıçısı İlyas Əfəndiyevlə Akademik Milli Dram Teatrında qarşılaşmışam. Və ilk dəfə onu lap yaxından, üzbəüz "Unuda bilmirəm" tamaşasının premyerası zamanı əyləşdiyi lojanın arxasından görmüşəm. Beləcə, ilk dəfə yaxından gördüyüm İlyas Əfəndiyevi isə lap çox-çox əvvəl, hələ Tuğ kənd orta məktəbində oxuduğum illərdə mütaliə edib, sevib, yaradıcılığından zövq almışam.*



*İndi xatirələrə üz tutanda orta məktəb illərində xüsusi çəkisi olan məktəb və kənd kitabxanasının dəyərini heç nə ilə dəyərləndirə bilmirəm. Çünki bu kitabxanaların zəngin və rəngarəng müəllif mühiti məni hər gün özünə çəkirdi və az qala hər gün yeni bir kitabı oxuyub başa vurmağa çalışırdım. Özü də təkcə özüm oxumurdum, həm də bu kitablar mənim sinif yoldaşlarımla olan bir səmimi yarışmamızın obyektinə çevrilmişdi. Hamımız daha çox oxumaq və oxuduqlarımızı da müzakirə etmək üçün yazılmamış bir yarışın iştirakçısına çevrilmişdik. Oxuduğumuz əsərlərin qəhrəmanları dilimizin əzbəri, müəllifləri isə bizim sevimli məsləhətçilərimiz, həyatımıza işıq salan insanlar idi. Bu sırada İlyas Əfəndiyev və onun əsərləri birinci yerlərin şəriksiz sahibi idi. Çünki həyatımızın kəndlə bağlı ən gözəl çağlarını özündə əks etdirən "Kənddən məktublar" və "Aydınlıq gecələr" kitabları bizə kəndi yenidən sevdirir, yenidən tanıdırdı. Burada oxuduğum "Apardı sellər Saranı" hekayəsi mənə yaşlıların dilindən eşitdiyim qədim bir rəvayətin çox orijinal, şirin və yaddaqalan, həm də inandırıcı bir təqdimatı idi. Mən bu əsəri oxuyarkən yaşımın az olmasına baxmayaraq, həmin o əfsanə ilə, müəllifi çox böyük yazıçımız olan İlyas Əfəndyevin "Apardı sellər Saranı" əsərini müqayisə etməyə, hətta sərbəst inşa yazısında onun müəyyən detallarından istifadə etməyə çalışmışdım.*

*Orta məktəbin yuxarı siniflərində ən çox oxuduğumuz və böyük həvəslə müzakirə etdiyimiz ədəbiyyat müəllimimizin təşəbbüsü ilə məktəbdə yaradıcılıq gecəsini keçirdiyimiz İlyas Əfəndiyevin "Körpüsalanlar" və "Söyüdlü arx" romanları sözün bütün mənalarında bizi öz aurasına alan bir gerçək mühit idi. Elə bir mühit ki, biz ondan qidalanırdıq, ondan öyrənirdik. Hətta bəzilərimiz bu əsərlərin qəhrəmanlarını özümüzə ideal da seçmişdik. Oxuyub hafizəmizə köçürdüyümüz, yaddaşımızda yaşatdığımız "Dağlar arxasında üç dost" romanı da məhz bizim gənclik illərimizin sevilən əsərlərindən idi.*

*Həyatımın kitabla, bədii ədəbiyatla bağlı dönəminin ikinci mərhələsində İlyas Əfəndiyevin "Sarıköynəklə Valehin nağılı", "Geriyə baxma, qoca", "Üçatılan", "Xan çinar" romanları xüsusi yer tutur. Birmənalı deyə bilərəm ki, "Geriyə baxma, qoca", "Üçatılan" romanları təkcə mənim deyil, hətta evdə kitaba marağı olan yaşlı atamın və digər ağsaqqalların da diqqətini çəkmişdi. Çünki onlar bu əsərlərdə adları keçən bir çox insanların həyatda mövcud olduğunu söyləməklə müəyyən faktların da həqiqətə söykəndiyini, yəni əsərin başdan-başa bədii təxəyyülün məhsulu olmadığını, əksinə, xalq yazıçısı İlyas Əfəndiyevin həyat gerçəkliyini, faktları öz ustad qələmi ilə böyük sözün zirvəsinə qaldıra bildiyini görməklə bununla fəxr edirdilər və bildirirdilər ki, bax, əsl yazıçı belə olar. Yəni həyatda gördüyünü həyatda yaşayanlara öz şirin və bədii təfəkkürünün dili ilə yenidən, özü də tamam fərqli bir formada çatdıra bilər.*

*Doğrudan da bədii söz ürəyə yol tapanda ömrü uzanır, illərə, qərinələrə calanır. Mən Azərbaycan dramaturgiyasında öz erası olan İlyas Əfəndiyevin təkcə əsərlərinin siyahısını gözdən keçirəndə istər-istəməz içimdəki bir inamı yenidən yaşayır və yenidən dilə gətirirəm. Mən inanıram ki, nə qədər Azərbaycan teatrı, Azərbaycan səhnəsi var, İlyas Əfəndiyevin əsərləri də olacaq, yaşayacaq, tamaşaçıları öz ətrafına yığacaq və beləcə İlyas Əfəndiyevi də yaşadacaqdı. Bir anlıq "Unuda bilmirəm", "Mahnı dağlarda qaldı", "Qəribə oğlan", "Büllur sarayda", "Hökmdar və qızı", "Sən həmişə mənimləsən", "Xurşid Banu Natəvan", "Şeyx Xiyabani", "Sevgililərin cəhənnəmdə vüsalı", "Atayevlər ailəsi" və digər əsərləri göz önünə gətirib o illərə, o əsərlərin səhnəyə qədəm qoyduğu zamana qayıdıram. Özümdən asılı olmayaraq, İlyas Əfəndiyevin əsərlərinə səhnə həyatı bəxş edən Azərbaycanın ünlü sənət adamlarını, aktyorları, rejissorları xatırlayıram. Həmin əsərlərdə səslənən musiqiləri sanki dinləyirəm. O əsərlərin təkcə tamaşaçısına yox, həm də iştirakçısına çevrilirəm. Bu isə böyük yazıçının öz qələminin gücü ilə oxucusunun yaşatmaq və yaşamaq inancını gücləndirməsi, qüvvətləndirməsi və bəzən də bu hissi ona çox rahat, könül xoşluğu ilə bağışlamasının nümunəsidi. Belə ki, İlyas Əfəndiyev hər bir əsərində hər bir qəhrəmanının timsalında oxucusunu görür, duyur, qiymətləndirir, yaşadır. Onun əsərləri təkcə kitab rəflərini bəzəmir, həm də ürəklərdə özü üçün ayrıca bir guşə yaradıb. Bu guşənin gülüstan olması artıq öz hökmünü tapıb, öz təsdiqini gerçəkləşdirib. Belə ki, Azərbaycan adlı məmləktin bütün coğrafiyasını, tarixini, əxlaqını, mənəviyyatını, adət-ənənəsini, bütövlükdə varlığını özündə əks etdirən bu əsərlər artıq bütün Azərbaycanın mülkiyyətinə, sərvətinə, varidatına çevrilib.*

*Deməli, bu milliləşmə, bu bəşəriləşmə və bütövlükdə əsərlərin sevilib ürəklərdə, könüllərdə özünü yaşatması Tanrının İlyas Əfəndiyevə böyük sevgisi ilə yanaşı, İlyas Əfəndiyevin də xalqına, xalqının da ona güvəncinin həyat gerçəkliyidi. Bu gerçəklik isə İlyas Əfəndiyevi dünən yaşatdığı kimi bu gün də yaşadır, sabah da yaşadacaq. Biz ondan yalnız cismən ayrılmışıq.*



# Məmməd Araz yaradıcılığında Səməd Vurğun obrazı



Ramiz Göyüş
Yazıçı - publisist

**Məmməd Arazı düşünərkən həmişə xəyalımda şaxlı-buqdaqlı bir Çinar ağacı canlanır. Bu assosiasiya bəlkə də onun ömürlük yaddaşıma hopmuş aşağıdakı misralardan qaynaqlanır:**

***Mən Arazda şaxələnən cinardım***
***Ömrü boyu tufan əydim, su yardım.***
***Xətainin qılıncını suvardım***
***Məmməd Araz karandaşı göyərdi***

Xalq şairi Məmməd Araz Azərbaycan Xalqının ötən əsrin 50-ci illərində yeitrdiyi və xalqımıza bəxş etdiyi azman poeziya bahadırlarından biridir.

Məmməd Araz poeziyası xalqın haqq hayqıran səsinin poetik ifadəsi və ya onun poeziyası xalqın haqq hayqıran səsidir. Onun yaradıcılığı çoxşaxəli və rəngarəngdir.

Məmməd Araz yaradıcılığında qələm yoldaşlarına həsr etdiyi məqalələr, onların yaradıcılığı haqqında çoxsaylı yazıları, ithaf şeirləri vardır. Onun klassiklərimizə - Nizamidən üzü bəri Fizuliyə, Nəsimiyə, Sabirə, müasirləri Rəsul Rzaya, Hüseyn Arifə, Tofiq Bayrama və başqalarına - yazıçılara, ziyalılara, müxtəlif sənət adamlarına ünvanlanmış və həsr olunmuş, məqalələri, təbrik məktubları və ithaf şeirləri vardır. Onlar arasında Səməd Vurğun obrazı ayrıca yer tutur. Səməd Vurğun Məmməd Araz yaradıcılığında simvollaşmış obrazdır. O, Səməd Vurğuna xeyli sayda şeirlər və bir poema həsr etmişdir. Məqalələrində, yazılarında dəfələrlə söz açmış, onun haqqında xatirələr yazmış, müsahibələrində Səməd Vurğundan sitatlar gətirmiş, aforizmlərindən, şeirlərindən, çıxışlarından, xeyirxahlığından, səxavətindən misallar gətirərək böyük şairə, həm bir şair kimi, həm də bir ziyalı, vətənpərvər, xalqına və vətəninə vurğun bir vətəndaş kimi nümunələr gətirmişdir. Məmməd Araz özünü Səməd Vurğun məktəbinin nümayəndəsi hesab edirdi və bir vətəndaş kimi, bir şair kimi formalaşmasında Səməd Vurğun şəxsiyyəti və yaradıcılığının mühüm rol oynadığını dəfələrlə qürurla etiraf etmişdi.

Şairin poeziya düşüncələrində başqa klassiklərimizlə yanaşı Səməd Vurğunun da adı qızıl həriflərlə keçir. Məmməd Araz deyirdi:" Vətənin cazibəsində yaşayan, Vətəni cazibəsində yaşadan poeziya da var, sənət də var. Vətən sənətin -poeziya sənətinin əbədi beşiyi, əbədi ağsaqqal obrazı, əbədi qəhrəmanı, əbədi ağ yolu, Qalaktikasıdır. Vətən sərhəddinin əbədi keşikçisi-ayıq-sayıq əsgərinin biri də poeziyadır. Elə poeziya özü də Vətəndir. Mənim Vətənimsən Nizami müdrikliyi Füzuli yanğısı, Sabir fırtınası, Vurğun əqidəsi".

Bəs Məmməd Arazda Səməd Vurğuna olan bu böyük məhəbbət nədən və hardan qaynaqlanırdı?

Öz varlığı, qeyri-adi istedadı, zəkası, dünyagörüşü, yüksək intillekti, ünsiyyətcilliyi, xeyirxahlığı, cəsarəti, mərdliyi, səxavəti, himayədarlığı və saymadığım neçə yüksək mənəvi keyfiyyətləri və xarakteri ilə hamıdan seçilən, elə bu keyfiyyətləri ilə də mənsub olduğu xalaqa hörmət, nüfuz və şöhrət gətirən, o zamankı Sovetlər İttifaqınının ən görkəmli sənətkarları arasında böyük nüfuz və hörmət sahibi olan Səməd Vurğunun bu keyfiyyətləri və şöhrəti yenicə ədəbiyyata gəlmiş, ürəyi sözlə dolu Məmməd Arazın diqqətindən kənarda qala bilməzdi. Səməd Vurğun az-az sənətkarlardan idi ki, hələ sağlığında əfsanələşmiş, xalqın sıravi fəhləsindən, kəndlisindək, ziyalısınadək insanların qəlbinə nüfuz etmişdi.

Böyük şair, elə uşaqlıq və yeniyetmə çağlarından Məmməd Arazın da iç dünyasına hakim kəsilmişdi, oxuduğu Səməd Vurğunun "Dilican dərəsi" şeiri gənc Məmmədi vəcdə gətirmişdi: " Məlum fikirdir ki, insan ürəyində ən böyük çevrilişlər heyrətdən yaranır. Uşaq da dünyanı heyrətlənə-heyrətlənə dərk edir. Sevgi gözəlliyə heyrətdən yaranır. Təbiət heyrətli işlərlə doludur, amma mənim üçün ən böyük heyrət sənət heyrətidir. Şeirə uşaqlıqdan marağım böyük olub. Bircə dəfə oxumuşam yadımda qalıb. Sabirin uşaq şerlərini sevmişəm. Lakin bu sevgidən qələm almamışam. S.Vurğunun "Dilican dərəsi" şerindən heyrətlənib ilk yazını yazanda isə doqquzuncu sinifdə oxuyurdum".

Blkə də Məmməd Arazın təhtəlşüurund qalmış həmin şeirin havası altında indi dillər əzbəri olan "Əlvida, dağlar" şeiri yaranmşıdı və necə Səməd Vurğunun şeiri Məmməd Arazı vəcdə gətirib əlinə qələm alamağa sövq etmişdisə, Məmməd Araz da bu şeiri də çoxlarını vəcdə gətirərək şeir yazmağa sövq etmişdi:

***Bəlkə bu yerlərə bir də gəlmədim,***
***Duman salamat qal, dağ, salamat qal.***
***Dalımca su səpir yoxsa buludlar?-***
***Leysan salamat qal, yağ, salamat qal...***

Səməd Vurğunu özününü sənət müəllimi hesab edən Məmməd Araz 1950-ci illərin əvvələrində Pedaqoji İnstitutda oxuduğu illərdə Səməd Vurğunla təmasları onda, böyük şairə qarış sevgi və məhəbbətini daha qabarıq büruzə verir. Məmməd Araz Səməd Vurğunun şəxsində, həm yaraddcılıq baxımından, həm şəxsiyyət, həm davranış baxımından ümumiləşdirilmiş şair obrazı görürdü. Elə özünə də o tələbkarlıqla yanaşırdı.

Məmməd Arazın xatirələrindən belə aydın olur ki, O, Səməd Vurğunla birbaşa yaxın təmasda olmamış, yalnız müxtəlif ədəbi tədbirlərdə, görüşlərdə, şeir gecələrində, Yazıçılar İttifaqının iclaslarında yaxından görmüş ,onun söhbətlərini , çıxışlarını dinləmişdir. Həmin görüşlərdə O, Səməd Vurğunu belə xatırlayır: "Səməd Vurğunu çox yaxşı xatırlayıram. Lap elə bil dünən görmüşəm. 1950-ci ildən 55-in axırlarına - yatağa düşənə qədər dəfələrlə şeir gecələrində, digər məclislərdə, xüsusi ilə, o zaman Natəvan Klubunda çox qaynar keçən yığıncaqlarda... onu yaxından görmüşəm, çıxış və məruzələrini dinləmişəm. O qədər qeyri-adi, nüfuzedici, "qara, işıqla dolu" mənalı gözləri var idi ki. Güclü məntiqi vardı. Saatlarla danışsa belə, yəqin bir cümləsi dolaşmaz, bir sözü topuq vurmazdı..!"

Beləcə gənc şair Məmməd Arazı Səməd Vurğun şəxsiyyətinin, poeziyasının sehri özünə necə cəlb etdisə, məşhur "Mən tələsmirəm" şeirinin təsiri ilə o, Səməd Vurğuna xitabən, "Sən tələsmədin" şeirini yazır. Vurğunsevərlərin hər birinə məlumdur ki, lap erkən yaşlarından təlatümlərlə və keşməkeşlərlə dolu bir həyat yaşayan, həyatının son illərində "gödək ömrüm çox yaşadı" deyən şair, ömrünün sona çatdığnı dərk edir, lakin bununla barışmaq istımirdi. Dostları xatirələrində yazır ki, hənin günlərdə Səməd Vurğun günbəgün qocalırdı. Belə bir zamanda O, məşhur " Mən tələsmirəm " şerini yazdı.

"Yer üstündə,insan yanında deyib-



danışmaqdan doymayan" şair, hər bir anın ömrünü uzatmaq istəyir, vətəni gəzib dolaşmaq, onun gözəlliklərinə heyran olmaq üçün ovçuluğu özünə peşə çeçən şair ovçu dostuna müraciət edərək. :"Sən də ovçu dostum, tələsmə sən də" deyir.

"Demə ki, yorğunam, ya qocalmışam" - deyərək sevgilisilə bütün aləmi gəzmək, hər gülə, çiçəyə salam vermək, hər zərrəyə doyunca baxmaq istəyir. Və şeirin nikbin finalı:

***Qoy dünya böyüsün, zaman uzansın,***
***Bir günün ərzində aylarla yansın.***
***Al Günəş üzündın nur yağa-yağa,.***
***Ömür kitabını tamamlamağa,***
***Çoxda tələsməsin əlimdə qələm,***
***Mən tələsmirəm,Mən tələsmirəm!***

"Mən tələsmirəm" ifadəsinin iki dəfə vurğu ilə təkrarı sanki aləmə səslənir, haray şəkir.

Məmməd Araz heyrət, həm də təəssüf hissi ilə Böyük Səməd Vurğunun bütün keşməkeşli və "gödək" ömrünü düşünərək 1956-cı ilin 12 mayında "Sən tələsmədin" şeirni yazı. Bu o zaman idi ki, Səməd Vurğun ağır, sağalmaz xəstəlikdən yataqda yatır və ömrünün son günlərini yaşayırdı. Sanki Məmməd Araz şairə təsəlli vermək, onun ömrünü bir qədər də uzatmaq istəyirdi. Lakin onun gücü böyük şairin ömrünü uzatmağa deyil, bu şeiri yazmağa çatdı:

***Qoy nəğmə deməyə bülbül tələssin***
***Gəzdiyi, gördüyü üç aydır, şair.***
***Sənin ki, kükrəyən ilhamın, səsin***
***Məcraya sığmayan bir çaydır, şair...***

***...Gah oldu oylağın Göyəzən dağı,***
***Sözünlə açıldı Ayın qabağı .***
***Əsl bayramını, bayramqabağı,***
***Elədi görəndə gözəllər, səni..***

Məmməd Arazın Səməd Vurğuna həsr etdiyi ikinci şeir-"Müqəddəs məzar"adlanır. Şeir böyük şairin vəfatının birinci ildönümü ərəfəsində, 1957-ci ildə yazılıb. Şeirin və onun hər bəndində, hər sətrində Səməd Vurğuna böyük



məhəbbət və ehtiramı hiss edirsən. Şeiri oxuduqca Səməd Vurğunun "Unudulmuş tək məzar"ı yada düşür. Fikirlərimin təsdiqi üçün bəzi paralelləri gətirmək sitəyirəm. Hər iki şeirdə qəbirstan və həmin qəbirstandakı qəbrlər təsvir olunur. Hər iki məzar "Səməd Vurğuna məxsusdur". Diqqət yetirək, Səməd Vurğunun təsvir etdiyi məzar xəyali məzardır:

***... Qoca bir az gülümsədi,***
***Sonra qəbrə baxıb dedi:***
***-Qafil, özün bilməyirsən?***
***Səninkidir o tək məzar...***
***Onu dövran verdi bada,***
***Çox danışıb az yazanlar,***
***Unudulur bu dünyada.***

Məmməd Arazın da təsvir etdiyi məzar böyük şair Səməd Vurğunun məzarıdır. Onun Fəxri Xiyabandakı müqəddəs məzarı. Unudulmuş tək məzardan fərqli olaraq şairin ölümündən bircə il keçməsini baxmayaraq ətrafı gül-çiçəyə bürünmüş bu məzar artıq müqəddəsləşib:

***Əsir ılıq külək, mülayim külək,***
***Fəqət qasırğalar keçir sinəmdən.***
***Qəlbimdə çırpıntı, əlimdə çiçək***
***Müqəddəs bir qəbrə baş əyirəm mən.***

***Onun dövrəsində gül-çiçəyə bax***
***Deyirsən , əkilib iyirmi ildir.***
***Üstündə göyərən otların ancaq***
***Hələ bir yaşı da tamam deyildir.***

"Nə baş daşı, nə adı, nə doğması, nə yadı, olmayan" "Unudulmuş tək məzar"dan fərqli olaraq "Müqəddəs məzar"ın ünvanı da var, adı da var, doğması da, sirdaşı da. Müqəddəs məzarın ətrafı daim gül-çiçəklə, insanla dolu olur:

***Sanki ayaqlayıb ölümü bu an,***
***Hər gələn baş əyir bu böyük ada.***
***Şairi vədəsiz apardığından.***
***Elə bil utanır qəbirstan da.***

Az qala lirik poema həcmində və məzmununda yazılmış - 14 bəndən ibarət "Müqəddəs məzar" şeirində müəllif böyük şairin həyat yoluna, xarakterinə, yaradıcılığına səyahət edir. Səməd Vurğunun qəhrəmanlarının, əsərlərinin, şeirlərinin adlarını çəkməklə və şeirə daxil etməklə onun həm şair kimi, həm də şəxsiyyət kimi obrazını yaradır. Şeirin sonuna yaxın Məmməd Araz Böyük şairin əbədi susmasına dərin təəsüfünü bildirməklə yanaşı, əsəri nikbin sonluqla tamamlayır və Vurğun şeirinin ölümə qalib gəldiyini, onun ölməzliyini poetik notlarla oxucuya təqdim edir:

***Yox-yox xəzan görməz onun söz bağı,***
***Ölümə əl çalıb gülmək gərəkdir.***
***Vurğun şeiriyyəti, Vurğun torpağı***
***Bəlkə də yüz Vurğun yetirəcəkdir.***

***Qəlbi sükutdadır dayananların,***
***O qaxıb bu halı seyrə dalaydı,***
***Deyirəm kaş elə hər sənətkarın,***
***"Unudulmuş" qəbri belə olaydı.***

**Səməd Vurğunun fiziki yoxluğu Məmməd Arazın ona olan məftunluğunu nəinki azaldır, əksinə, getdikcə daha da gücləndirir. Şair yaşa dolduca, yaradıcılığı da onunla yaşa dolur, püxtələşir, ədəbi cameə ilə yaxından tanış olduqca yaxışnı pisdən, haqqı nahaqdan, ədaləti ədalətsizlikdən daha aydın ayırır, bunu şeirlərində tərənnüm edir. Ətafında, cəmiyytdə baş verən proseslərə mövqe sərgiləyir. Belə məqamlarda onun köməyinə yenə də onun şair dünyasında artıq qranitləşmiş Səməd Vurğun gəlir. Böyük şair məqalələrinin birində yazırdı:" S.Vurğunun ən böyük gücü ondaydı ki, o, zamanın dərin və mürəkkəb hadisələrini sənət kürəsinə "töküb əridərək" onları hamıya aydın, hamıya gərəkli və canlı poetik əsərlərə döndərirdi". Lakin Səməd Vurğunun fiziki yoxluğundan az keçmiş onu təftiş etməyə, inkar etməyə, ona qara yaxmağa, çirkab atmağa başladılar. Belə bir zamanda Səməd Vurğun barədə haqq səsini ucaltmaq üçün Məmməd Araz cəsarəti lazım idi. Şeir 1966-cı ildə "şöhbət" janrı formasında yazılmış və Səməd Vurğunun 60 illik yubileyinə həsr edilmişdir.**

**(ardı var)**

# Ağrılarını və sevincini sözlə bölüşən şair

## Adilə Nəzərin Qarabağ şeirləri üzərinə



Zemfira Məhərrəmli
yazıçı-publisist

**Adilə Nəzərin şeirlərini həmişə həvəslə oxuyuram və yəqinlik hasil edirəm ki, bu gün poeziyamızın tanınmış isimlərindən olan bu yazar xanımın əsərləri bədii-estetik zövqümüzü oxşayır, duyğularımızı cilalayır. Yaradıcılığındakı təbiilik, hadisələrə həssas yanaşma məni qane edib, razı salıb. Adilənin poetik istedadına, çoxqatlı fikir dünyasına bələd olduqca ədəbi qənaətimdə yanılmadığımı düşünürəm. Orijinal, maraqlı şeirləri onun sözə haqqı çatan qələm adamlarından olduğunu bir daha təsdiqləyir.**

Söz-söz, misra-misra cücərən şeirlər sənətkar ömrünün bəhrələri, arzu və ümidləridir. Şeirlər həm də şairlərin sevinci, kədəridir. Məşhur ispan şairi, qısa, lakin keşməkeşli həyat yaşamış Federiko Qarsia Lorkanın belə bir deyimi var:

"Ən kədərli sevinc şair olmaq, şair ömrü yaşamaqdır." Doğrudan da, söz adamları, şairlər el-obanın xoş gününə sevinir, dar günündən qüssələnir, qələmə sarılıb yurda dayaq olmağa, müşkülü asan etməyə can atırlar. Yazdıqları şeir şairlərin düşüncələrini bölüşmək, hisslərini ifadə etmək, həm də baş verən olaylara münasibət bildirmək üçün bir vasitədir.

Adilə Nəzər filologiya üzrə fəlsəfə doktorudur, neçə elmi əsərin, monoqrafiyanın, o cümlədən doqquz şeir kitabının müəllifidir. Şeirləri rus, ingilis, fransız, fars, qazax və özbək dillərinə tərcümə olunub, Türkiyə türkcəsinə uyğunlaşdırılıb.

Poeziya nümunələri və publisistik yazıları mətbuatda, ədəbi dərgilərdə çap edilir.

Şeirlərinin obraz düzümü, müəllifin dilin bədii imkanlarından məharətlə bəhrələnməsi, bənzətmələrdəki uyarlıq, bənzərsiz etik detallar, düşüncələrini yeni biçimdə çatdırmaq onun şair kimi mükəmməlliyindən xəbər verir. Bütün bunlar o deməkdir ki, Adilənin poeziyaya gəlişi mənəvi zərurətdən doğub. İstedadlı və məhsuldar şairin içdən gələn şeirləri, poetik yaşantıları səmimidir, inandırıcıdır.

Sadaladığım bu məziyyətlər, yəqin ki, söz adamının düşüncə tərzindən, həyata baxışından, yanımcıllığından, ən əsası isə qəlbini alovlandıran yurd sevgisindən qaynaqlanır. Adilə Nəzərin yaradıcılığında bənzərsiz sevgi şeirləri ilə yanaşı, bu gün də ürək döyüntümüz olan Qarabağ mövzusu əhəmiyyətli yer tutur.

Vətən dərdi, erməni qəsbkarların böyük güclərin yardımı ilə əzəli torpaqlarımızı işğal etməsi və qanlı müharibənin doğurduğu nisgil, ağrı-acı Adilə Nəzərin müxtəlif illərdə qələmə aldığı Qarabağ şeirlərinin canına-qanına sirayət edib. Qarabağ şəhidlərinə və itkinlərinə həsr etdiyi və amansız savaşa "yox!" deyən "Rekviyem" söylədiklərimin birbaşa izharıdır:

***Gəlsəm bir gün,***
***Ayaqlarına qapansam,***
***ətəyindən öpsəm,***
***Qaytararsanmı aldıqlarını?..***
***Uğruna gedənləri geri versən -***
***üzü gülsə xalqın...***
***Silinsə ataların alnından qırışlar,***
***qurusa anaların gözlərində yaşlar...***
***Açılsa qızların bağlı qapıları,***
***Sevinsə bəy otaqları..***
***Gəlsəm bir gün, ağlasam,***
***hər şey dəyişərmi, Qarabağ?***

Adilə Nəzərin Qarabağ mövzusunda şeirləri vətənpərvərliklə, yurd məhəbbəti ilə yoğrulub.

Şair yurd müdafiəçilərini, igid ərənləri dara düşən Vətənin dadına yetməyə, harayına qalxmağa səsləyir:

***Çağır oğul-qızını,***
***Haydan alsın xıncını..***
***Qolu haqq qılıncını***
***Vurana salam olsun!***



Yaxud:

***Ölməz min il də keçsə,***
***Torpaq üçün ölənlər.***
***Unudulmaz heç zaman***
***Bayraq üçün ölənlər.***
***Bir az geci-tezi var,***
***Ölüm cana minnətdir.***
***Vətənə can verənin***
***Ölümü də nemətdir.***

Doğma torpaqlarımızın itkisini zaman-zaman ürəyində gəzdirən şair əsarətdə olan yurd yerlərimizin düşməndən təmizlənməsi, Qarabağ üzüntülərimizə son qoyulması üçün yağılardan tezliklə qisas almağa çağırır:

***Gün gələcək səbrim qalxıb coşacaq,***
***Nifrətin sel olub, aşıb-daşacaq.***
***Bağlı olan bütün sədlər aşacaq,***
***Mübarizə qürur verər millətə!***

Səbri tükənən söz adamının bu şeiri yazarkən keçirdiyi halları kükrəyib daşan təbiət hadisəsinə bənzətmək olar. Bu misralarda əksini tapan yaşantıları müəllifin keçirdiyi ağrılı hisslər diktə edib.

Digər şeirində isə şair:

***Qürurunuz, bayrağınız,***
***əbədi yatdığınız torpağınız olacaq.***
***Qoruyun bu torpağı,***
***Qoruyun Qarabağı,***

- deyir. Ağrılarını və sevincini sözlə bölüşən şairdir Adilə Nəzər. Vətən həsrəti, yurd sevgisi neçə-neçə şairin poeziya nümunəsinin canıdır, cövhəridir. Sözlə ovqat yaratmaq isə hər qələm adamının hünəri deyil. Şairin "Əsgərə məktub" şeirində olduğu kimi:

***Hələ ki, yurd-yuvam, el-obam dardadı,***
***Hardadır qələbən, zəfərin hardadı?!***
***Yolunu gözləyən qız intizardadı,***
***Adına dualar oxuyur, oxuyur...***

"Naxçıvan şəhidlərinin xatirəsinə" şeiri də fikrimizə sübutudur:

***Şəhid analarını görüb dondum bu gecə,***
***Ayrılığın əzabı orada da ağırmı?***
***Bir xəbər ver, can bacı, orda havalar necə?***
***Şəhid məzarlarına yenə yağış yağırmı?***

Şairin adlı-ünvanlı şeirləri də diqqəti çəkir.

Milli Qəhrəmanımız Albert Aqarunovun, habelə Vətən Müharibəsi qəhrəmanlarımızın, şəhidlərin və qazilərin hünərinə həsr etdiyi şeirlər onun Zəfər nəğmələrinin toplandığı poetik yaddaş kitabının gözəl nümunələridir.

Dünya hərb tarixinə yazılan Zəfər savaşımıza ithaf etdiyi şeirlərində Adilə qəhrəman oğullarımızın bizə qalibiyyət gününün sevincini yaşatdığını, erməni canilərin və onların simsarlarının burnunun ovulduğunu var gücü ilə hayqırır:

***Gözləyirdi hamı yürüş zəngini,***
***Dan boyadı qaranlığın rəngini.***
***Olmayıbdır tayı Şuşa cənginin...***
***Bu zəfər bizimdir, bu zəfər bizim.***
***Xain düşmənlərin beli büküldü,***
***Bizi yandıranlar "yanıb-töküldü"...***
***Vətənin bağrından yara söküldü,***
***Bu zəfər bizimdir, bu zəfər bizim.***

Qəlbi qürurla döyünən şair "adlı-adsız qəhrəmanların qarşısında mənfur düşmənin diz çökdüyünü," "əsrlik yolları qət edən əsgərlərimizin yeni tarix yazıb zəfər qazandığını" sevinc, fərəh hissi ilə dilə gətirir:

***Döşünə qəlpəni qızılgül kimi,***
***Taxan Qaziləri salamlayıram.***
***Düşmən üzərinə çoşğun sel kimi,***
***Axan Qaziləri salamlayıram.***

***Üz-üzə dayanıb mənfur yağıyla,***
***Keçib imtahandan can sınağıyla,***
***Girdiyi meydandan tək ayağıyla***
***Çıxan Qaziləri salamlayıram.***

"Başın uca olsun" şeiri də illər boyu intizarında olduğumuz möhtəşəm Qələbənin hər birimizdə doğurduğu qürur, fəxr-fəxarət hissi ilə həmahəngdir:

***Gözünü yummadın soyuq səngərdə,***
***Gecələr bizim də yuxumuz azdı.***
***Sən ey fateh oğul, sən ey Sərkərdə,***
***Şəninə min dastan yazılsa azdı.***

***Başın uca olsun, ay gözüm, canım,***
***Vüsala yetişdi könül sevdası.***
***Sayəndə güləcək Azərbaycanım,***
***Gəldi Qarabağın o xoş sədası.***

# FÜZULİLİLƏR YURDA QAYIDIŞIN SEVİNCİNİ YAŞAYIR

**... O günlər getsin, gəlməsin. Çünki o günlərdə Füzuli camaatının ağır günləri vardı, göz yaşları vardı. Dönüb geri baxaraq hönkür-hönkür ağlamaqları vardı. 1993-cü ilin avqustun 23-də Füzuli rayonu işğal olunarkən onun sakinlərinin nələr yaşadığını bir Allah bilirdi, bir də özləri. 120 min əhali yollarda çıxılmaz vəziyyətdə qalmışdı və onlar bilmirdi ki, hara , kimin yanına üz tutsunlar. Amma çətin gündə füzulililərə yenə Ulu Öndər Heydər Əliyev arxa durdu. Həmin insanlar respublikamızın 50-yə yaxın rayonunda məskunlaşdılar.**

Bəli, o illərin, o günlərin ağrısını-acısını füzulililər çox yaşadılar. Nə az, nə çox 30 il yurd yeri, Vətən yeri həsrətini çəkdilər. Torpaqlarımız erməni işğalından azad olunandan sonra füzulililər çox böyük sevinc yaşadılar. İlk növbədə Füzulinin işğaldan azad olunmuş 22 kəndinə və Horadiz şəhərinə əsaslı yenidənqurmadan sonra insanlar öz evlərinə qayıtdılar. Onlar öz doğma yurduna dönəndə gördülər ki, doğrudan da yurd həsrəti, Vətən sevgisi heç vaxt yaddan çıxan deyil. Ən azından ona görə ki, onlar 30 il Vətəndən ayrı düşmüş, onun dərdi-kədərilə yaşamış və o ağrı-acını görmüşdülər. O ağrı-acını görmək, onu yaşamaq və sabaha olan böyük ümidlərlə duruş gətirmək elə də asan deyildi. Çünki bir çox yaşlı nəslin nümayəndələri Füzuli dərdinə, Füzuli həsrətinə və Füzuli kədərinə dözməyib vaxtından tez dünyalarını dəyişdilər. Onlara heç Vətən torpağında dəfn olunmaq da qismət olmadı. Amma bəzi rəhmətə gedən adamların sahibləri dəfn etdikləri insanları tabutda torpağa tapşırdılar ki, Vətənə dönəndə yenidən onları o yurdda dəfn etsinlər.

Artıq 2023-cü il avqust ayından füzulililər yeni sevincini, fərəhini yaşayırlar. Belə ki, Füzuli şəhərində Hava limanı istifadəyə veriləndən sonra orda bütün infrastruktur yenidən qurulmağa başladı. Yollar çəkildi, su, qaz xətti istifadəyə verildi və digər kommunikasiya sistemləri tam mənada istismara verildi. Bu o deməkdir ki, artıq Füzuli şəhərində insanların yaşaması, işləməsi və fəaliyyət göstərməsi üçün normal şərait yaradılıb. Neçə-neçə yüksək mərtəbəli binanın inşası, orta məktəbin tikilməsi, uşaq bağçasının istifadəyə verilməsi füzulililərin problemini tamamilə həll edirdi. Bununla yanaşı, şəhərdə rayon mərkəzi xəstəxanasının və digər sosial obyektlərin tikintisi də sürətlə davam edir. Yaşayış yerlərində bir-birindən gözəl güllər, çiçəklər , ağaclar və digər yaşıllıq zolaqları salınıb. Bununla yanaşı, şəhərin görkəminə və füsunkarlığına bir gözəllik də əlavə olunub. Bu da yurd-yuvasından didərgin düşmüş füzulililərin öz doğma ocaqlarına, yurdlarına qayıtmasıdır. İnanın onların gözlərinin içinə dərindən baxanda, çöhrələrindəki sevinc hisslərini görəndə adam istər-istəməz sevinir. Sevinir ki, 30 ildən çox bu yurdun həsrətində olan 200-ə yaxın ailə artıq Füzuli şəhərinə qayıdıb.



Sizə bir faktı da deyim ki, Füzuli şəhərinin havası və suyu həddindən çox təmizdir. Burda yayın istisində və qızmar günlərdə adam heç vaxt özünü narahat hiss etmir. Çünki şəhərin mərkəzində elə gözəl hava var ki, adam ciyərinə çəkdikcə ləzzət alır. Düşünürsən ki, ilahi, Qarabağın nəinki torpağı, suyu, hətta havası da cənnəti xatırladır. Füzuli şəhərinə dönənlər arasında mənim yaxın dostum və böyük ziyalı Elmin İdrisli də var. Elmin İdrislinin atası Bəhram Məmmədli vaxtilə Füzulinin çox böyük ziyalılarından biri olub və elmlər namizədi idi. O, Füzuli rayon Diyarşünaslıq muzeyinin direktoru idi. Allahın dərgahına qovuşsa da bu gün onu bütün füzulililər hörmətlə yad edir. Çünki Bəhram Məmmədli bir ziyalı olaraq həmişə Füzulinin tarixində bir iz qoyub. Və bu iz heç vaxt yaddan çıxmayacaq, unudulmayacaq.

Elmin İdrisliyə Füzuli şəhərində 4 otaqlı mənzil veriblər. Otaqların hər biri çox gözəl tikilib və səliqəsi ilə diqqəti cəlb edir. Dostum diqqətlə mənə baxır və sevinclə dillənir:

- Bir vaxtlar yuxumuzda gördüyümüz Füzuli şəhərinə yenidən qayıtmağımıza görə özümüzü xoşbəxt sayırıq. Faiq müəllim, inanırsan, Füzuli şəhəri üçün nə qədər darıxırdım? Çünki burda mənim gəncliyim, gözəl günlərim və yaddan çıxmaz xatirələrim var. Elə çox vaxt da qaçqınlıq dövründə həmin xatirələri yada salıb bir təsəlli tapırdım. Düzdür, Bala Bəhmənli kəndi yaxınlığında bir ev də tikmişdim. Amma həmin evdə bir o qədər rahatlıq tapa bilmirdik. İndi şükürlər olsun ki, bu dördotaqlı evdə yaşayırıq və özümüzü də çox yaxşı hiss edirik. Ən azı ona görə ki, bayaq dediyim kimi, bura mənim gənclik illərimin yurdudur. Hər dəfə küçəyə çıxanda, yolu addımlayanda Allaha şükür edirəm. Şükür edirəm ki, bu günləri Ulu Yaradan bizə qismət edib. Məngələnata tərəfə baxıram, Ərgünəşə üz tuturam elə bil yenidən dünyaya gəlmişəm. Çünki buranın həsrətilə 30 il yaşamışıq ey! Bunu hər adam hiss eləməz, başa düşməz. Bunu o adam hiss edər ki, Vətəndən ayrı düşsün, ev-eşiyi yandırılsın və yurd həsrətilə yaşasın. Biz burda




beş nəfər yaşayırıq, amma oğlum Şaiq hərbi xidmətə yollanıb. İndi o, sərhəd qoşunlarında Şəkidə xidmət edir. Deyir ki, ata, Şəkinin dağları da Füzulinin dağlarına bənzəyir və burda özümü çox rahat hiss edirəm. Vətənimə, dövlətimə bir əsgər kimi xidmət etdiyim üçün qürur duyuram.

Dostum və qardaşım Elmin müəllim deyir ki, gəlin bir stəkan çay içək, amma bu bir stəkan çay sonradan geniş süfrəyə çevrilir və süfrənin üstünə ləziz yeməklər, şirniyyat məhsulları düzülür. Şirniyyatı çox sevməsəm də masanın üstündən bir şokolad götürürəm və çay içirəm. Bu çay adi çay deyil, Füzuli şəhərində olan bulağın suyundan dəmlənmiş çaydır. Çayın dadından və ətrindən doymaq olmur. Bir anlıq xəyal məni 80-ci illərin əvvəllərində Köndələn çayının üstündəki ”Çənlibel” restoranına aparır. ”Çənlibel” restoranında qohumum rəhmətlik Qoçaq müəllimlə yediyimiz kabab və içdiyimiz pürrəngi çay düşür. Elmin müəllimgildə içdiyimiz çay da həmin dadı verir, yemək də. Bircə qohumum Qoçaq müəllim yoxdur. Və nə yaxşı ki, Qoçaq müəllimin balaları, nəvələri var.

**Həmişə fikirləşirdim ki, kaş mənim də Füzuli şəhərində o təmiz havada, gözəl yerdə bir evim olaydı. Amma Allah-Təala onu mənə qismət eləmədi, heç bir şey olmaz. Elə qardaşım Elminin dediyi kimi, bu ev də bizim evimizdir. Qapısı həmişə üzümüzə açıqdır. Qapın həmişə açıq, ruzun bol olsun, Elmin qardaşım! Bu evdə, bu ocaqda oğul toyu, nəvə toyu görəsən!..**

**Faiq QİSMƏTOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

# ÇİNGİZ ABDULLAYEV VƏ XƏLİL RZANIN ÇIRTMASI



***MAHİR QABİLOĞLU***

**Azərbaycan dili. Əgər kimsə düşünürsə ki, Azərbaycan dilini - öz doğma dilini mükəmməl bilir - yanılır. Bu dilin, o cümlədən digər dillərin də qatları çoxdur. Biz hamımız sadəcə danışıq dilini bilirik. Onu da öz anamızın, ailəmizin, el-obamızın bizə verdiyi leksikon səviyyəsində - şirin dialekti və şivəsiylə.**

Kimsə digərini Azərbaycan dilini mükəmməl bilməməkdə suçlandıranda, ilk olaraq bu sualı özünə verməlidir: ”Sən necə, öz dilini mükəmməl bilirsənmi?” Ədəbiyyatçı ailəsində böyüyüb, boya-başa çatmışam. Valideynlərimin hər ikisi ixtisasca Azərbaycan dili və ədəbiyyat müəllimiydilər. Özüm isə Bakı Dövlət Universitetinin Filologiya fakültəsini bitirmişəm. İxtisasım filoloq, Azərbaycan dili və ədəbiyyatı müəllimidir. Amma heç vaxt, heç yerdə demərəm, deməyə cürət belə etmərəm ki, Azərbaycan dilini mükəmməl bilirəm. Əlbəttə ki, söhbət Azərbaycan ƏDƏBİ dilindən gedir. Sovet vaxtı ədəbi dilə çox vaxt qəzet, televiziya dili deyərdilər. Bütün qramatik qaydalar nəzərə alınardı. Televiziya ekranında gördüklərimizin danışığından bilmək olmurdu ki, o haralıdır. Çünki dialekt olmurdu. Hətta fəhlə-kəndlidən də müsahibə götürəndə danışacaqlarını əvvəlcədən yazıb əzbərlətdirirdilər. Amma Azərbaycan dilinin əsas keşikçiləri də ədəbi dil normalarını bilməyən rayonlarda yaşayan əhalimiz idi. Dilimizi zibilləyən rus sözləri kəndlərə ayaq açmırdı, bir-iki sözü nəzərə almasaq. O da ki, öz düzəlişlərində: ramont, culgi, varantur... Sonradan çanaq antenaları meydana çıxdı. Osmanlı türkcəsi türk seriallarıyla həyatımıza, o cümlədən dilimizə də sirayət etməyə başladı. Əlbəttə ki, cüzi hərf düzəlişləriylə. Eşq - aşq oldu, yoldaş - arkadaş... Apastrof da yoxa çıxdı. Yoxa çıxmaqla hecalanmada, vurğuda da xətalar yaşanmağa başladı. Məsələn, qu-ran, yoxsa Qur-an.

Başınızı çox ağrıtmaq istəmirəm. Azərbaycan dili böyük bir elm sahəsidir. Təkcə filologiya fakültəsində dilimizin müxtəlif sahələrini öyrənən neçə kafedra vardı. Hər kafedrada da müxtəlif istiqamətlər. Başlayırdıq fonetikadan, qurtarırdıq orfoepiyada, etimologiyada. ”Sağır nun” hərfinin də qeyri-rəsmi mövcudluğunu da, Xett, Orxan-Yenisey əlifbaları barədə bilgiləri də bu kafedralardakı müəllimlərimizdən öyrənirdik. Hətta Zeynəb Xanlarovanı da orfoepik qaydalara riayət etməməkdə günahlandırırdılar müəllimlərimiz. Bayram Bayramovun əsərlərini isə dilçilər üçün mənbə sayırdılar. Və daha nələr, nələr...

Azərbaycan dili böyük bir ümmandır. Danışıq dili bunun yalnız gördüyümüz qatıdır. Şahə qalxan dalğaları da var, ləpədöyəni də... Amma heç kim bu dili 100 faiz bilmir. Kimsə desə ki, mən Mahir Azərbaycan dilini 40 faiz bilirəm, bu mənimçün böyük tərif olar.

Amma hamımız danışırıq. Birimiz ləhcədə, birimiz şivədə. Birimiz rus sözləriylə qarışdırırıq, o birimiz türk, qazax, özbək... Hansı ölkədə təhsil alırıqsa o dövlətin, xalqın sözünü dartıb gətirib dilimizə qoşuruq: okey, tamam, pardon. ”Təşəkkür” sözünü bütöv yazmağa hövsələmiz çatmır ”TŞK” kimi ifadə edirik, ”Mübarək”ə ”mübiş” deyirik. ANS televiziyasının həyatımıza daxil olmasıyla ədəbi dilimiz də danışıq diliylə əvəzləndi. Pis sayılan ”Xəbərçi” sözü reablitasiya olundu.

Əlbəttə ki, həyəcan təbili çalanlar çoxdur - çifayda. Əvvəllər fars, ərəb sözləriylə, ifadələriylə zibillənirdi dilimiz, indi isə dünya dilləriylə. AzTV-nin ”Xəbərlər”ində işləyəndə şinelimizdən çıxan televiziyalar bizi ”Mış-miş” çağırırdılar. Çünki informasiyalarımızda feillərin sonluğunu qramatikamıza uyğun olaraq mış, miş, muş, müş yazırdıq. O vaxt populyar olan ”Xoş gəlmişsiniz” verilişi yəqin ki, yadınızdadır.

Başınızı çox ağrıtdım. Axı məqsədim Azərbaycan dilinin zənginliyinə, gözəlliyinə, təmizliyinin qorunması istiqamətində görülməli olan işlərə qısa ekskurs etmək deyil. Saytlar, qəzetlər, yutub kanalları saysız-hesabsız səhvlərlə onsuz da doludur. Mənim bu yazımda da nə qədər desəniz səhv tapa bilərsiniz. Amma elə bir dövrə gəlib çatmışıq ki, qramatikaya, orfoepiyaya çox da fikir vermirik. Əsas yazanın, jurnalistin, müsahibin dediyi fikirdir, verdiyi informasiyadır. Biz bunu qiymətləndiririk.

Müstəqillik dövrü başlayanda Rus dili bir müddət yox, həmişəlik əhəmiyyətini itirdi. Çünki bütün yazışmalar, sənədlər Azərbaycan dilinə - dövlət dilinə keçdi. Danışmaq başqa, yazmaq isə tam başqa. Amma bunun öhdəsindən gəldik. Rus dilində danışanlar qolu-qabırğasını sındıra-sındıra Azərbaycan dilində danışmağa başladılar. Atam Qabil belələrinə ürək-dirək verirdi. Deyirdi ki, danışın, utanmayın danışın, danışa-danışa nitqiniz təkmilləşəcək. Uzaq 90-cı illərdə bu sözü Çingiz Abdullayevə deməsinin də şahidi olmuşam. O vaxt mən Azərbaycan Yazıçılar İttifaqında işləyirdim. Çingiz Abdullayevin yazıçıların çevrəsində - hələ o vaxt - nəinki rusca, heç rus sözlərindən istifadə etdiyini də görməmişəm. Şirin Bakı ləhcəsində danışır. Əcəb eləyir. Mən də Bakının köhnə məhlələrində böyüsəydim belə danışardım. Nə edim ki, Yazıçılar binasında yaşamışam. Ədəbi dil normaları, yazıçılar əhatə edib məni, səhvlərimi həmən düzəldiblər - böyüməmiş. Həm də köklü Şirvanlıyam. Yox, elə bilməyin ki, yazıçı Çingiz Abdullayevlə özümü müqayisədə verməkdir niyyətim. Sadəcə, insana fərdi yanaşmaq lazımdır. Çingiz Abdullayev 90-cı illərdə necə danışırdısa, indi də elə danışır. Bizə isə onu bu cür qəbul etmək qalır. Özü də ki, Çingiz Abdullayev Azərbaycanca danışır. Müsahibələrində, çıxışlarında rus sözlərinə rast gəlməmişəm. Məhz bu xüsusiyyətinə görə Xalq şairi Xəlil Rzanın adını başlığa çıxartdım.

Xəlil əmi Azərbaycan dilində təmiz danışmayanlara qarşı mübariz idi. Onun iştirak etdiyi məclislərdə çıxış edənlər yox, hətta dəm vəziyyətdə sağlıq deyənlər də özlərini yığışdırıb, nitqlərinə diqqət yetirərdilər. Cəzası isə söz yarası, tənqid deyildi. Sadəcə, çırtma çalırdı və çırtmadan sonra xətanın səviyyəsinə görə cəriməsini deyirdi: 5 qəpik, 10 qəpik... ən ağır cəza 20 qəpik idi. İnandırım sizi ki, bu cərimələrin cəmini həmin adam sözünü bitirdikdən sonra ondan məcburən alırdı ki, ona dərs olsun, bir daha dilimizi rus sözləriylə zibilləməsin.

Günlərin bir günü Salam Qədirzadə, Əliağa Kürçaylı və Xəlil Rza bizə gəlmişdilər. Mən də onlara qulluq edirdim. (ən bezdirici məqam arağı süzəndən sonra aparıb soyuducunun gözünə qoymaq, sonra gətirib badələrə süzüb, yenidən aparıb soyuducunun gözünə qoymaq idi.) Sağlıq demək növbəsi Salam əmiyə çatdı. Onu da qeyd edim ki, o vaxtın danışıq dilində rus sözlərindən istifadə etmək adi hal idi. (Salam əmi də beş il Qorki adına Moskva Ədəbiyyat institutunda oxumuşdu. Elə Moskvada da Roza xalayla ailə həyatı qurmuşdu.) Xülasə, Salam əmi başladı sağlığa, Xəlil əmi isə çırtma çalmağa və qəpiklərin nominallarını səsləndirməyə. Birdən Salama əmi əsəbiləşdi. Əlini cibinə salıb bir göy üçlük çıxarıb Xəlil əmiyə uzadaraq, - Xəlil, sən Allah çırtma çalma, fikrim dağılır. Elə sakitcə bu 3 manatdan çıx. Sonda qalsa ”zdaçi” (qalığını) qaytararsan, - dedi.

Nəyə görə Xəlil əminin bu şakəri yadıma düşdü? Görəsən, Çingiz Abdullayev danışanda, Xəlil Rza çırtma çalardımı? Yaxud da ki, məşhur bir telejurnalist ”separatçı” sözünü elə hey ”sepEratçı” desəydi, çırtma çalardımı? Əsla. İnsanlar müxtəlifdir. Hərənin bir danışıq manerası var. Əsas müzakirə obyekti onun dediyi fikir olmalıdır, o fikri necə deməsi yox. Təhqir edib? Verin məhkəməyə. Ağız əymək, lağa qoymaq heç kimə baş ucalığı gətirmir. O ki, qaldı Çingiz Abdullayevin müəllim tutub Azərbaycan dilini öyrənməsinə. Xeyri yoxdur. 65 yaşın içində olan bir adama bu sözü demək özü...

Yazıçıdır? Xalq yazıçısıdır? Yazıçı öz doğma dilində belə danışmaz? Şirin Şəki ləhcəsində danışan Şəkili, Naxçıvan ləhcəsində danışan Ordubdlı, Şərurlu, Şahbuzlu, Nehrəmli.., ”Can ğərdeş”, ”o” hərfini ”u” deyən ləzgi, ”hə” sözünün sonuna 5-6 dənə də ”ə” artıran talış... danışanda həzz ala bilirik, Çingiz Abdullayev şirin Bakı ləhcəsində danışanda yox? Şəxsən mənə xoşdu.

Şəxsən mənim üçün Çingiz Abdullayevin Azərbaycan dilinin orfoepiya qaydalarına riayət etməsi, qramatik cəhətdən mükəmməl danışması əhəmiyyətli deyil. Mənə Rus dilini və digər xarici dilləri mükəmməl bilib, şovinist aparıcıların və erməniyönümlü ekspertlərin meydan suladığı Rusiya və dünya televiziyalarında onlara tutarlı cavab verə biləcək Çingiz Abdullayev kimi intellektual şəxslərimizin, Vətən təəssübkeşlərinin sayının çox olması vacibdir, əsasdır. Hansısa sözün yerini səhv salması və ya qol-qabırğasını sındırması bağışlanan günah da yox, xırda bir xətadır.

**Danışın əleyhinə, yutub kanallarında, tik-tokda, sosial şəbəkələrdə məzxərəyə qoyun, layklar yığın. Çünki gənc nəsil əsrin əvvəllərində televiziyada təşkil olunan xalq diplomatiyası telekörpülərini görməyiblər. Hamısında məğlub olurdular erməni ideoloqları, yalançı tarixçiləri. Kimi verirdik qabağa? Çingiz Abdullayev kimi Rus dilini sərrast, tarixi gözəl bilən ziyalılarımızı. Ən cavanı rejissor Vaqif Mustafayev idi ki, onun bu gün 70 yaşı var. Çərrədib öldürün bu ziyalılarımızı. Elə Çingiz Abdullayevi də... Axı nə udacaqsınız? İtirdiyiniz udacağınızdan qat-qat çox olacaq. Çingiz Abdullayev kimi ziyalıların yetişdirilməsi üçünsə azı 60-65 il vaxt lazımdır. Vaxtımız isə yoxdur.**

***PS: Xəlil Rzanın bir adəti də vardı. Rus dilində səlis danışan Azərbaycanlı görəndə çıxarıb cibindən pul verərdi.***

## *Dil müqəddəsdir*

**Son günlər kütləvi informasiya vasitələrində ”Artsax” və ya qondarma respublika özünü buraxdı deyiminə tez-tez rast gəlirik. Ədəbi dilimizin zəngin olduğu bir zaman, bu cur ifadələr işlətmək, yazmaq ən azı ayıbdır. Bu dilə və onun daşıyıcılarına böyük hörmətsizlikdir. Dili beş-on nəfər arasında danışılan jarqona uyğunlaşdırıb bayağılaşdırmaq, sadədən sadə və adi edib biabırçı vəziyyətə salmaqdır bu.**

Bizdə nədənsə bir çoxları özlərini çətinliyə salıb, bu haqda fikirləşmir. Rus dilindən götürüb dilimizə savadsız, mənasız və uğursuz tərcumələr edirlər. Nəticədə dil öz axıcılıq və rəvanlığını itirir, daha qabarıq desək zibillənir. Belə ”tərcüməçilər” təəssüf ki, öz doğma dilimizi rus dili qədər dərindən bilmirlər.

Götürək, ikili standart sözünü. Mətbuatın və siyasi şərhçilərin dilinin əzbəri olan bu iki söz birləşməsi dilimizdə nəzərdə tutulan mənanı dəqiq vermir və çatdıra bilmir. Çünki tərcumə kökündən dilimizin qayda və qanunlarına uyğun şəkildə edilməyib.

Yəni, sətri tərcümə olunub, dilimizə zorla soxuşdurulub. Biz rus dilində olan və tez-tez işlədilən bu dvaynoy standartı dilimizə ikiüzlü münasibət kimi çevirməli idik ki, onun kəsb etdiyi məna itməsin və deyim anlaşılsın.

Qayıdaq, özünü buraxma məsələsinə. Bu yenə rus dilindən edilən anlaşılmaz tərcumədir. Çox vulqar və savadsız ifadədir. Bir az fikirləşsək bunun dilimizdə bir neçə uğurlu və anlaşılan qarşılığını tapa bilərik. Məsələn, ”Artsax” özü istefa verdi. Özünü hakimiyyət elan edən ”Artsax” öz xoşu ilə hakimiyyətdən əl çəkdi və s. Siyahını artırmaq da olar. Sadaladığımız bu misallar görəsən niyə jurnalistlərimizin ağlına gəlib, yadına düşmür?!

**Belə çıxır ki, jurnalistlər öz üzərlərində işləmir və belə biabırçı ifadələrdən qəsdən, şüurlu şəkildə istifadə edirlər. Bu da dilə düşmən kəsilmək deməkdir. Halbuki qələm sahibi ilk növbədə dili qorumalı, onun təmizliyi, saflığı, səlisliyi uğrunda mübarizə aparıb, dilin keşıyində sayıq durmaq əvəzinə, nədənsə bunun tərsini edir. Xalqımızın mənəvi varlığı kimi mövcud olan müqəddəs dilimizin keşiyində sayıq durmaq hər bir jurnalistin vətəndaşlıq borcudur. Dil əbədi və müqəddəs olduğu üçün onu göz bəbəyi kimi qorumalı, dildən diqqət və qayğımızı əsirgəməməliyik...**

**Adil Misirli,**
**Qarabağ üzrə bölgə müxbiri**

## *Azərbaycanın ən sürətli şəbəkəsi indi Xankəndidə*

**”Bakcell” şirkəti şəbəkəsini Xankəndi şəhərində uğurla istifadəyə verib.**

**Şirkətdən Adalet.az-a verilən məlumata əsasən, ”Bakcell”in şəbəkəsi Ağdərə və Xocalı da artıq fəaliyyətdədir. Bununla da, şirkətin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında quraşdırılmış baza stansiyalarının sayı 120-dən yuxarıya çatdırılıb.**

**Burada quraşdırılmış baza stansiyaları ilə ”Bakcell” şirkəti Qarabağ bölgəsində ən müasir səs texnologiyası olan VoLTE xidmətini və ölkənin ən sürətli mobil internet şəbəkəsini öz abonetlərinin ixtiyarına verib.**

**”Bakcell” şirkəti Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonunda zəruri infrastrukturun qurulması istiqamətində, eləcə də ən son texnologiyalarının bu bölgəyə gətirilməsində genişmiqyaslı fəaliyyətini daha da gücləndirəcəkdir.**

***BARAT VÜSAL***

## *BİR GÜLÜN TARİXİ*



***Qənirə xanım Paşayevanın dünyasını dəyişdiyinə kim inanar ki?Mən də inanmıram! Bir vaxtlar Təbrizə babamız Şəhriyarın qəbrinə gül qoymaq üçün tələsdiyi kimi yenə də yəqin ki, tələsik səfərə çıxıb...***

***Bakıdan Təbrizə bir gül apardı,
Şəhriyar qəbrinin üstə qoymağa.
Yox, gül aparmadı, könül apardı,
Şəhriyar qəlbinin üstdə qoymağa!***

***Gedirdi nur səpib yola, deyirlər,
Bu da bir xidmətdi Vətən yolunda!
Mənzilə çatdırıb, belə deyirlər,
Gül onu gül kimi tutub əlində!?***

***Tez çatmaq gərəkdi Təbrizə o gün,
Apardığı o gül solmasın, deyə.
Qorğanıb üstündə elə əsirdi,
Ona heç nə, bir şey olmasın, deyə!***

***Yaxşı ki, tərkinə götürdü Xızır,
Belə tez olmayıb heç kim Təbrizdə.
Gözünü yum, dedi,aç, dedi, açdı,
Yumdu-Bakıdaydı,
Açdı-Təbrizdə!***

***Baba qəbri üsdə gedən bir zəvvar,
O gün yarı adam, yarı gül oldu.
Apardığı gülsə, yox -yox, könülsə,
Bir dəstə gül oldu, sığmadı Ərzə,
Ağ gül, qırmızı gül, sarı gül oldu!***

***...Əzəli zəvvardı Əzəldən bəri,
Əbədi yoçudu, yoldadı canı.
Könüldədi canı, güldədi canı!
Dayanar ürəyi, gül yaşamasa,
Baba qəbri üstə gül daşımasa!***

## Ədəbiyyat üzrə Nobel mükafatının qalibi bəlli oldu




**Ədəbiyyat üzrə Nobel mükafatının sahibi açıqlanıb.**

Kult.az xəbər verir ki, bu barədə İsveç Kral Akademiyası məlumat yayıb. Məlumata görə, mükafat norveçli dramaturq Yun Fosseyə verilib.

Ona Nobel mükafatı yenilikçi pyesləri və prozalarına görə verilib.

# "İSTANBULDA İSTANBUL HƏSRƏTİ"NDƏN BİR HİSSƏ

(ixtisarla)



***Məzahir ƏHMƏDOĞLU***

**...Aqil Abbasın istəyi ilə əvvəlcə Ayasofiyanın qarşısındakı yay kafesində çay içirik. Avropanın hər yerində olduğu kimi, Türkiyədə də çay və qəhvə kimi içkilərdə şəkər tozundan istifadə olunur. Aqil müəllim çayçıdan xahiş edir ki, əlavə olaraq bizə limon, bir də küp şəkər, yəni qənd gətirsin. Buradaca qeyd edim ki, lazım olandan artıq istifadə edildikdə insan orqanizminə nə qədər ziyanlı olsa da, qənd Azərbaycandan başqa heç yerdə çay içmək zərurətini büsbütün tamamlamır. Yəni dad və zövq məsələsində. Hətta bir zamanlar Ağdamda məşhur olan Alışın, qənddoğrayan çəkiclə hazırlayıb müştəriləri razı salan primitiv çayxanası da gördüklərimizdən çox fərqlidir...**

...Yetmişinci illərin əvvəlləridir. İçərişəhər divarları yanında, metronun arxasındakı "39"-ların ilk və ya son duracağına açılan yöndə yerləşən Həbibin uzunsov çayxanası tamamilə bizə məxsusdur.



"Biz" sözünün cinsi bölgüsünü vermədən keçirəm elə əsas mətləbə. Bura hər gün əsasən kimlərin gəldiyini əvvəllər çox yazmışam. Bir dəfə necə oldusa, İçərişəhərdən çıxan 4-5 turist (səhv etmirəmsə öz Almaniyamızdan- ADR-dən idilər), Həbibin çayxanasına daxil olub çay sifariş verdilər. Əslində burada çaydan başqa onsuz da heç nə olmurdu. Nadir hallarda daimi "sakinlərin" bəziləri, Möhbəddin Səmədin qəribə bir tələffüslə "akroşka" dediyi və hərdən özünün də sifariş etdiyi o məşhur "çiy xorəyimizdən" istəyirdilər. Həbib ilk baxışdanca çox səliqəli və mədəni təsir bağışlayan xaricilərin masasına ağ bir örtük də saldı. Gözəl çay dəmlədi, kəllə qənd doğrayıb gətirdi. Bütün bunları gülərüzlə qəbul edən almanlar, çay qaşığı və şəkər tozu istədilər...

Aqil müəllim sabah Bakıya qayıtmalıdır. Vaxtdan istifadə edib bir neçə dost-tanışı arayır İstanbulda. Tibb sahəsinin adamlarıdır. Çalışır ki, mənə köməklik olsun, çox əziyyət və xərc çəkməyim. Başqa məsləhətlər də verir. Deyirəm Ayaz yanımdadır, narahat olma, bu dəfə də dostumuz Bəhruz Səfərəliyevi arayır...

Tramvaya minirik. Hansısa bir duracaqda düşüb piyada yaxınlıqdakı qarşısı dənizə açıq restorana keçirik. Bura dənizin içərisinə uzanan körpü kimi bir yerdir. Ancaq çox qələbəlikdir. Aqil Abbas burada da özünü sərbəst və elə istanbullu kimi hiss edir.

Gözəl və zövqlü nahardan sonra qalxıb əvvəlcədən müəyyənləşdirdiyimiz səmtə yol alırıq. Bu dəfə taksiylə gedirik. Yolumuz Eyyubadır. İradə xanım İstanbulu çox sevir, deyir heç ayrılmaq istəmirəm bu şəhərdən. Yol boyu taksi sürücüsünə Türkiyə türkcəsi, eləcə İstanbul ləhcəsi ilə suallar verir, danışır, ətrafı çox doğma bir hislə seyr edir. İlk və əzəl səbəbini söylədim bayaq. Ancaq başqa bir səbəb də var axı. İradə Tuncay "Sarı odalar" kitabında və başqa bir sıra yazılarında 20 milyonluq "İstanbul ölkəsinin" bəzi tarixi və indiki məqamlarından bənzərsiz, unikal söhbətlər açmış, əlamətdar bilgilər paylaşmışdır. OXUYANLAR BİLİR Kİ, bütün bunlar qəlbin, ruhun, sevginin eyni anda bütünləşən cazibə nöqtəsidir.

Bu cazibə hər yoldan ötəni özünə çəkməz də. Onun ovu yüksək zövq qurbanlarıdır, toru-tələsi sevdalılar üçündür.

İstanbulun Eyyub səmti də İradə xanım üçün belə bir ruh yüküdür. Kosmopolit dünyagörüşün üzərindən milli köklərə bağlı dünyəvi bir istiqamət almaq arzu və istəyin varsa, İradə Tuncayın "İstanbulu dinliyorum gözlərim kapalı..." məqaləsini, yoox, essesini bir daha oxuyun və Pierre Lotini də duymağa çalışın. Onun nəvazişli yazı üslubu və köməkliyi ilə.

Heç demə Aqil Abbas və İradə Tuncay İstanbulda olarkən mütləq camelərə də gedirlərmiş. İndi də Eyyub sultan camesinə gedirik. Məkan dayandığımız yerdən aşağıdadır. Bizi ora aparan yol böyük məzarlıqdan keçir. Aqil Abbas Ayazla 7-8 addım qabaqda düşürlər qədim Eyyub məzaqlığının pillələrini. İradə xanımla mən arxadan gəlirik.

İradə xanım İstanbulun yüz il qabaqkı Eyyubundan bir məsələyə aydınlıq gətirmək üçün Rəşad Nuri Güntəkinin "Çalıquşu" romanını yada salır və mən həmin əhvalatı anidən xatırlayıb ona təşəkkür edir və yaddaşına heyranlığımı da bir daha diqqətə çatdırıram. Hərdən İradə xanımla bizim ezop dilinə bənzər bir üslubda kiçik dialoqlarımız olandı. İndi bu məzarlıqda "Çalıquşunu" bir qədər assosiasiya edirəm və... Aqil Abbas geriyə dönərək "transkripsiyanı" bizim nəzərimizə çatdırır. Yəni mən bilirəm siz hansı əhvalata işarə edirsiniz...

...Birlikdə Eyyub sultan camesinə daxil oluruq. Aqil Abbas bulaqda əl-üzünü yuduqdan sonra dua verir. Sonra şəkillər çəkdiririk.

Çöldə şəxsən mənim gözləmədiyim halda qaraçılarla rastlaşırıq...

...1975-ci ilin iyul ayıdır. Bir il əvvəl kitabxanada tanış olub, sonralar dostluq etdiyimiz və tez-tez görüşdüyümüz Olqa ilə rastlaşırıq. Bu, danışılmamış təsadüfi bir görüşdür. İyirmi yaşında mavi gözlü, sarışın bir qızdır. Axundov adına institutda



təhsil alır. Bakının elitar rus ailələrindən birinin ən kiçik övladıdır. İki bacı, bir qardaş.

Olqa İvanovna mənə məlumat verir ki, Nizami kinoteatrında yaxşı bir film göstərilir, hamı ondan danışır. Olyanın məqsədini anlayıram.

Nizami kinoteatrına yaxınlaşanda o vaxtların məşhur kinoaktrisası Svetlana Tomanın hündürlüyü az qala 3-4 metrə çatan iri, həm də cazibədar görkəmli şəkli göz qamaşdırır. Saçları çılpaq sinəsini örtən baş rol ifaçısının sol çiynindən bir qarış üzü aşağı rəssam bu gözəlliyə ikinci bir "azadlıq" vermişdi. Mən ilk dəfə idi ki, Bakıda ictimailəşmiş erotik portretlə rastlaşırdım. Film qaraçıların həyatından bəhs edirdi və ruscadan tərcüməsi təxminən belə idi: "Tabor göyə qalxır". Təbii ki, növbəyə durmadan orta sıralara iki bilet almaq mənim üçün çətin bir iş olmadı.



Film doğrudan elə Svetlana Tomanın özü kimi gözəl idi. Mən o vaxtadək qaraçıların, yəni əsl roman qaraçılarının həyatından bəhs edən filmə tamaşa etməmişdim. Sonralar bir neçə belə filmə, hətta çoxseriyalı televiziya filminə baxsam da, "Tabor göyə qalxır" mənim heç vaxt unuda bilmədiyim əhvalat kimi yaddaşımda beləcə qalıb yaşadı. Birincisi uşaq vaxtı belə qaraçı köçlərini rayonumuzda bir neçə dəfə görüb onların fal tutmaqlarına, ayı oynatmaqlarına tamaşa etmişdim. İkincisi bircə il sonar, yəni 1976-cı ildə Mahir Qarayevin mənə təqdim etdiyi "Qaraçı qız" şerini oxuduqda özümü saxlaya bilməyib dəftər vərəqini öpmüşdüm. Yəni, şer bu qədər gözəl və mükəmməl idi. Üçüncüsü isə Olqaya aiddir...

Aqil müəllim qaraçılardan birinə falına baxdırmadan pul verir

...Heyif, birlikdə olduğumuz 7-8 saat belə tez keçdi. Axşam düşüncə bizə uğurlar arzulayıb ayrılırlar. Mən bu doğma və xoşbəxt insanlara təşəkkür üçün ən şirin sözlər axtarıram. Baxıb görürəm ki, əbədi xoşbəxtlik arzusundan yuxarı istək ola bilməz. Dostlarım və doğmalarım Aqillə İradəyə əbədi xoşbəxlik hallalığı var bu mürəkkəb, ziddiyətli dünyamızın.

***P.S.** ...Yazacaqlarım hələ çoxdu, son sözüm bir az uzaqdadı. Əslində bu bir istəkdir, arzudur, qalan hər şey Tanrıya məxsusdur - son sözü O özü yazır. Ancaq vəziyyət elədir ki, yazmaq istədiklərimin bəzi nüansları üzərində tərəddüdliyəm. Ömrün uzaq keçmişiylə bu günləri arasındakı məsafə hərdən məni elə diksindirir ki, çaşıb qalıram. Bəlkə elə bu səbəbdən birinci hissənin sərlövhəsini "Başlanğıc: yazmaq və yazmamaq" adlandırmışam. Düşünürəm ki, hələ yazmalıyam, hələ gerçəkdən başlanğıcdır.*

***...Buradaca ürəyimdən qəribə hisslər keçir və mən... şer oxumaq, şeir söyləmək istəyirəm. Duruxub qalmışam: onumu, bunumu, ya bəlkə Nazim Hikmətin "Dəniz sahilində düşünən adamını"? Hamısı mümkündür. Ancaq indi tamam başqa ovqatdır, indi Rayner Maria Rilkenin günüdür. Üstündən bir əsrə yaxın vaxt keçsə belə...***

*Səs gəlir: hardasa çaylar oxuyur,*
*Oxuyan elə bil zamandı, vaxtdı.*
*Amma yox, vaxt deyil, zaman deyil, yox-*
*bəlkə sonsuzluqdu əriyir, axır.*

*Sənə yabançıdı bu səslər hələ,*
*Sudu - gah uzaqda, gah yaxındaca.*
*O suda bir daşsan bəlkə sən elə -*
*düşmüsən, qalmısan o axındaca.*

*Hər şey necə uzaq, necə yaxındı,*
*hər şey də bəllidi, mənası varmı...*
*sudu... axıb gedir, adi axındı...*

*Sənsə sir dəlisi, sir ölüsüsən,*
*yad sular, yad çaylar axdı, apardı*
*bütün hisslərini... hara görəsən?*

# *Yazıçı:* "Gəncliyim itdi, kəndimizə gedə, onun gözəlliyindən bəhrələnə bilmədim..."

**"Dünən Milli Xalça Muzeyində Cəbrayıl ziyalılarının iştirakıyla "Cəbrayıl günləri" adlı tədbir keçirildi. Bu gün də bir neçə tədbir var. Düz 27 il mən öz kəndimə gedə bilmədim. Nəhayət ki, Şanlı Ordumuzun, Şəhidlərimizin, qazilərimizin hesabına, Ali Baş Komandanın çox ağıllı, səriştəli və özü demişkən zamanı düzgün seçdiyi bir məqamda biz əks-hücuma keçdik və ilk işğaldan azad edilən rayon Cəbrayıl oldu".**



Bunu Adalet.az-a açıqlamasında yazıçı Elçin Hüseynbəyli doğulduğu Cəbrayıl rayonunun işğaldan azad olunması günü haqda danışarkən deyib. Yazıçı gənclik çağlarını doğulduğu kənddə keçirə bilmədiyi üçün təəssüfləndiyini bildirib:

"Biz həmin günü səbirsizliklə gözləyirdik və Cənab Prezident oktyabrın 4-də Cəbrayılın işğaldan azad edildiyini elan etdi. Həmin gün evdəydim və İctimai Televiziya məni canlı efirə bağladı, fikirlərimizi bölüşdük. Çox heyif ki, 27 ildə mənim gəncliyim itdi, kəndimizə gedə, onun gözəlliyindən bəhrələnə bilmədim. Bəzilərinin uşaqlığı, bəzilərinin isə qocalığı itdi. Yəni ermənilər bizə doğrudan da çox böyük zərbə vurdu. İndi onlar özləri də bunun acısını çəkirlər. Halbuki belə olmalı deyildi, zamanında biz onlara torpaq da vermişdik, bizim ərazimizdə dövlətlərin qurmuşdular, amma ikinci dövlət yaratmaq istəyirdilər və təbii ki, buna imkan verə bilməzdik. Sonda nəticəsi də bu oldu.

Əksəriyyət insanlar deyirdi ki, gərək Xankəndini də işğaldan azad edəydik. Amma hamımız şahidi olduq ki, Cənab Prezident çox doğru addım atdı və bütün dünya ictimaiyyətinə göstərdi ki, ermənilər düzələn deyilən. Ona görə üç il sonra antiterror əməliyyatı həyata keçirildi. İndi yavaş-yavaş işğaldan azad olunan rayonlarımızın şəhər günləri qeyd olunacaq".

Yazıçı Qarabağla bağlı yeni əsərlərin yazılacağını da bildirib: "Bəzi ağzıgöyçəklər deyirdilər ki, yazıçılar Qarabağ zəfərinə biganədirlər, əsərlər yazmırlar. Bu fikirlər tamamilə yalandır, əsassızdır, böhtandır. Yəni biz 20 Yanvar hadisəsindən başlayaraq indiyə kimi Azərbaycan yazıçıları bu hadisələrə biganə qalmayıb, həmişə əsərlər yazıb təmənnasız ortaya qoyublar. İndi də bu mövzuda əsərlər yazılır. Amma o fikirlə də razıyam ki, möhtəşəm zəfərimizə uyğun, layiq əsər hələ yazılmayıb. Əsərlərimiz var, amma mən istəyirəm daha möhtəşəm əsər yazılsın. Xoşbəxtdik ki, bizim bütün sərhədimiz var, bütün sərhədi olmayan millət və dövlət olmur. Biz indi bütövləşdik. Xırda məişət məsələləri də zaman-zaman düzələcək. Çünki qalib millət həm də gözəl dövlət qurmağa layiqdir".

**Vasif Əlihüseyn**

# Qordion arxeoloji ərazisi «UNESCO-nun Dünya İrs Siyahısına» daxil edilib

**Səudiyyə Ərəbistan Krallığının Ər-Riyad şəhərində keçirilən UNESCO-nun Ümumdünya İrs Komitəsinin Genişləndirilmiş 45-ci sessiyasında Türkiyənin paytaxtı Ankaradakı Qordion arxeoloji ərazisi "UNESCO-nun Dünya İrs Siyahısına" daxil edilib.**

Adalet.az xəbər verir ki, sentyabrın 18-də Qordion siyahıya daxil edilənTürkiyənin 20-ci irs sahəsi olaraq qeydə alınıb.

UNESCO-nun Ümumdünya İrs Konvensiyasında qədim Qordion şəhəri "Dəmir dövründən müstəqil bir krallıq olan Frigiyanın qədim paytaxtının qalıqlarını əhatə edən çoxqatlı qədim yaşayış məskəni" kimi təsvir edilmişdir. UNESCO əlavə edir: "Sahədəki arxeoloji qazıntılar və tədqiqatlar Frigiya mədəniyyətinə və iqtisadiyyatına işıq salan tikinti texnikasını, məkan quruluşlarını, müdafiə strukturlarını və inhumasiya təcrübələrini sənədləşdirən çoxlu qalıqlar aşkar edib."

### *Qordion: Davamlı Məskunlaşma Yaşayan Nadir Qəsəbə*

Ankaranın Polatlı rayonunda yerləşən qədim Qordion şəhəri Anadolu torpaqlarında iz qoymuş sivilizasiyaların zəngin qobelenlərinin diqqətəlayiq bir sübutudur. Möhtəşəmümumbəşəri dəyərləri ilə Anadolu tarixinə işıq tutan şəhər Şərqlə Qərbin mühüm kəsişmə nöqtəsi idi.

Qordionun yerindəki məskunlaşma, əraziyə bitişik olan Yassıhöyük kurqanındakı Erkən Tunc dövrünə (təxminən eramızdan əvvəl 2500-cü il) aid dəlillər daşıyır. Qədim şəhərdə və onun ətrafında 4500 ildir fasiləsiz insan məskəninin olması Qordionu dünyada ən uzun fasiləsiz məskunlaşma tarixinə malik nadir ərazilər sırasına daxil edir. Ərazinin müxtəlif sivilizasiyalar üçün cəlbediciliyi bir sıra amillərlə, o cümlədən Anadolunun əhəmiyyətli ticarət yolları boyunca strateji mövqeyi, Sanqarios (indiki Sakarya) çayından əldə edilən bol su təchizatı və kənd təsərrüfatına yararlı geniş münbit torpaqlarla əlaqələndirilə bilər.

### *Qordionun tarixinə bir baxış*

Qordion, eramızdan əvvəl 12-ci əsrdə Het İmperiyasınındağılması ilə yüksələn Frigiyanın siyasi və mədəni paytaxtı kimi tanınır. Buna görə də, bu, sivilizasiya haqqında fikir əldə edə bilmək üçün vacib bölgədir. Frigiyalılar Anadolu torpaqlarında indiki Ankara, Afyonkarahisar, Eskişehir və Kütahya vilayətlərini əhatə edən geniş bir bölgədə məskunlaşdılar. Frigiya Vadisi, Frigiya sivilizasiyasının izlərini daşıyan qaya parçaları və qədim xarabalıqları ilə dünyada digər bölgələrdən fərqli olaraq geniş landşaftdır. Frig ziyarətçilər artıq öz tarixi vətənlərinə Frigiyalıların izi ilə gedə bilərlər.

Frigiya dövrünün monumental tikililəri Qordionun landşaftında mühüm iz buraxmışdır. Erkən Frigiya qalasının binaları və şəhər hökmdarlarının kurqanları, hətta bu gün də ilkin nəzərdə tutulan effektə malikdir: Frigiya elitasının inanılmaz gücünü və nüfuzunu göstərir. Bu yer bir vaxtlar mifologiyada "qızıl toxunuş"la lənətlənmiş Kral Midasın hakimiyyəti altında olub. Qordiondakı Böyük Tumulus və ya Kral Midasın məzarı üçüncü ən böyük kurqandır və onun içindəki qəbir kamerası dünyanın ən qədim taxta binasıdır.

Qordion həm də bir çox qədim tarixçilərin danışdığı Qordi düyünü epizodu ilə birbaşa əlaqələndirilir. Rəvayətə görə, düyünü yalnız Asiyanın gələcək fatehinin açacağına inanırdılar. Odur ki, Qordionu Makedoniyalı İsgəndərinziyarət etməsi və onu qılıncla kəsməyə cəhd etməsi təsadüfi deyildi.

Qordion yaxınlığındakı yaxşı qorunan istehkamlar və monumental tikililər bu gün Frigiyalıların tarixinə inanılmaz bir səyahət təklif etsə də, ərazidəki Qordion Muzeyində qazıntılardan çıxarılmış heyrətamiz parçalar da var. O, hər dövrü xarakterik nümunələrlə təmsil edən xronoloji ekranı nümayiş etdirir. Əsərlər arasında Erkən Dəmir dövrünə aid əl istehsalı saxsı məmulatlar, Erkən Frigiya dövrünə aid dəmir alətlər, qədim saxsı məmulatlar və xaricdən gətirilən mallar var. Bunlarla yanaşı ziyarətçilər Qordionda tapılan möhür və sikkə nümunələrinə də baxa bilərlər.



UNESCO-nun Ümumdünya İrs Siyahısında Türkiyənin İrsi:

**1. Göreme Milli Parkı və Kapadokiyanın Qaya Sahələri**
**2. Divriği Ulu Məscidi və Xəstəxanası**
**3. İstanbulun tarixi əraziləri**
**4. Hattuşa: Xet Paytaxtı**
**5. Nemrut Dağı**
**6. Hierapolis-Pamukkale**
**7. Xanthos-Letoon**
**8. Safranbolu şəhəri**
**9. Troya arxeoloji ərazisi**
**10. Selimiye məscidi və onun ictimai kompleksi**
**11. Çatalhöyükün neolit dövrü**
**12. Bursa və Cumalıkızık: Osmanlı İmperatorluğunun Doğuşu**
**13. Perqamon və onun çoxqatlı mədəni mənzərəsi**
**14. Diyarbakır qalası və Hevsel bağları mədəni mənzərəsi**
**15. Efes**
**16. Ani arxeoloji ərazisi**
**17. Afrodiziyalar**
**18. Göbekli Təpə**
**19. Arslantepe kurqanı**
**20. Qordion**
**21. Orta əsrlər Anadolunun Taxta Hipostil Məscidləri**

## *"Tottenhem"lə matç təkrar oynanılmalıdır"*

**"Liverpul"un baş məşqçisi Yurgen Klopp İngiltərə Premyer Liqasının 7-ci turunda "Tottenhem"ə qarşı matçda (1:2) təmiz qollarının qeydə alınmaması barədə danışıb.**

Qol.az xəbər verir ki, almaniyalı mütəxəssis bu görüşün təkrar keçirilməli olduğunu deyib:

"Mən bunu "Liverpul"un baş məşqçisi kimi deyil, bir futbol adamı kimi deyirəm. Bu matç təkrar oynanılmalıdır.

Xatırladığım qədər, indiyə qədər belə bir şey olmayıb. Ona görə də, mənim fikrimcə, təkrar oyun olmalıdır".

**Xatırladaq ki, İngiltərə Premyer Liqasının 7-ci turunda "Tottenhem"in "Liverpul"la qarşılaşmasında Mersisayd təmsilçisinin futbolçusu Luis Diazın vurduğu təmiz qol matçın baş hakimi tərəfindən nəzərə alınmayıb. VAR sistemi onu müəyyən etməyə kömək etməli idi, lakin qərara müdaxilə edilməyib. Görüşdən sonra hakimlər səhvə görə üzr istəyib.**

# Coşqun Xəliloğlunun və Sevinc Arzulunun kitablarının təqdimat mərasimi keçirildi

**1 oktybr 2023-cü il tarixində Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Xaqani Şirvani adına Aran Regional filialının təşkilatçılığı və şəhid ailələri, eləcə də rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə Azərbaycan Jurnalistlər və Yazıçılar Birliyinin üzvü, şair, yazıçı Coşqun Xəliloğlunun "Vətən yaşasın deyə", Azərbaycan Yazıçılar Birliyinin üzvü, şairə Sevinc Arzulunun "Qarabağ qan yaddaşım" adlı kitablarının təqdimat mərasimi keçirildi.**

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlandı.

Tədbirdə öncə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən fədailərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Təqdimat mərasimini giriş sözü ilə açan Aran filialının müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında 44 gün ərzində əldə olunan möhtəşəm Qələbənin müstəqillik tariximizin ən böyük zəfəri olduğunu, sentyabrın 27-dən başlayaraq cəbhə xəttində işğalçı Ermənistan ordusunun təxribatlarına cavab verən şanlı Azərbaycan Ordusunun qısa zamanda Qarabağ uğrunda başladığımız haqq savaşını Qələbə ilə başa vurmasını, 44 gün davam edən ikinci Vətən müharibəsində qəhrəman oğullarımızın düşmənə sarsıdıcı zərbələr endirərək, onları 27 il işğal altında saxladıqları torpaqlarımızdan qovmasını vurğuladı. O, eyni zamanda, Vətən müharibəsi dövründə və ondan sonraki quruculuq dövründə qələmi ilə müsəlləh əsgərə dönən ziyalılarımızın, şair və yazarlarımızın rolunu dəyərləndirərək hər iki şairin yeni çapdan çıxmış "Vətən yaşasın deyə" və "Qarabağ - qan yaddaşım" kitablarından bəhs etdi. Yaqut Bahadurqızı eyni zamanda, torpaqlarımızın azadlığı uğrunda canını fəda edən şəhidlərimizin adlarının əbədiləşdirilməsi, həyat tarixçəsinin xalqın qan yaddaşına köçürülməsi məramı ilə istedadlı qələm sahiblərinin oxuculara təqdim olunan kitabının gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində çox faydalı olacağını vurğuladı.



Təqdimat mərasimində çıxış edən şəhid ailələri Müşgünaz Əliyeva, Rəfiqə Dadaşova, Gürşad Qurbanov, Azərbaycan Yazıçılar Birliyinin üzvləri Abdüləziz Xanəhmədoğlu, Mənsurə Qaçayqızı çıxışlarında qeyd etdilər ki, "Vətən yaşasın deyə" və "Qarabağ qan yaddaşım" şeirlər kitablarında Vətən yanğısını söndürməyə gedən oğullardan bəhs edən və eləcədə Vətəni, torpağı,dövlətçiliyimizi, sülhü tərənnüm edən şeirlərin oxunaqlı olmağına səbəb müəlliflərin gördüklərinə, eşitdiklərinə, oxuduqlarına şair təxəyyülünün məhsuludur. Eyni zamanda, hər iki müəllifin təqdim etdiyi bu kitabların şəhid valideynlərinə təskinlik verməsi ilə yanaşı, yeniyetmələrə, gənclərə vətənpərvərlik ruhu, qəhrəmanlıq, vətənpərvərlik, anaya sevgi, saf məhəbbət, dosta sədaqət və s. aşılaması vurğulandı.

Tədbirdə şəhidlərimizə həsr olunan foto slayd nümayiş edildi. Kürdəmir rayonunda qaçqın və məcburi köçkünlər üçün salınmış yeni qəsəbədə yerləşən Qarabağ Regional Təhsil İdarəsi Ağdam rayon 153 nömrəli tam orta məktəbin və Kürdəmir şəhər 3 saylı tam orta məktəbin şagirdləri "Vətən yaşasın deyə", "Qarabağ qan yaddaşım" kitablarından hazırladıqları kompazisiyanı tədbir iştirakçılarına təqdim etdilər.

**Təqdimat mərasiminin sonunda hər iki kitabın müəllifi Coşqun Xəliloğlu və Sevinc Arzulu çıxış edərək onların əməyinə göstərilən diqqət üçün tədbirin təşkilatçısı olan Nizami Gəncəvi adına Milli Ədəbiyyat Muzeyinin Aran Regional filialına və iştirakçılara öz minnətdarlıqlarını bildirdilər. Sonda müəlliflərin sözü gedən kitabları şəhid ailələrinə hədiyyə edildi.**

## Qvardiola Ferqyusonu geridə qoydu

**Çempionlar Liqasının qrup mərhələsinin 2-ci turunda "Leyptsiq"lə matç "Mançester Siti"nin baş məşqçisi Xosep Qvardiola üçün əlamətdar olub.**

Qol.az xəbər verir ki, görüşdə "şəhərlilər" Bundesliqa təmsilçisini məğlub ediblər. Bu qələbə Qvardiola üçün Avropanın əsas klub turnirində 103-cü olub. Bununla da Pep "Mançester Yunayted" ilə ÇL-in 190 matçında 102 qələbə qazanan Ser Aleks Ferqyusonu qabaqlayıb.

Qvardiola bu nailiyyətə 161 oyuna çatıb.

Siyahıya "Real"ın baş məşqçisi italiyalı Karlo Ançelotti liderlik edir. Onun 193 matçda 109 qələbəsi var.

Əbülfət Mədətoğlu ailə üzvləri ilə birlikdə **Müşfiq Mirzəyə** anası **Elza xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 149**
Çapa imzalanmışdır: 05.10.2023